RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 108 (9275) 24 MAY 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




## "Əsl vaxtdır, yubanmaq olmaz"

### Azərbaycan-Litva iqtisadi münasibətlərinin dərinləşməsi üçün əlverişli şərait yetişib

Azərbaycan Prezidenti İlham Əliyevin və Litva Prezidenti Gitanas Nausedanın mətbuata bəyanatları da iki ölkə arasında xoş münasibətlərin və işgüzar əlaqələrin davamlı olduğunu göstərir. Dövlətimizin başçısı bəyanatında bildirmişdir ki, bizim Litva ilə ikitərəfli əməkdaşlıq çərçivəsində, eyni zamanda Avropa İttifaqı-Azərbaycan əlaqələri də önəmli rol oynayır. "Prezident Nauseda Azərbaycana səfər edəndən iki ay sonra Avropa Komissiyası ilə Azərbaycan arasında Bakıda enerji sahəsində strateji tərəfdaşlıq üzrə Anlaşma Memorandumu imzalanmışdır və bu memorandum uğurla icra edilir. Azərbaycan təbii qazının Avropa bazarlarına nəql edilməsi ilə bağlı çox ciddi addımlar atılır. Nəql edilən, yəni ixrac edilən qazın həcmi ildən-ilə artır və artacaq. Biz bu gün, eyni zamanda Litvada və Azərbaycanda bərpaolunan enerji növlərinin yaradılması ilə də bağlı fikir mübadiləsi apardıq. Biz gördük ki, bu istiqamətdə də, demək olar, paralel şəkildə gedirik. Həm Litvada, həm Azərbaycanda bu sahəyə çox böyük diqqət göstərilir və hesab edirəm ki, yaxın gələcəkdə bu sahədə də ikitərəfli əməkdaşlıq mümkün olacaq. Təbii ki, ölkələrimizi birləşdirən və ümumiyyətlə, qitələri birləşdirən Avrasiya qitəsində daha da rahat nəqliyyat-kommunikasiya imkanlarını yaratmaq üçün ölkələrimizin payına böyük vəzifələr düşür. Biz razılaşdıq ki, müvafiq qurumlar bu məsələ ilə bağlı ciddi məşğul olacaqlar. Çünki dünyada hökm sürən yeni geosiyasi reallıq bunu diktə edir".

Hər iki tərəfin fikrincə, indi bu fürsətləri dəyərləndirmək üçün əsl münasib vaxtdır və yubanmaq lazım deyil. Çünki imkanlar, xüsusən də hazırkı geosiyasi vəziyyətdə əlavə dəyər gətirəcək, daha böyük inkişafa təkan verəcək.

→ 10

## Litva ilə münasibətlər qarşıdakı dövrdə genişlənərək yeni əməkdaşlıq sferalarını əhatə edəcək

"Azərbaycan ilə Litva arasında münasibətlər xoş ənənələrə malikdir və biz bu münasibətlərin inkişafına xüsusi əhəmiyyət veririk". Bu fikir Prezident İlham Əliyevin bu ilin fevral ayında Litvanın milli bayramı münasibətilə bu ölkənin Prezidenti Gitanas Nausedaya göndərdiyi təbrik məktubunda yer alıb. Bu günlərdə İlham Əliyevin Litvaya etdiyi rəsmi səfər isə bir daha təsdiq etdi ki, hər iki ölkədə əlaqələrin daha da inkişaf etdirilməsi üçün güclü siyasi iradə var.

### Tarixə söykənən əlaqələr

Litva Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlətlər sırasında yer alıb. Bu ölkə Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 20-də tanıdığını bəyan edib. Azərbaycanla Litva uzun müddət - təxminən 50 il sovet imperiyasının tərkibində olsalar da, iki dövlət və onların xalqları arasında münasibətlərin tarixi daha qədimdir. Prezident İlham Əliyevin səfəri zamanı keçirilən biznes forumunda Litva Prezidenti Gitanas Nauseda bu məsələyə toxunaraq Azərbaycan xalqının ulu əcdadlarının hələ XV əsrdə Litva elçilərini qəbul etdiklərini xatırlatdı.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra iki dövlət arasında diplomatik əlaqələr də formalaşıb. O zaman Azərbaycanda Litvanın konsulluğu fəaliyyət göstərib. Vincas Kreve-Mickevicisun bu ölkənin Azərbaycandakı konsulu olub. Bakıda Litva Konsulluğu 1922-ci ildə Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının yaradılmasına qədər fəaliyyət göstərib.

Xalq Cümhuriyyəti dövründə Azərbaycan Ordusunun sıralarında xidmət etmiş general-leytenant Məhəmməd bəy Sulkeviç Litva tatarlarındandır.

→ 5

## Azərbaycan ilə Monteneqro arasında əməkdaşlığın genişləndirilməsi önəmlidir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Monteneqro parlamentinin Sədri xanım Daniyela Curoviçi qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ikitərəfli əlaqələrimizin yaxşı səviyyədə olduğunu bildirdi. Prezident İlham Əliyev hazırkı dövrdə Avropanın enerji təchizatının şaxələndirilməsi məsələsində ölkəmizin önəmli tərəfdaşa çevrildiyini dedi, Azərbaycan ilə Monteneqro arasında müxtəlif sahələrdə, o cümlədən nəqliyyat və energetika sahələrində də əməkdaşlığın genişləndirilməsinin önəmini vurğuladı.

Parlamentlər səviyyəsində əlaqələrin əhəmiyyətinə toxunan Azərbaycan Prezidenti ölkələrimizin müxtəlif parlamentlərarası beynəlxalq təşkilatlarda bir-birini dəstəklədiyini qeyd etdi. Dövlətimizin başçısı Daniyela Curoviçin ölkəmizə səfərinin əlaqələrimizin inkişaf perspektivlərinin müzakirəsi baxımından yaxşı imkan yaratdığını vurğuladı.

→ 2

## İnteqrasiya olunmuş Cənubi Qafqaz modelinin yaradılması təşəbbüsünü məhz Azərbaycan irəli sürüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də ATƏT Parlament Assambleyasının sədri xanım Marqareta Sederfelti qəbul edib.

AZƏRTAC xəbər verir ki, Marqareta Sederfelt Milli Məclisin və ATƏT Parlament Assambleyasının birgə təşkilatçılığı ilə "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizlik və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda Bakıda keçirilən beynəlxalq konfransın əhəmiyyətini vurğuladı və bu tədbirdə ATƏT-ə üzv ölkələrin çox sayda parlament nümayəndə heyətlərinin təmsil olunduğunu bildirdi, burada gündəlikdə duran vacib məsələlərin müzakirəsi üçün yaxşı imkan yarandığını dedi.

ATƏT Parlament Assambleyasının sədri nümayəndə heyəti ilə birlikdə Zəngilan rayonuna səfər edəcəklərini və ərazilərimizin yenidən qurulması prosesləri ilə tanış olacaqlarını vurğuladı.

→ 2

## Regiona sülhü Azərbaycanın qətiyyəti gətirəcək

2020-ci il noyabrın 10-dan etibarən Vətən müharibəsinin diktə etdiyi yeni reallıqlar əsasında Ermənistan və Azərbaycan arasında normallaşmaya, sülh razılaşmasına dair aparılan danışıqlar bu il xeyli intensivləşib.

Belə ki, tərəflər arasında vasitəçilərin iştirakı ilə cari il mayın 1-dən 4-nə kimi Vaşinqtonda, 19-da Moskvada xarici işlər nazirləri səviyyəsində görüşlər keçirilib. Eləcə də iki ölkənin liderləri mayın 14-də Avropa İttifaqı Şurası prezidenti Şarl Mişelin təşəbbüsü ilə növbəti dəfə Brüsseldə üçtərəfli görüşdə sülh prosesini müzakirə ediblər. Sayca beşinci olan budəfəki Brüssel görüşü politoloqlar, siyasi şərhçilər tərəfindən Cənubi Qafqazda sülhün əldə olunması istiqamətində atılan addımlar baxımından xüsusilə nəticəyönümlü, məhsuldar hesab edildi. Azərbaycanın bölgədəki reallıqlara əsaslanaraq sülhlə bağlı diktə etdiyi şərtlərlə razılaşan Hayastan əvvəlki Praqa və Soçi görüşlərində olduğu kimi, mayın 14-də keçirilən görüşdə də Azərbaycanla sərhədlərin - 1991-ci ilin Alma-Ata Bəyannaməsi əsasında həll olunmasını rəsmən qəbul etməyə məcbur oldu.

Sözügedən görüşün ən mühüm nəticələrindən biri isə iki ölkə arasında sülh sazişinin imzalanmasının yalnız Azərbaycanın irəli sürdüyü tələblərin yerinə yetirilməsi ilə mümkünlüyünü ortaya qoydu.

10 noyabr üçtərəfli Bəyanatında da tövsif olunduğu kimi, ölkəmiz beynəlxalq hüququn norma və prinsiplərinə söykənən 5 baza prinsipi irəli sürüb və sülh müqaviləsi də yalnız bu tələblər yerinə yetiriləcəyi təqdirdə mümkündür.

→ 4

## Revanşistlərin çevriliş planı

### Keçmiş hərbi xunta Hayastanda yaranmış vəziyyətdən istifadə edərək ölkədəki xaosu daha da dərinləşdirməyə çalışır

Hayastanda Nikol Paşinyan hakimiyyəti ilə sabiq iqtidar təmsilçiləri arasında kəskinləşən qarşıdurma ölkədə yeni xaos formalaşdırmaqla ictimai-siyasi proseslərin daha gərgin mərhələyə qədəm qoyduğunu göstərir.

Xüsusilə baş nazir Nikol Paşinyanın Hayastanın Azərbaycanın ərazi bütövlüyünü tanıması ilə bağlı açıqlamalarından sonra sosial narazılıqlardan istifadə edən Sarkisyan-Koçaryan koalisiyasının revanşist istəyi vəziyyətin daha da qarışacağından xəbər verir.

Proseslər göstərir ki, keçmiş hərbi xunta yaranmış vəziyyətdən istifadə edərək ölkədəki xaosu daha da dərinləşdirməyə çalışır. Bununla da sabiqlər yenidən hakimiyyət başına qayıtmağı düşünürlər. Əsas niyyətləri isə son günlərdə daha da alovlanan etirazlar nəticəsində İrəvana qarşı müqavimət və itaətsizlik təşkil etmək, bununla xaotik durumun yaradılmasına nail olub, güc yolu ilə hakimiyyəti qəsb etməkdir.

Bununla yanaşı, müxalifət hakimiyyətə gəlmək üçün xaricdən, indiki halda Rusiyadan da yardım alacağına ümid bəsləyir. "Past" nəşri yazır ki, Hayastanda hakimiyyət çevrilişi istisna olunmur: "Məlumata görə, danışıqlar prosesi ilə paralel olaraq müxtəlif platformalarda başqa diqqətçəkən müzakirələr də gedir.

→ 12

◆ Jurnalist araşdırması

## Sığorta etdirməyənlər cərimələnəcəklər?

### Daşınmaz əmlakın sığortalanma durumu yeni elektron sistemlə müəyyən ediləcək

Təcrübə göstərir ki, vətəndaşlar bəzən riskləri doğru dəyərləndirmədikləri üçün sığortadan yayınır və xoşagəlməz hadisələr baş verdikdə çətin vəziyyətə düşürlər. Daşınmaz əmlakın sığortalanması icbari olsa da, reallıq budur ki, mənzillərin sığortalanması kütləvi deyil. Amma qanunla nəzərdə tutulmasına baxmayaraq, indiyədək fərdi ev və mənzil sahibləri daşınmaz əmlaklarını sığortalamadıqlarına görə cərimələnmirdilər.

İyunun 1-dən isə daşınmaz əmlakın sığortalanması elektronlaşdırılacaq. İcbari sığorta müqavilələrinin elektronlaşması daşınmaz əmlakın sığortalanıb-sığortalanmadığını müəyyən etməyə imkan verəcək.

→ 12

## Qeyri-neft-qaz sektorunda ÜDM istehsalı 3,1 faiz artmışdır



→ 10

# Azərbaycan ilə Monteneqro arasında əməkdaşlığın genişləndirilməsi önəmlidir



*Əvvəli 1-ci səh.*

Qonaq Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi və qarşıdan gələn 28 May - Müstəqillik Günü münasibətilə təbriklərini çatdırdı.

Daniyela Curoviç Azərbaycanla Monteneqronun dost ölkələr olduğunu vurğulayaraq Milli Məclis və ATƏT Parlament Assambleyasının birgə təşkilatçılığı ilə "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizlik və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda beynəlxalq konfransın Bakıda keçirilməsinin önəminə toxundu, bu tədbirdə enerji və ərzaq təhlükəsizliyi, həmçinin digər mühüm məsələlərin müzakirə olunduğunu bildirdi. Monteneqro parlamentinin sədri konfrans çərçivəsində Zəngilan rayonuna səfərin də təşkil ediləcəyini və işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma işləri ilə yerində tanış olacaqlarını diqqətə çatdırdı.

Qonaq Monteneqronun Azərbaycan ilə enerji sahəsində əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu vurğuladı. Ölkələrimiz arasında çarter aviareyslərinin həyata keçirildiyini deyən Daniyela Curoviç bunun turizm sahəsində əlaqələrin genişlənməsinə töhfə verdiyini qeyd etdi, gələcəkdə bu istiqamətdə də əməkdaşlığı dərinləşdirmək üçün yaxşı imkanların olduğunu bildirdi.

Görüşdə həmçinin sərmayələr sahəsində əməkdaşlıq məsələləri də müzakirə olundu.

# İnteqrasiya olunmuş Cənubi Qafqaz modelinin yaradılması təşəbbüsünü məhz Azərbaycan irəli sürüb



*Əvvəli 1-ci səh.*

Marqareta Sederfelt hazırda Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində media müstəvisində müsbət bəyanatların olduğunu qeyd edərək sülh gündəliyi ilə maraqlandı.

Dövlətimizin başçısı Milli Məclisin və ATƏT Parlament Assambleyasının birgə təşkilatçılığı ilə keçirilən beynəlxalq konfransın əhəmiyyətini vurğuladı. Nümayəndə heyətinin işğaldan azad edilmiş torpaqlarımıza səfərinin, orada aparılan işlərlə yerində tanış olmalarının önəmini qeyd edən Prezident İlham Əliyev hazırda həmin ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirildiyini diqqətə çatdırdı.

Azərbaycan Prezidenti 44 günlük Vətən müharibəsi başa çatandan sonra Ermənistanla münasibətlərin normallaşması və sülh müqaviləsinin imzalanması təşəbbüsü ilə məhz Azərbaycanın çıxış etdiyini vurğuladı. Dövlətimizin başçısı bu xüsusda son dövrlərdə iki ölkənin xarici işlər nazirləri səviyyəsində sülh müqaviləsinin mətni üzrə Vaşinqtonda aparılmış müzakirələri, həmçinin Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin dəstəyi ilə özünün Ermənistanın baş naziri ilə keçirdiyi görüşlərini qeyd etdi, qarşıdan gələn dövrlərdə də müxtəlif beynəlxalq tədbirlər çərçivəsində görüşlərin olacağını bildirdi. Prezident İlham Əliyev Azərbaycanın təqdim etdiyi 5 prinsip, xüsusilə dövlətlərin ərazi bütövlüyünün və suverenliyinin qarşılıqlı şəkildə tanınması əsasında ölkəmizin sülh müqaviləsinin imzalanmasını dəstəklədiyini vurğuladı.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan, Gürcüstan və Ermənistanın eyni platformada bir araya gətirilməsi və inteqrasiya olunmuş Cənubi Qafqaz modelinin yaradılması təşəbbüsü məhz Azərbaycan tərəfindən irəli sürülüb.

Görüşdə nəqliyyat-kommunikasiya xətlərinin açılması məsələləri də müzakirə olundu.

## Azərbaycanda ətraf mühitin və təbii sərvətlərin qorunmasında xidmətləri olan bir qrup şəxsin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycanda ətraf mühitin və təbii sərvətlərin qorunmasında xidmətləri olan aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Allahverdiyev Rəşad Zabid oğlu
Allahverdova Sevda Rafiq qızı
Balayev Mehyəddin Mövlud oğlu
Cəlilov Elnur Xəliş oğlu
Darafarin Sadiq Rəhim oğlu
Əliyev Elburus Fətulla oğlu
Xuruci Mirzə Mürşüd oğlu
İbrahimov Rəhim Əlihüseyn oğlu
İsayeva Nəzakət Sədir qızı
Kərimli Kənan Cabar oğlu
Qənbərova Eyzangül Fətullah qızı
Seyidova Aytən Kamal qızı
Tağıyev Məmməd Abuzər oğlu
Yusifov Namiq Polad oğlu.

2. Azərbaycanda ətraf mühitin və təbii sərvətlərin qorunmasında uzunmüddətli səmərəli xidmətinə görə Şahbəddin Cabbar oğlu Musayevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2023-cü il*

## S.Q.Mərdəliyevin Azərbaycan Respublikasının Ukraynada fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Seymur Qurban oğlu Mərdəliyev Azərbaycan Respublikasının Ukraynada fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2023-cü il*

## S.Q.Mərdəliyevin Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Cenevrə şəhərindəki bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsinin müavini vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Seymur Qurban oğlu Mərdəliyev Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Cenevrə şəhərindəki bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsinin müavini vəzifəsindən geri çağırılsın.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2023-cü il*

## Azərbaycan Respublikasının Keniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri S.A.Hacıyevin iqamətgahı Nayrobi şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının BMT-nin Nayrobi şəhərindəki bölməsində daimi nümayəndəsi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Keniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri Sultan Ağami oğlu Hacıyev iqamətgahı Nayrobi şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının BMT-nin Nayrobi şəhərindəki bölməsində daimi nümayəndəsi təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2023-cü il*

## S.A.Hacıyevin Azərbaycan Respublikasının Keniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Sultan Ağami oğlu Hacıyev Azərbaycan Respublikasının Keniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2023-cü il*

## İctimai və sosial məqsədlər üçün yaradılmış fondların siyahısının təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 677-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

"İctimai və sosial məqsədlər üçün yaradılmış fondların siyahısı" təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2023-cü il*

***Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 may tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## İctimai və sosial məqsədlər üçün yaradılmış fondların siyahısı

1. Heydər Əliyev Fondu
2. Qarabağ Dirçəliş Fondu
3. Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu ("YAŞAT" Fondu).

## S.İ.Paşayevin Naxçıvan Muxtar Respublikasının prokuroru təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin IV hissəsini rəhbər tutaraq **qərara alıram:**

1. Sənan İsa oğlu Paşayev Naxçıvan Muxtar Respublikasının prokuroru təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2023-cü il*

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlərin tənzimlənməsi və "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin fəaliyyətini optimallaşdırmaq, həmçinin əməyin mühafizəsi və iş yerlərinin attestasiyasının keçirilməsi sahəsində idarəetməni təkmilləşdirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

1.1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin (bundan sonra - Xidmət) mərkəzi laboratoriyasının əsasında Xidmətin tabeliyində "Əməyin Mühafizəsi Mərkəzi" publik hüquqi şəxsi (bundan sonra - Mərkəz) iki ay müddətində yaratsın və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. Mərkəz işəgötürənlərə əməyin mühafizəsi və iş yerlərinin attestasiyası sahələrində xidmətlər göstərən, eləcə də bu sahələrdə təlimlər keçirilməsini, məsləhət verilməsini və metodiki dəstəyi təmin edən publik hüquqi şəxsdir;

2.2. Mərkəzin təsisçisinin "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində qeyd edilən səlahiyyətlərini Mərkəzin nizamnaməsinin təsdiq olunması, nizamnamə fondunun miqdarının müəyyən edilməsi və onlarda dəyişiklik edilməsi, idarəetmə orqanlarının yaradılması, strukturunun, əməyin ödənişi fondunun, işçilərin say həddinin və onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiqi, habelə Mərkəzin yenidən təşkili və ləğvinə münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər məsələlərə münasibətdə isə Xidmət həyata keçirir;

2.3. Mərkəzin saxlanma xərcləri və fəaliyyəti aşağıdakı mənbələrdən maliyyələşdirilir:

2.3.1. Dövlət Əməyin Mühafizəsi Fondundan ayırmalar;

2.3.2. fəaliyyətindən əldə edilən gəlir;

2.3.3. qanunla qadağan olunmayan digər mənbələr.

3. "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90, № 7, maddə 625, № 11, maddə 996; 2012, № 9, maddə 853, № 11, maddə 1084; 2013, № 2, maddə 124, № 12, maddə 1525; 2014, № 7, maddə 789, № 9, maddə 1053; 2015, № 1, maddə 17, № 3, maddələr 263, 264, № 6, maddə 705, № 8, maddə 908, № 10, maddə 1134; 2016, № 3, maddə 437, № 5, maddə 859, № 6, maddələr 1051, 1072; 2017, № 9, maddə 1633; 2018, № 3, maddə 433, № 6, maddə 1245; 2019, № 1, maddə 73, № 2, maddə 245, № 5, maddə 845, № 6, maddə 1036, № 7, maddə 1232, № 8, maddə 1397, № 11, maddə 1718, № 12, maddə 1935; 2020, № 3, maddə 247, № 6, maddə 717, № 8, maddə 1036; 2021, № 4, maddə 318, № 8, maddə 922, № 12, maddə 1403; 2022, № 7, maddə 762, № 8, maddə 871, № 11, maddə 1261; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 mart tarixli 2066 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

3.1.7-ci hissədə "110" rəqəmləri "107" rəqəmləri ilə, "260" rəqəmləri "257" rəqəmləri ilə əvəz edilsin və həmin hissədən "(Xidmətin mərkəzi laboratoriyası ilə birlikdə)" sözləri çıxarılsın;

3.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti haqqında Əsasnamə" üzrə:

3.2.1. 4.1.3-cü yarımbənddə "əməyin mühafizəsi üzrə stasionar və səyyar laboratoriyaları" sözləri "tabeliyində olan qurumlar" sözləri ilə əvəz edilsin;

3.2.2. 5.1-ci bənddən ", əməyin mühafizəsi üzrə stasionar və səyyar laboratoriyalar" sözləri çıxarılsın və həmin bəndə "(bundan sonra - yerli orqanlar)" sözlərindən sonra ", tabeliyində olan qurumlar" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2023-cü il*

## E.H.Axundovanın Azərbaycan Respublikasının Ukraynada fövqəladə və səlahiyyətli səfiri, eyni zamanda Azərbaycan Respublikasının Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat - GUAM yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elmira Hüseyn qızı Axundova Azərbaycan Respublikasının Ukraynada fövqəladə və səlahiyyətli səfiri, eyni zamanda Azərbaycan Respublikasının Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat - GUAM yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə"də və 2010-cu il 26 yanvar tarixli 211 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının miqrasiya orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 239; 2008, № 1, maddə 4, № 3, maddə 168, № 8, maddə 722, № 11, maddə 970; 2009, № 1, maddə 11, № 4, maddə 221, № 7, maddə 532, № 12, maddə 983; 2010, № 2, maddə 83, № 3, maddə 193, № 7, maddə 625; 2011, № 2, maddə 85, № 3, maddə 178, № 11, maddə 994; 2012, № 4, maddə 287; 2013, № 2, maddə 121, № 5, maddə 513, № 9, maddə 1044, № 12, maddə 1551; 2014, № 9, maddə 1063; 2015, № 2, maddə 119, № 9, maddə 978; 2016, № 5, maddə 868; 2017, № 5, maddə 816; 2019, № 5, maddə 836; 2022, № 8, maddə 871) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 11-ci hissədən ", habelə Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti" sözləri çıxarılsın;

1.2. 17-ci hissənin birinci cümləsindən ", Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisindən" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 26 yanvar tarixli 211 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 1, maddə 9; 2012, № 4, maddə 288) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının miqrasiya orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı"nın "Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi - II dərəcəli dövlət miqrasiya xidməti müşaviri" abzası ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2023-cü il*

---

## "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 17 aprel tarixli 2854 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 17 aprel tarixli 2854 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 408) aşağıdakı dəyişikliklər edilsin:

1. "Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi" abzası ləğv edilsin.

2. "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı baş idarəsinin rəisi" abzasından sonra aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Bakı şəhər regional miqrasiya baş idarəsinin rəisi

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Naxçıvan regional miqrasiya baş idarəsinin rəisi".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2023-cü il*

---

## "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin strukturunun və işçilərinin say həddinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 14 may tarixli 2163 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 14 may tarixli 2163 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 500; 2008, № 11, maddə 970; 2009, № 12, maddə 1053; 2011, № 7, maddə 699; 2012, № 4, maddə 354, № 6, maddə 594; 2014, № 12, maddə 1647; 2018, № 3, maddə 521; 2022, № 3, maddə 248) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissədə "655" rəqəmləri "757" rəqəmləri ilə əvəz edilsin;

1.2. həmin Sərəncamla təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin strukturu"nun 3-cü hissəsi üzrə:

1.2.1. birinci abzasda "sisteminə" sözü "strukturuna" sözü ilə əvəz edilsin;

1.2.2. ikinci abzas ləğv edilsin;

1.2.3. "Bakı şəhər regional miqrasiya baş idarəsi" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Naxçıvan regional miqrasiya baş idarəsi".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1.2-ci bəndi nəzərə alınmaqla, "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanununun təkmilləşdirilməsinə dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2023-cü il*

---

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3, maddə 426, № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862; 2020, № 3, maddələr 238, 240, № 4, maddə 404, № 7, maddələr 864, 885, № 8, maddə 1041, № 9, maddə 1153; 2021, № 6 (I kitab), maddə 566, № 7, maddələr 724, 728, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 313, 323, № 8, maddə 896, № 10, maddə 1146, № 11, maddələr 1267, 1269, № 12, maddələr 1414, 1462, 1464; 2023, № 1, maddə 97, № 2, maddə 226; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 mart tarixli 2079 nömrəli, 8 aprel tarixli 2087 nömrəli və 25 aprel tarixli 2120 nömrəli fərmanları) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 8.0-cı bəndində "regional miqrasiya idarələrinin rəisləri, onların müavinləri, həmin idarələrin müvafiq şöbələrinin (bölmələrinin) rəisləri, baş inspektorları, Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi, onun müavini, həmin Xidmətin müvafiq şöbələrinin (bölmələrinin) rəisləri, baş" sözləri "inspektorları, regional miqrasiya baş idarələrinin (idarələrinin) rəisləri, onların müavinləri, həmin baş idarələrin idarə rəisləri, onların müavinləri, regional miqrasiya baş idarələrinin (idarələrinin) müvafiq şöbələrinin (bölmələrinin) rəisləri, baş inspektorları," sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2023-cü il*

---

## "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 364; 2005, № 6, maddə 466; 2006, № 12, maddə 1005; 2007, № 10, maddə 938; 2011, № 3, maddə 162; 2012, № 11, maddə 1051; 2017, № 3, maddə 345; 2019, № 12, maddə 1881; 2020, № 3, maddə 225, № 6, maddə 671; 2021, № 12, maddə 1345; 2022, № 7, maddə 693; Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 810-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci maddənin birinci hissəsinin iyirmi doqquzuncu abzasında "işçi heyəti, texnoloji resursları və" sözləri "provaydera, onun işçi heyətinə, texnoloji resurslarına və fəaliyyət" sözləri ilə əvəz edilsin.

2. 20-2.2-ci maddədə "meyarları" sözü "siyahısı" sözü ilə, "müəyyən edilir" sözləri "səlahiyyətli orqanın təklifləri əsasında təsdiq edilir" sözləri ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İnformasiya sistemlərinin, avtomatlaşdırılmış idarəetmə sistemlərinin və informasiya-kommunikasiya şəbəkələrinin sahibləri (istifadəçiləri) kritik informasiya infrastrukturu obyektlərinin müəyyən edilməsi məqsədilə səlahiyyətli orqan tərəfindən sorğu edilən məlumatları həmin orqana 30 gün müddətində təqdim etməlidirlər.".

3. 20-3-cü maddə üzrə:

3.1. 20-3.2-ci maddənin birinci cümləsində "yerləşdirilir" sözü "yerləşdirilməsi təmin edilir" sözləri ilə əvəz edilsin və həmin maddənin ikinci cümləsi çıxarılsın;

3.2. 20-3.3-cü maddədə "məlumatı" sözü "məlumatın" sözü ilə, "yerləşdirir" sözü "yerləşdirilməsini təmin edir" sözləri ilə əvəz edilsin;

3.3. aşağıdakı məzmunda 20-3.5-ci maddə əlavə edilsin:

"20-3.5. Kritik informasiya infrastrukturu subyektlərinə xidmət göstərən kibertəhlükəsizlik xidməti provayderinin təsisçisi və onun səlahiyyətli nümayəndəsi, eləcə də provayderin kritik informasiya infrastrukturunun təhlükəsizliyi üzrə fəaliyyətinə rəhbərlik edən şəxs və bu fəaliyyətə cəlb edilmiş digər əməkdaşlar Azərbaycan Respublikasının vətəndaşı olmalıdırlar.".

4. 20-4-cü maddə üzrə:

4.1. 20-4.2-ci maddədə "yerləşdirilir" sözü "yerləşdirilməsi təmin edilir" sözləri ilə əvəz edilsin;

4.2. 20-4.4-cü maddənin mətni ikinci cümlə hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda birinci cümlə əlavə edilsin:

"Səlahiyyətli orqan kritik informasiya infrastrukturunun təhlükəsizliyi üzrə tələblərə riayət olunmasını kritik informasiya infrastrukturu subyektindən tələb edə bilər.".

5. 20-5.3.3-cü və 20-5.3.5-ci maddələrdən "boşluqları və" sözləri çıxarılsın.

6. 20-6.4-cü maddəyə "tələblərə" sözündən sonra "dövlət qurumu olmayan" sözləri əlavə edilsin.

7. 20-6.8-ci maddədə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)" sözləri "səlahiyyətli orqana" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 aprel 2023-cü il*

---

## "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 861-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 19 iyun tarixli 729 nömrəli, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 may tarixli 539-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 19 iyun tarixli 729 nömrəli və "Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında" 2021-ci il 17 aprel tarixli 1315 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 5 iyul tarixli 1738 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 861-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 20-2.2-ci maddəsinin birinci cümləsinə uyğun olaraq, kritik informasiya infrastrukturu obyektlərinin siyahısını üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.2. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 861-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 729 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 390, 2017, № 3, maddə 373; 2018, № 10, maddə 1984; 2021, № 12, maddə 1432; 2022, № 7, maddə 727) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bənddə ", 20-2.2-ci maddələrində" sözləri "maddəsində, 20-2.2-ci maddəsinin birinci cümləsində" sözləri ilə, ", 20-6.5-ci və 20-6.8-ci" sözləri "və 20-6.5-ci" sözləri ilə əvəz edilsin;

2.2. 2.1-1-ci bənddə ", 20-2.2-ci maddələrində" sözləri "maddəsində, 20-2.2-ci maddəsinin birinci cümləsində" sözləri ilə əvəz edilsin;

2.3. 2.2-1-ci bənddən "və 20-6.8-ci maddəsində" sözləri çıxarılsın.

3. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 may tarixli 539-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 19 iyun tarixli 729 nömrəli və "Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında" 2021-ci il 17 aprel tarixli 1315 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 iyul tarixli 1738 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 727) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.2-ci bənd və 3-cü hissə ləğv edilsin;

3.2. 2-ci hissədə "provayderinin işçi heyəti, texnoloji resursları və" sözləri "provayderinə, onun işçi heyətinə, texnoloji resurslarına və fəaliyyət" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 may 2023-cü il*

---

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**QƏRAR**

**№ 161** **Bakı şəhəri, 23 may 2023-cü il**

### "Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamının 2.1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 992, № 11, maddə 1404; 2021, № 1, maddə 102, № 4, maddə 412, № 7, maddə 883,№ 8, maddə 963, № 10, maddə 1168, № 12, maddə 1540; 2022, № 3, maddə 260, № 4, maddə 418, № 6, maddə 667, № 8, maddə 963, № 9, maddə 1094, № 12, maddə 1537; 2023, № 1, maddə 142; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 9 mart tarixli 84 nömrəli və 27 mart tarixli 91 nömrəli qərarları) 2-ci hissəsində "mayın 1-dək" sözləri "iyulun 1-dək" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**QƏRAR**

**№ 162** **Bakı şəhəri, 23 may 2023-cü il**

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 fevral tarixli 21 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 fevral tarixli 21 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 211, № 5, maddə 658; 2016, № 8, maddə 1456, № 9, maddə 1585; 2017, № 4, maddə 620; 2021, № 12, maddə 1542; 2022, № 8, maddələr 973, 979, 1020) ilə təsdiq edilmiş "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"na aşağıdakı məzmunda 3.12-1-ci və 3.23-1-ci bəndlər əlavə edilsin:

"3.12-1. Azərbaycan Ordusunun qoşun (qüvvə) növlərində siyahısı Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən müəyyən edilmiş vəzifələrdə həqiqi hərbi xidmətini davam etdirmək üçün seçilmiş hərbi qulluqçularla (kadr zabit heyətinə keçirilmiş şəxslər istisna olmaqla) tərəflərin razılığı ilə yenidən bağlaşma bağlanıldıqdan sonra onlar həmin vəzifələrə təyin edilirlər.

3.23-1. Bu Qaydanın 3.12-1-ci bəndində göstərilən qaydada yenidən bağlaşma bağlanıldıqda, qüvvədə olan bağlaşma ləğv olunmuş hesab edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Cənab Prezident!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Zati-alinizə öz adımdan, İspaniya hökuməti və xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, istəkli Azərbaycan xalqına isə sülh və rifah arzu edirəm.

*Dərin hörmət və ehtiramla,*

***VI FELİPE,***
***İspaniyanın Kralı***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan Respublikası vətəndaşlarına səmimi təbriklərimi çatdırmaq istəyirəm.

Ötən illər ərzində ölkələrimiz güclü əməkdaşlıq və tərəfdaşlıq əlaqələri qurmuşdur. Ölkələrimiz arasında münasibətləri daha da inkişaf etdirəcəyimizə və xalqlarımızın mövcud dostluğunu daha da möhkəmləndirəcəyimizə ümid edirəm.

Bu xoş fürsətdən istifadə edərək Sizə cansağlığı və xoşbəxtlik, Azərbaycan Respublikasına daimi firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Yun Sok YOL,***
***Koreya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Tacik xalqı adından və şəxsən öz adımdan Sizə və bütün dost Azərbaycan xalqına ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Sizin uzaqgörən və quruculuq siyasətiniz sayəsində Azərbaycan irəliləyiş və tərəqqi yolunda möhtəşəm nəticələr əldə edib, bununla da beynəlxalq arenada öz nüfuzunu yüksəldib.

Biz ikitərəfli münasibətlərin konstruktiv atmosferindən və əlbəttə ki, ölkələrimizin xalqlarımızın köklü maraqlarına cavab verən qarşılıqlı faydalı əlaqələrinin dinamik inkişafından məmnunuq.

Sizin bu yaxınlarda Tacikistana dövlət səfəriniz zamanı görüşlərimizi səmimiyyətlə xatırlayıram. Əminəm ki, bu səfər çərçivəsində əldə olunan razılaşmaların praktik icrası uzunmüddətli perspektivə istiqamətlənmiş səmərəli Tacikistan-Azərbaycan əməkdaşlığına yeni impuls verəcək.

İnanıram ki, biz birgə səylərimizlə ikitərəfli tərəfdaşlığımızı xalqlarımızın və ölkələrimizin rifahı naminə yeni inkişaf üfüqünə çıxaracağıq.

Əziz İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, ali dövləti vəzifənizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və davamlı tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri, əziz Qardaşım.

Azərbaycan Respublikası özünün Müstəqillik Gününü qeyd etdiyi bir vaxtda Zati-alinizə şəxsən öz adımdan və Mərakeş xalqı adından ən səmimi təbriklərimizi, möhkəm cansağlığı və xoşbəxtlik arzularımızı çatdırmaqdan böyük məmnunluq duyuram. Həmçinin Sizin müdrik rəhbərliyinizlə Azərbaycan xalqına daha böyük inkişaf və tərəqqi arzulayıram.

Zati-aliləri, əminəm ki, xalqlarımızın qarşılıqlı rifahı naminə ölkələrimiz arasında mövcud olan sıx qardaşlıq əlaqələrini möhkəmləndirməkdə, əməkdaşlığımızı bütün sahələrdə inkişaf etdirməkdə Siz də mənim qədər maraqlısınız.

*Hörmətlə,*

***VI MƏHƏMMƏD,***
***Mərakeşin Kralı***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Bu əlamətdar gündə Peru hökumətinin ölkələrimizin mənafeyi naminə həm ikitərəfli, həm də çoxtərəfli çərçivədə əlaqələrimizin genişləndirilməsini və möhkəmləndirilməsini davam etdirməkdə maraqlı olduğunu bir daha Zati-alinizin diqqətinə çatdırıram.

Azərbaycan Respublikasının əziz xalqına firavanlıq və tərəqqi arzulayır, fürsətdən istifadə edərək Sizə bir daha ən dərin hörmət və ehtiramımı bildirirəm.

*Səmimiyyətlə,*

***Dina Ersilia Boluarte ZEQARRA,***
***Peru Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri, əziz qardaşımız İlham Əliyev!

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizi və Azərbaycan xalqını təbrik edir, ehtiramımızı, sevgimizi və qardaşlıq həmrəylimizi bildiririk. İnanırıq ki, birgə işləyərək ölkələrimizi dünyanın bütün xalqlarının arzuladığı daha yaxşı məkana çevirə bilərik.

Sizə dərin ehtiramımızı ifadə edirik. Əminik ki, xalqlarımızın rifahı naminə birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

*Hörmətlə,*

***Daniel Orteqa SAAVEDRA,***
***Nikaraqua Respublikasının Prezidenti,***

***Rosario MURİYO,***
***Nikaraqua Respublikasının vitse-prezidenti***

❖ ❖ ❖

Cənab Prezident!

Sizə 28 May - Müstəqillik Günü münasibətilə Qabon xalqının, hökumətinin, eləcə də özümün səmimi təbriklərimi göndərməkdən böyük məmnunluq duyuram.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına firavanlıq arzularımı çatdırıram.

Bu xoş fürsət mənə Qabon ilə Azərbaycan arasında mövcud dostluq münasibətlərini xalqlarımızın mənafeyinə uyğun surətdə daha yüksək səviyyəyə çatdırmaq əzmində olduğumu ifadə etmək imkanı verir.

Cənab Prezident, yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Dərin hörmətlə,*

***Ali Bonqo ONDİMBA,***
***Qabon Respublikasının Prezidenti***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycan dünya birliyi dövlətləri ilə mehriban qonşuluq və qarşılıqlı faydalı münasibətlərin möhkəmləndirilməsinə yönələn dəyişməz kurs sayəsində layiqli nüfuz qazanıb, ardıcıl olaraq müstəqil xarici siyasət apararaq beynəlxalq münasibətlərin fəal subyektinə çevrilib.

Sizin rəhbərliyinizlə iqtisadiyyatda, sosial və ictimai-siyasi sahələrdə həyata keçirilən böyük dəyişikliklər ölkənin gələcək inkişafına və onun əhalisinin rifahının artmasına kömək edir.

Əminəm ki, MDB məkanında inteqrasiya məsələlərinə Sizin şəxsi diqqətiniz Birliyimizin iştirakçı-dövlətləri arasında strateji tərəfdaşlıq əlaqələrinin möhkəmlənməsinə bundan sonra da kömək olacaq.

Möhtərəm İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, rifah və çoxşaxəli dövləti fəaliyyətinizdə uğurlar, Azərbaycan xalqına isə əmin-amanlıq və tərəqqi arzulayıram.

*Dərin hörmətlə,*

***Sergey LEBEDEV,***
***Müstəqil Dövlətlər Birliyinin Baş katibi***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

İcazə verin, Sizə hörmət və ehtiramımı bildirərək, Zati-alinizi ölkənizin Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edim.

Bu bayram öz ölkəsini sevən, onun tarixinə və qədim ənənələrinə hörmət bəsləyən və layiqli gələcəyi naminə çalışan Azərbaycan Respublikasının bütün vətəndaşlarını birləşdirir.

Bu əlamətdar gündə Sizə və Azərbaycan Respublikasının bütün vətəndaşlarına möhkəm cansağlığı, səadət, firavanlıq və doğma Vətənin rifahı naminə işlərində yeni-yeni nailiyyətlər arzulayıram.

Azərbaycan Respublikası qarşılıqlı fəaliyyətin bütün istiqamətləri üzrə, o cümlədən regionlararası səviyyədə Rusiya Federasiyasının həmişə strateji tərəfdaşı olub və olmaqda davam edir. Həştərxan vilayəti ilə Azərbaycan Respublikası arasında mövcud olan dostluq əlaqələrini yüksək dəyərləndirir və çoxplanlı qarşılıqlı təmasların möhkəmləndirilməsinə göstərdiyiniz dəstəyə görə Sizə səmimi minnətdarlığımı bildirirəm.

*Dərin hörmətlə,*

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Keçmiş Sovet İttifaqı dağılandan sonra ilk dəfə ölkənizin dünya bazar münasibətlərinə yolunu açan, demokratiyanı bərpa edən, eləcə də Azərbaycan xalqının davamlı inkişafının və firavanlığının əsaslarını qoyan Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə təbriklərimi qəbul edin. 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi müasir müstəqil Azərbaycanın qurucusunun əməyinə dərin hörmət və ehtiramın ifadəsidir.

İcazə verin, bu əlamətdar fürsətdən istifadə edərək Bolqarıstan Respublikasının Azərbaycan Respublikası ilə strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilmiş mövcud mükəmməl ikitərəfli münasibətlərini yüksək qiymətləndirdiyimi bir daha təsdiqləyim və bunun gələcəkdə də fəal surətdə inkişafı üçün arzularımı ifadə edim.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı arzularımı, məsuliyyətli işinizdə uğurlar diləyimi və ən yüksək ehtiramımı qəbul edin.

*Səmimiyyətlə,*

***Rumen RADEV,***
***Bolqarıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Çox hörmətli İlham Heydər oğlu!

Atanız Heydər Əliyevin 100 illik yubileyi münasibətilə səmimi təbriklərimi qəbul edin.

Bu əlamətdar günlərdə biz görkəmli dövlət xadimi, Azərbaycan xalqının Ümummilli Lideri, bütün dünyada hörmət və etibar qazanmış Heydər Əliyevi qürur hissi ilə xatırlayırıq. O, bu gün bizimlə olmasa da, onun irsi Qafqaz xalqlarının, bu böyük insanı tanıyan və ona hörmət edənlərin qəlbində və düşüncələrində yaşayır.

Heydər Əliyev dərin etiqad və prinsiplərə malik insan idi. Azərbaycanın müstəqilliyinin əbədi olması üçün onun göstərdiyi böyük səylər bu dahi şəxsiyyətin siyasətinin əsas prinsipi idi. Bu prinsip Azərbaycan xalqını ruhlandırmaqda davam edir. Siyasət və dövlət xadimi kimi Heydər Əliyev təkcə qətiyyətli və xarizmatik lider deyil, həm də öz xalqının rifahına qayğı göstərən dərin mərhəmətli insan idi. Onun rəhbərliyi və insanlarla ümumi dil tapmaq bacarığı Azərbaycana bir çox çətinlikləri aşmağa və irəli getməyə imkan verdi.

Qeyd etmək istərdim ki, Rusiya Federasiyasının Çeçenistan Respublikası və Azərbaycan Respublikası arasında münasibətlər məhz Heydər Əliyev və Çeçenistan Respublikasının birinci Prezidenti, Rusiya Qəhrəmanı Əhməd-Hacı Kadırovun əsasını qoyduqları çoxdankı ənənələrə söykənir. Bu iki görkəmli şəxsiyyət xalqlarımızın mənəvi və mədəni əlaqələrinin möhkəmlənməsi üçün çoxlu iş görüblər.

Bu gün xalqlarımız arasında qardaşlıq münasibətləri yalnız möhkəmlənir və inkişaf edir. Bu, o cümlədən hazırkı liderlər - Çeçenistan Respublikasının rəhbəri, Rusiya Qəhrəmanı Ramzan Kadırov və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sıx əlaqələri sayəsində baş verir.

Cənab Prezident, biz inanırıq ki, Azərbaycan Sizin rəhbərliyinizlə daha böyük uğurlar əldə edəcəkdir.

Heydər Əliyevin xatirəsi qəlblərdə əbədi yaşayacaqdır. Qoy, onun nümunəsi azərbaycanlıların gələcək nəsillərini və sülhə, inkişafa, xalqlar arasında əməkdaşlığa can atan hər kəsi ruhlandırsın!

*Xeyirxah dualar və ən yaxşı arzularla,*

***Şeyx Salah-Hacı MEJİYEV,***
***Rusiya Federasiyası Çeçenistan Respublikasının müftisi***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Mən, ilk növbədə Azərbaycan xalqına və şəxsən Sizə dərin ehtiramımı bildirirəm. Hamıya məlumdur ki, 2023-cü il Azərbaycanın möhtərəm sabiq Prezidenti, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə "Heydər Əliyev İli" elan olunmuşdur.

Görkəmli dövlət xadimi Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının tərəqqisinə, onun siyasi və iqtisadi inkişafına, həmçinin Azərbaycan xalqının əmin-amanlığının, firavanlığının təmin olunmasına mühüm və əvəzsiz töhfələr vermişdir.

Onun Cənubi Qafqaz regionunun inkişafında, xüsusilə Azərbaycan və gürcü xalqları arasında dostluq əlaqələrinin möhkəmlənməsində, ölkələrimizin ikitərəfli münasibətlərinin genişlənməsində mühüm rolu hamıya yaxşı məlumdur. Heydər Əliyevin xidmətləri tarixin səhifələrində və nəsillərin yaddaşında əbədi qalacaqdır.

Mən Prezident Heydər Əliyevin rəhbərliyi dövründə Gürcüstanın Azərbaycandakı səfiri vəzifəsində işləmək kimi böyük şərəfə nail olmuşam. Həmçinin həmin illərdə mən o dahi insanın rəhbərliyi ilə mühüm beynəlxalq layihələrdə fəal iştirak imkanı əldə etmişəm.

Cənab Prezident, Sizə ən xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

***Zurab QUMBERİDZE,***
***Gürcüstanın Azərbaycandakı sabiq səfiri***



# Regiona sülhü Azərbaycanın qətiyyəti gətirəcək

*Əvvəli 1-ci səh.*

## Sülh anlaşması beynəlxalq norma və prinsiplərə söykənməlidir

Azərbaycan 44 günlük müharibədə döyüş meydanında ədaləti güc yolu ilə təmin etdiyi kimi, postmüharibə dövründə də sülhə nail olunması üçün konstruktiv səy nümayiş etdirir. Mayın 22-də Litvada rəsmi səfərdə olan Prezident İlham Əliyev Litva Prezidenti Gitanas Nauseda ilə birgə mətbuata bəyanatlarla çıxışı zamanı da ümidlə vurğuladı ki, sülh danışıqlarının aparılması nəticə etibarilə Qafqaza uzunmüddətli sülh gətirəcək.

Dövlət başçısı xatırlatdı ki, Azərbaycan torpaqları uzun illər ərzində - 30 ilə yaxın Ermənistanın işğalı altında olub. Bir milyon azərbaycanlı bu işğal nəticəsində öz doğma torpaqlarından didərgin düşmüşdür, ərazilərimizin təxminən 20 faizi işğal altında idi. İşğal edilmiş ərazilərdə demək olar ki, bütün infrastruktur, binalar, o cümlədən tarixi abidələr işğalçılar tərəfindən dağıdılıb.

Buna baxmayaraq, "Biz hesab edirik ki, sülh anlaşmasının imzalanması qaçılmazdır və çalışırıq ki, öz tərəfimizdən bu məqsədə çatmaq üçün konstruktiv səylər göstərək", - deyə bildirən Azərbaycan Prezidenti onu da əlavə etdi ki, sülh anlaşması beynəlxalq norma və prinsipləri əhatə etməlidir.

Vilnüsdə Litvanın Baş naziri xanım İnqrida Şimonite ilə görüşü zamanı da dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh danışıqları prosesi haqqında məlumat verdi. Qeyd etdi ki, Azərbaycan tərəfindən sülh müqaviləsinin imzalanması üzrə beş prinsip təqdim olunub. Həmçinin Azərbaycan bir-birinin ərazi bütövlüyünün və suverenliyinin tanınması prinsipləri əsasında sülh müqaviləsinin imzalanmasına hazır olduğunu dəfələrlə ifadə edib. Söhbət əsnasında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəstəyi ilə həyata keçirilən Brüssel sülh prosesinin əhəmiyyəti də vurğulanıb.

## Ədalətli sülhə doğru

Ümumiyyətlə, Azərbaycan 44 günlük müharibədən dərhal sonra Cənubi Qafqazda davamlı sülhün əldə olunması naminə əməli addımlar atıb. Rəsmi Bakı sülh prosesi çərçivəsində baş tutan üçtərəfli görüşlərdə hər zaman sülh tərəfdarı olduğunu nümayiş etdirib.

Eyni zamanda iki ölkə arasında normallaşmaya nail olunması üçün mühüm işlər görən Azərbaycan təkcə sözdə deyil, əməldə də barış tərəfdarı olduğunu nümayiş etdirib. Buna ölkəmizin üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəlikləri layiqincə və zamanından öncə yerinə yetirməsi də bariz göstəricidir.

Hayastan isə faktiki olaraq ötən müddət ərzində sülh istiqamətində hansısa addım atmayıb, davamlı olaraq ölkəmizə qarşı təxribatlara əl ataraq danışıqlara maneçilik törətməyə çalışıb. Heç şübhəsiz, Hayastanı sülhü pozucu davranışlara həm də arxalandığı məkrli xarici havadarları təhrik edib, necə deyərlər şirnikləndirib. Lakin iki il yarım müddətdə ölkəmizə qarşı təxribatlar törədən və hər dəfəsində burnu ovularaq yerinə otuzdurulan Hayastan da, nəhayət, anlamağa başlayıb ki, heç bir xarici qüvvə ona kömək edə bilməz. Cənubi Qafqazda söz sahibi yalnız Azərbaycandır və onun bölgədəki reallıqlara, o cümlədən beynəlxalq qanunlara əsaslanan tələblərini qəbul edərək sülh müqaviləsini imzalamaqdan başqa çıxış yolu yoxdur. Elə buna görədir ki, Hayastan son Brüssel görüşündə Azərbaycanın şərtlərini qəbul etdiyini rəsmən təsdiqlədi.

## Hayastan üçün vaxt geriyə işləyir

Qarşıdakı yaxın müddətdə də iki ölkə arasında normallaşmaya nail olunması, sülh sazişinin imzalanması istiqamətində Azərbaycan və Ermənistan arasında vasitəçilərin iştirakı ilə mühüm üçtərəfli görüşlər planlaşdırılıb.

Belə ki, mayın 25-də Moskvada, iyun ayında Kişinyovda, iyul ayında isə yenidən Brüsseldə ölkə rəhbərləri səviyyəsində görüşlərin olacağı gözlənilir.

Yarım il ərzində gerçəkləşən və qarşıda keçirilməsi gözlənilən üçtərəfli görüşlər də onu deməyə əsas verir ki, 2023-cü il Cənubi Qafqazda sülhün əldə olunması üçün atılan addımlar baxımından əlamətdar olacaq.

Bir məsələyə də xüsusi diqqət çəkək ki, Prezident İlham Əliyev hələ bu ilin yanvarında yerli televiziya kanallarına verdiyi müsahibəsində 2023-cü ili sülh üçün son şans kimi dəyərləndirib.

Elə buna görə də İrəvan ona verilən qızıl vaxtdan düzgün istifadə etməli və danışıqlar prosesini süni əngəllərlə uzatmaq kimi məkrli cəhdlərindən əl çəkməlidir. Hayastan özü də yaxşı bilir ki, iki ölkə arasında normallaşmaya, ümumilikdə Cənubi Qafqazda dayanıqlı sülhə xidmət edəcək sülh müqaviləsini imzalamaqdan başqa çıxış yolu yoxdur.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# XİN: "Ermənistanın xarici işlər nazirinin qərəzli fikirlərini qətiyyətlə pisləyirik"

"Mayın 22-də Böyük Britaniyanın Avropa regionu üzrə dövlət naziri Leo Dokerti ilə mətbuat konfransı zamanı Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan tərəfindən növbəti dəfə səsləndirilmiş qərəzli fikirləri qətiyyətlə pisləyirik".

AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin məsələ ilə bağlı şərhində bildirilib.

Qeyd olunub ki, Ermənistan rəsmilərinin Azərbaycanın "Laçın" sərhəd buraxılış məntəqəsi təsis etməsinin guya yolu bağladığı, bölgədə humanitar problemlər meydana gətirdiyi, Beynəlxalq Qızıl Xaç Komitəsinin fəaliyyətində çətinliklər yaratdığı, bunun "etnik təmizləmə siyasətinin" tərkib hissəsi olduğu barədə əsassız iddiaları dəfələrlə təkrarlaması bu ölkənin reallıqları saxtalaşdırmaq cəhdidir. Keçid məntəqəsindən həm erməni sakinlərin, həm Beynəlxalq Qızıl Xaç Komitəsinin, həm də Rusiya sülhməramlı kontingentinin şəffaf və nizamlanan şəkildə hər iki istiqamətdə keçdiyi bəllidir.

Ermənistanın 30 ilə yaxın müddət ərzində Azərbaycan ərazilərini işğal altında saxlaması, kütləvi qırğınlar və etnik təmizləmə həyata keçirməsi, eləcə də BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin çağırışlarına zidd olaraq işğala son qoymaması və öz silahlı qüvvələrini Azərbaycan ərazisindən çıxarmaqdan imtina etməsi BMT Təhlükəsizlik Şurasının üzvü Böyük Britaniyaya yaxşı məlumdur. Beləliklə, Ermənistan tərəfi beynəlxalq ictimaiyyəti öz rəvayətləri ilə çaşdırmaq səylərindən əl çəkməlidir.

Bununla yanaşı, Azərbaycan ərazisinə beynəlxalq missiya göndərilməsinin Ermənistan tərəfindən hələ də təşviq olunması, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərlə Azərbaycan hökumətinin dialoquna hər vəchlə mane olması Azərbaycanın daxili işlərinə müdaxilə kimi qiymətləndirilir. Ermənistan bölgədə sülh və əmin-amanlıq tərəfdarıdırsa, bu kimi müdaxilələrə son qoymalıdır.

Azərbaycan ərazisində erməni hərbi əsirlərin olması iddiasına gəldikdə qeyd edək ki, Azərbaycan müharibə zamanı ələ keçirilmiş hərbi əsirləri bir çox hallarda təmənnasız olaraq Ermənistana geri qaytarıb. Müharibədən sonra ölkəmizin ərazisində hərbi təxribatlar törətmək məqsədilə Ermənistan tərəfindən göndərilmiş bir qrup erməni hərbçiyə gəldikdə, onların hərbi əsir olmadığı Ermənistan rəhbərliyinə məlumdur. Azərbaycanın xoş niyyət nümayiş etdirərək bu qrupdan olan şəxslərin də demək olar yarısını Ermənistana geri qaytarmasına baxmayaraq, Ermənistan tərəfi yolunu azaraq Ermənistana keçmiş iki Azərbaycan hərbçisini qurama məhkəmə işi ilə geri qaytarmaqdan imtina edir və bununla etimad quruculuğu səylərinə zərbə vurur.

Ermənistanı bölgədə sülh və təhlükəsizliyin təmin olunmasına xələl gətirən təhlükəli ritorikadan çəkinməyə, əsassız yerə Azərbaycanı ittiham etmək, beynəlxalq ictimaiyyəti yayındırmaq cəhdlərini davam etdirmək əvəzinə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə çağırırıq.



# Azərbaycanın Avropa İttifaqındakı strateji tərəfdaşı

## Litva ilə münasibətlər qarşıdakı dövrdə genişlənərək yeni əməkdaşlıq sferalarını əhatə edəcək

*Əvvəli 1-ci səh.*

Litva tatarlarının başqa bir nümayəndəsi Aslan bəy Kriçinski isə Xalq Cümhuriyyəti dövründə dövlət dəftərxanasının rəhbəri işləyib. Onun qardaşı Olqerd Nayman isə Xalq Cümhuriyyətinin ədliyyə nazirinin müavini vəzifəsində çalışıb, Azərbaycan dövləti qarşısında mühüm xidmətləri olub.

### İki ölkə arasında fəal siyasi dialoq var

Təbii ki, tarixi münasibətlər müstəqilliklərini bərpa etdikdən sonra iki dövlət arasındakı münasibətlərin inkişafında böyük rol oynayıb. Zəngin tarixi keçmişi, özünəməxsus dəyərləri olan, müasir dövlətçilik ənənələrinə görə Avropanın əksər dövlətlərini qabaqlayan Litva ilə Azərbaycan arasında hazırda sıx siyasi və iqtisadi münasibətlər mövcuddur.

Təbii ki, bu münasibətlərin inkişafında dövlət başçılarının qarşılıqlı səfərləri böyük rol oynayıb. Təkcə son bir il ərzində Azərbaycan və Litva prezidentləri arasında 3 dəfə görüş olub. Belə ki, ötən ilin may ayında Litva Prezidenti Gitanas Nauseda Azərbaycana rəsmi səfərə gəlib. Mühüm müzakirələrlə yadda qalan səfər zamanı keçirilən görüşlərin nəticəsi kimi prezidentlər mətbuata bəyanatla çıxış ediblər. Həmçinin həmin səfər zamanı Bakıda Heydər Əliyev Mərkəzində Azərbaycan-Litva biznes-forumu keçirilib.

Bu il yanvarın 18-də isə hər iki dövlətin başçıları Dünya İqtisadi Forumu çərçivəsində Davosda görüşüblər. Məhz bu görüş zamanı Litva Prezidenti həmkarı İlham Əliyevi ölkəsinə səfərə dəvət etmişdi.

Bu günlərdə isə Prezident İlham Əliyev Litvaya rəsmi səfər edib. Beləliklə, bütün bunlar təsdiq edir ki, hər iki ölkənin prezidenti münasibətlərin daha da dərinləşməsi üçün böyük siyasi iradə ortaya qoyub. Bu rəsmi səfər zamanı mətbuata bəyanatında Prezident İlham Əliyev bu barədə deyib: "Keçən il Prezident Nauseda Azərbaycanda rəsmi səfərdə idi, bu il isə mən Litvada rəsmi səfərdəyəm. Biz bu ilin əvvəlində Davosda da görüşmüşdük. Yəni bu, özlüyündə onu göstərir ki, aramızda çox fəal siyasi dialoq aparılır və bu dialoq konkret nəticələrlə də tamamlanır. Siyasi müstəvidə əldə edilmiş razılaşmalar təbii ki, bütün digər sahələrə də öz müsbət təsirini göstərir. Biz çox ümid edirik ki, gələcək illərdə iqtisadiyyat, ticarət sahələrində də siyasi səviyyədə olduğu kimi işlər sürətlə gedəcək".

Xatırladaq ki, bu, Prezident İlham Əliyevin Litvaya sayca dördüncü səfəri idi. Bundan əvvəl Prezident İlham Əliyev Litvaya bir dəfə rəsmi, iki dəfə işgüzar səfər edib. Litva prezidentləri də müxtəlif vaxtlarda Azərbaycana rəsmi və işgüzar səfərlər ediblər.

### Litva Azərbaycanın Aİ və NATO ilə əməkdaşlığına dəstək verir

İndiyədək Azərbaycanla Litva arasında 40-dan artıq sənəd imzalanıb. 2007-ci ildə imzalanmış "Azərbaycan Respublikası Prezidenti və Litva Respublikası Prezidentinin Birgə Bəyannaməsi", 2007-ci ildə imzalanmış "Azərbaycan Respublikası Prezidentinin və Litva Respublikası Prezidentinin tərəfdaşlıq münasibətlərinin inkişafı haqqında Birgə Bəyannaməsi" kimi sənədlər dövlətlərarası münasibətlərin yüksək siyasi ruhunu göstərir. Xüsusən sonuncu sənəd həm də iki dövlət arasındakı münasibətlərin strateji məzmun kəsb etdiyini göstərir.

Mayın 22-də isə iki ölkə arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair və gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında sazişlər və iki dövlətin baş prokurorluqları arasında 2024-2025-ci illər üçün əməkdaşlıq proqramı imzalanıb.

Prezident İlham Əliyevin Litvaya rəsmi səfəri zamanı iki dövlət arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsinin, ticarət dövriyyəsinin daha da artırılmasının vacibliyi vurğulandı. Bərpaolunan enerji, investisiyalar, nəqliyyat kimi sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi. Xəzər dənizi ilə Baltik dənizinin birləşdirilməsinə dair layihələr barəsində müzakirələr aparıldı.

Litva həm də Avropa İttifaqının və NATO-nun üzvü olan dövlətdir. Bu ölkə Azərbaycanla Aİ arasında əlaqələrin inkişafına böyük töhfələr verir. Belə ki, Azərbaycan Litvanın Aİ-nın Tvininq proqramı çərçivəsində tərəfdaşıdır. Həmçinin Azərbaycan Şərq Tərəfdaşlığı proqramı çərçivəsində də həyata keçirilən layihələrin sayına görə Litvanın əsas tərəfdaşıdır. Səfər zamanı keçirilən görüşlərdə Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığına Litvanın dəstəyi yüksək qiymətləndirildi.

Görünən odur ki, Azərbaycan-Litva münasibətləri qarşıdakı dövrdə daha da inkişaf edərək, yeni əməkdaşlıq sferalarını əhatə edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisin Sədr müavini Adil Əliyev Qarsda bir sıra görüşlər keçirib

Milli Məclisin Sədr müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti 23 may tarixdə Türkiyənin Qars vilayətində bir sıra görüşlər keçirib.





Nümayəndə heyəti əvvəlcə Qarsda Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək, Ulu Öndərin xatirəsini ehtiramla yad edib.

Daha sonra nümayəndə heyəti Qars valisi Türker Öksüz ilə görüşüb. Görüşdə ölkələrimiz arasındakı müttəfiqlik münasibətlərdən söz açılıb. Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsinin praktik təcəssümü olaraq Şuşada Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsinin imzalanmasını xatırladan Milli Məclisin Sədr müavini Adil Əliyev sözügedən sənədin 15 İyun Qurtuluş Günündə imzalanmasının xüsusi əhəmiyyəti olduğunu vurğulayıb. Vitse-spiker Adil Əliyev Şuşa Bəyannaməsinin qurtuluşumuzun məntiqi nəticəsi və əbədiliyinin daha bir zəmanəti olmasını qeyd edərək bu sənədin Türkiyə-Azərbaycan qardaşlığının daha da möhkəmlənməsinə xüsusi töhfə verdiyini bildirib.

Ölkələrimiz arasında münasibətlərin inkişafının təkcə siyasi sfera ilə məhdudlaşmadığını, xüsusən də iqtisadi əlaqələrimizin dərinləşdiyini və müştərək layihələrimizin uğurla icra olunduğunu deyən Sədr müavini Azərbaycan-Türkiyə dostluğunun dünyada bənzəri olmadığını bildirib.

Ziyarətə görə təşəkkürünü bildirən vali Türker Öksüz ölkələrimiz arasındakı münasibətlərin inkişafında və əlaqələrin daha da dərinləşməsində hər iki ölkə prezidentinin yüksək əməyinin olduğunu qeyd edib.

Daha sonra Ədalət və İnkişaf Partiyasının (AK Parti) Qars il başqanlığını (təşkilatını) ziyarət edən nümayəndə heyəti il başqanı, Türkiyə Böyük Millət Məclisinin deputatı Adəm Çalkınla görüşüb. Görüşdə Azərbaycanla Türkiyə arasında olan dostluqdan, qardaşlıqdan, dövlət başçılarının inkişaf etdirdikləri bu münasibətlərin nəticəsində yaranmış stratetji müttəfiqlikdən bəhs edilib. Eləcə də hakim partiyanın bu ayın 28-də keçiriləcək prezident seçkilərinə hazırlığı müzakirə edilib. Vitse-spiker Adil Əliyev əminliklə ifadə edib ki, əziz qardaşlarımız bu dəfə də seçkilərdə böyük iradə nümayiş etdirərək layiqli namizədi prezident seçəcəklər. Vitse-spiker Adil Əliyev həm Türkiyə, həm də türk dünyası üçün Rəcəb Tayyib Ərdoğanın böyük işlər gördüyünü qeyd edib.

Qarsda yerləşən İşıqlı məscidində Əhli-beyt Alimlər Birliyinin sədri və nümayəndələri ilə daha bir görüş keçirən nümayəndə heyəti tərəfləri maraqlandıran mövzuların ətrafında geniş müzakirələr və məsləhətləşmələr aparıb. Həm Azərbaycanda, həm də qardaş ölkədə dinin dövlətdən ayrı olduğunu bildirən vitse-spiker hər zaman dövlətlərimizin inanclı şəxslərə yüksək ehtiram və diqqətlə yanaşdığını, dini inanclarından sui-istifadənin yolverilməz olduğunu qeyd edib. Ermənistanın tarixi torpaqlarımızı işğal altında saxladığı 30 il ərzində həmin ərazilərdəki 67 məsciddən 65-ni dağıtdığını, müqəddəs yerlərdən tövlə kimi istifadə etdiyini diqqətə çatdıran vitse-spiker bu vandallıq aktının nəinki Azərbaycanın, eləcə də bütün müsəlman dünyasına və islam dininə hörmətsizlik olduğunu, lakin bu gün sözdə özlərini müsəlman adlandıran bəzi dövlətlərin buna göz yummasının və Ermənistanın yanında olmasının təəssüf doğurduğunu bildirib.

Qeyd edək ki, nümayəndə heyətinin tərkibinə Milli Məclisin deputatı Cəbi Quliyev, Naxçıvan Ali Məclisinin deputatı Hüseyn Bağırsoylu, şəhid, Vətən Müharibəsi Qəhrəmanı Adil İbrahimlinin atası Asəm İbrahimov və qazi Oruc Salmanov daxildirlər.

***"Azərbaycan"***

# Prezidentin Litva səfəri bu ölkə ilə əməkdaşlığın daha da genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır

*"Mayın 22-də Vilnüsdə rəsmi səfərdə olan Prezident İlham Əliyevin litvalı həmkarı Gitanas Nauseda ilə görüşü əlbəttə ki, ilk növbədə, iki dövlət arasında ikitərəfli münasibətlərin müzakirəsi, iqtisadi-ticari əməkdaşlığın daha da genişləndirilməsi və ticarət dövriyyəsinin artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Litva ilə Azərbaycan həm tarixi, həm də siyasi və iqtisadi inkişaf baxımından fərqli cəhətlərə malik olduğu kimi, bənzər və bu iki dövləti yaxınlaşdıran, birləşdirən tərəflər də var. Belə ki, oxşar tarixi keçmişi, eyni imperiyanın müstəmləkəsində olmuş və bənzər mübarizə yolu keçmiş bu iki postsovet ölkəsinin sonrakı inkişafı çox fərqli istiqamətlərdə davam edib. Belə ki, Qərbin dəstəyinə nail olan, ən yaxın qonşuları Latviya və Estoniya ilə çiyin-çiyinə verən Litva daha yumşaq və rahat inkişaf yolu keçərək dünyanın ən nüfuzlu təşkilatlarına, o cümlədən Avropa İttifaqına və NATO-ya üzv olaraq Avropa ailəsinin siyasi və iqtisadi cəhətdən inkişaf etmiş tamhüquqlu üzvünə çevrilib. Azərbaycan isə bu illər ərzində havadarlarına arxalanan bədxah qonşumuz Ermənistanın ərazi iddiaları, qanlı müharibə, torpaqlarının işğalı, Qərbin ədalətsiz münasibəti, haqsız təzyiqləri, nəhayət, 44 günlük müharibə, möhtəşəm zəfər, Qarabağın işğaldan azad olunması və digər çətin, əziyyətli, eyni zamanda möhtəşəm və şərəfli tarixi yol keçib. Bu 30 illik keşməkeşə, çətin mübarizəyə rəğmən Azərbaycan da artıq həm siyasi, həm də iqtisadi baxımdan kifayət qədər inkişaf edib, regionun aparıcı dövlətinə, söz sahibi olan aktoruna çevrilib".*

Bu sözləri AZƏRTAC-a açıqlamasında Cəmiyyətin İnkişafı Mərkəzi İctimai Birliyinin sədri Əhməd Abbasbəyli söyləyib.



Bu cür əlaqələrin Azərbaycan və Litva üçün eyni dərəcədə vacib, əhəmiyyətli olduğunu söyləyən Ə.Abbasbəyli qeyd edib: "Litva Avropa ölkəsi, Avropa İttifaqının, NATO-nun üzvü olaraq həmin qurumlarla əlaqələrin inkişafı, Azərbaycan həqiqətlərinin çatdırılması və mövqelərimizin müdafiə edilməsi baxımından maraqlı tərəfdaş ola bilər. Xüsusilə regionda sülhün təmin olunması, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, rəsmi İrəvanın beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədilə Laçın yolundakı hadisələrlə əlaqədar manipulyasiyaları, işğaldan azad olunmuş ərazilərimizin minalardan təmizlənməsi kimi məsələlərlə bağlı obyektiv məlumatların ötürülməsində Litvanın dəstəyi çox əhəmiyyətlidir".

İctimai birliyin sədri bildirib ki, həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı önəmli rolu, nəqliyyat məsələləri, o cümlədən Xəzər dənizi ilə Baltik dənizinin birləşdirilməsinə dair layihələr, Avropa İttifaqı ilə Azərbaycan arasında Şərq Tərəfdaşlığı proqramı çərçivəsində həyata keçirilən Tvininq layihələri barəsində, ekoloji təhlükələr haqqında ilkin xəbərdarlıq sisteminin qurulması və tullantıların idarə olunması kimi məsələlər də gələcəkdə Azərbaycan-Litva münasibətlərinin inkişafı baxımından diqqət mərkəzindədir.

# *Ekspert:* "Litva ilə strateji tərəfdaşlıq münasibətləri Azərbaycan üçün yaxşı potensial vəd edir"



"Litva coğrafi mövqeyinə görə çox mühüm ərazidə yerləşir. Azərbaycanla Litva əlaqələrinin yaxşı potensialı var". Bu fikirləri AZƏRTAC-a açıqlamasında iqtisadçı ekspert Xalid Kərimli söyləyib.

"Dövlət başçısının da elan etdiyi bir strategiya var ki, biz qrup tərəfdaşlıqlarından çox ikitərəfli əlaqələrə xüsusi fikir veririk. Bu baxımdan da Litva və Avropa birliyinə daxil olan digər ölkələr ilə ikitərəfli əlaqələrin yaxşılaşdırılması həm iqtisadi, həm siyasi, həm də strateji baxımdan ölkəmiz üçün çox vacibdir. Nəzərə alsaq ki, Baltikyanı ölkələr həm NATO, həm də Avropa Birliyinin üzvü olub, eyni zamanda çox ciddi nüfuza malik olan ölkələrdir, buna görə də bu ölkələrlə strateji tərəfdaşlıq münasibətlərinin qurulması ölkəmiz üçün yaxşı potensial vəd edir", - deyə ekspert bildirib.

Ekspert həmçinin bu ölkələrin ciddi surətdə texnoloji cəhətdən də inkişaf etdiyini qeyd edib: "Həm texnologiya sahəsində, həm alternativ enerji sahəsində Azərbaycana investisiya qoyulmasının təşviq edilməsi bizim ölkəmizin marağındadır. Biz dövlətimizin başçısının dediyi kimi, həm inzibati quruluşu təkmilləşdirməyə çalışırıq, həm işğaldan azad edilmiş regionlarda qabaqcıl texnologiyanın, alternativ enerjinin, "ağıllı kənd-qəsəbə" və digər belə yüksək texnologiyaya əsaslanan, "ağıllı həllər" vasitəsilə yenidən qurulmanın təmin olunmasına çalışırıq. Bu baxımdan Litva şirkətlərinin təcrübəsinin öyrənilməsi və Litva investisiyasının Azərbaycana cəlb edilməsi ölkəmizin marağına daxildir. Baxmayaraq ki, ticari əlaqələrimizin həcmi və ticari partnyorluq səviyyəsi çox böyük deyil, ancaq Litva bizim üçün strateji əhəmiyyətli ölkələrdən biridir".

# Azərbaycan-Rumıniya Hökumətlərarası Komissiyanın 7-cı iclası keçirilib



Rumıniyanın paytaxtı Buxarest şəhərində Azərbaycan və Rumıniya hökumətləri arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın 7-ci iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda iştirak etmək üçün Rumıniyada səfərdə olan komissiyanın Azərbaycan tərəfindən həmsədri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin başçılıq etdiyi nümayəndə heyəti Buxarestdəki Tey Parkı - Heydər Əliyev Xiyabanına gələrək Ümummilli Liderimiz Heydər Əliyevin büstü önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad edib.

Nümayəndə heyətinin Rumıniyanın Baş naziri Nikolae-Yonel Çuke ilə görüşündə ölkələrimiz arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi vurğulanıb. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində mühüm rolu qeyd olunub, müxtəlif sahələrdə gələcək əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

Habelə iki ölkə arasında ticari, investisiya və sosial əməkdaşlığın əhəmiyyəti qeyd edilib, nəqliyyat sahəsində layihələrin genişləndirilməsinin və birbaşa uçuşların həyata keçirilməsinin ikitərəfli əlaqələrin inkişafına mühüm töhfə verə biləcəyi vurğulanıb.

Müştərək Komissiyanın fəaliyyətindən, növbəti iclasın gündəliyində dayanan məsələlərin önəmindən bəhs olunub.

Komissiyanın 7-ci iclasında Sahil Babayev ölkələrimiz arasında əlaqələrin ildən-ilə inkişaf etməkdə olduğunu, ötən il iki ölkə arasında ticarət dövriyyəsinin 2,4 dəfə artdığını, əlaqələrin genişləndirilməsinin əsas prioritet olduğunu bildirib.

Komissiyanın Rumıniya tərəfindən həmsədri, Rumıniyanın energetika naziri Virgil-Daniel Popesku Azərbaycanla əməkdaşlığın inkişafına xüsusi əhəmiyyət verdiklərini, bu sahədə hər iki tərəfdən önəmli işlər aparıldığını diqqətə çatdırıb.

Rumıniyanın iqtisadiyyat naziri Florin Marian Spataru və Rumıniyanın əmək və sosial həmrəylik naziri Marius-Konstantin Budainin iştirak etdiyi iclasda enerji sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsinə, Rumıniyanın Qara dəniz sualtı elektrik enerjisi və rəqəmsal əlaqə layihəsində iştirakına, eləcə də nəqliyyat, sosial, kənd təsərrüfatı, təhsil, humanitar, infrastruktur, inşaat və s. sahələrdə gələcək əməkdaşlıq istiqamətlərinə dair müzakirə aparılıb.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə Konstansa Dəniz Limanı arasında əməkdaşlığın genişləndirilməsinin, nəqliyyat baxımından əlverişli ərazidə yaradılmış Ələt Azad İqtisadi Zonasının əhəmiyyəti qeyd edilib.

Sonra komissiyanın 7-ci iclasının yekunlarına dair protokol imzalanıb. Sənəddə iki ölkənin müxtəlif sahələrdə əməkdaşlıq prioritetləri əksini tapır.

İclas çərçivəsində iki ölkənin sahibkarlarının iştirakı ilə Rumıniya-Azərbaycan biznes-forumu keçirilib. Biznes-forumda Azərbaycan tərəfindən 14, Rumıniya tərəfindən 25 qurum və şirkət iştirak edib.

Çıxışlar zamanı ötən dövrdə Bakıda və Buxarestdə 5-dən çox biznes-forum və işgüzar görüşlərin keçirildiyi, həmin tədbirlərin, keçirilən təqdimatların Azərbaycan və Rumıniya iş adamları arasında ikitərəfli işgüzar əlaqələrin yaradılması və genişləndirilməsində xüsusi önəm kəsb etdiyi vurğulanıb.



## Azərbaycanın QURTULUŞ salnaməsi: Heydər Əliyevdən İlham Əliyevə 30

Böyük tarixi şəxsiyyətləri xarakterizə edən əsas xüsusiyyətlərdən ən başlıcası onların vətəninə və xalqına sıx bağlılığı, siyasi kamilliklə vətənə, xalqa bağlılıqdan yoğrulmuş mənəvi yetkinliyi öz fəaliyyətlərində eyni dərəcədə bütöv şəkildə təcəssüm etdirmələridir. Dünyaşöhrətli müdrik siyasi şəxsiyyət, görkəmli dövlət xadimi, bütün türk dünyasının iftixarı olan və 100 illik yubileyini dərin ehtiram hissi ilə qeyd etdiyimiz Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın inkişafı, böyük perspektivlərə doğru inamla addımlaması naminə misilsiz tarixi xidmətlərinin əsasında da ilk növbədə onun vətəninə və xalqına sıx bağlılığı, zəmanəmizin ən böyük azərbaycanlısı olması dayanıb. Onun müəllifi olduğu uğurlu sosial inkişaf strategiyası da məhz əhalinin rifahına olan böyük qayğıya əsaslanır.



# Uğurlu sosial inkişaf strategiyasının müəllifi

Özünün şah əsəri olan müasir müstəqil Azərbaycan dövlətinin banisi Ulu Öndər Heydər Əliyev hələ ötən əsrin 70-80-ci illərində yorulmaz fəaliyyəti, müdrik və uzaqgörən qərarları, tükənməz enerjisi, qətiyyəti ilə Azərbaycanı keçmiş sovetlər birliyinin ən geridə qalmış aqrar respublikasından ittifaqın ən qabaqcıl və müstəqil şəkildə özünü təmin edə bilən bir ölkəsinə çevirib. Hələ həmin illərdə xalq təsərrüfatının bütün sahələrində öz tarixində görünməmiş artım templəri nümayiş etdirən Azərbaycanda milli gəlirin 2,6 dəfə, adambaşına düşən milli gəlirin 3 dəfəyə yaxın, sənayedə əmək məhsuldarlığının 2,1 dəfə artımı baş verib. Bu inkişaf prosesləri öz növbəsində sosial sahədə, məşğulluğun təminatı və əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində ciddi irəliləyişləri ehtiva edib. 1970-80-ci illərdə əsasən Bakı və bölgələrdə inşa olunaraq istifadəyə verilən yüzlərlə obyektlər eyni zamanda çoxsaylı yeni iş yerlərinin yaranmasına, əmək ehtiyatlarından səmərəli istifadə edilməsinə, sosial rifahın yaxşılaşdırılması sahəsində mühüm nailiyyətlərə imkan verib.

Eyni zamanda Ulu Öndər 1970-80-ci illərdə sürətlə inkişaf edən iqtisadiyyatın tələblərinə uyğun, hətta nadir peşələr üzrə mütəxəssis potensialının yaradılması nümunəsini yaradıb. Qeyd olunan dövrdə respublikadan kənara - SSRİ-nin 50-dən çox böyük şəhərinin 170-dən çox ən nüfuzlu ali məktəbinə oxumağa göndərilən tələbələrin illik sayı əvvəlki dövrlərə nisbətən 10 dəfəyə qədər artıb, 1975-ci ildə onların sayı hər il 600 nəfərə, sonralar 900-1000-ə çatıb. Həmçinin milli iqtisadiyyatın tələbləri əsasında işçi qüvvəsi formalaşdırmaq üçün orta ixtisas və ali təhsil məktəbləri şəbəkəsi dəfələrlə genişləndirilib. Ümumilikdə həmin illərdə məşğulluğun artımı ilə yanaşı, əməkhaqqı və digər sosial ödənişlərin dəfələrlə artmasına nail olunub. Ən mühüm tarixi nailiyyətlərdən biri olaraq Ulu Öndər Heydər Əliyevin səyləri ilə ötən əsrin 70-ci illərində Azərbaycanda yaradılan Cəmşid Naxçıvanski adına hərbi məktəb ölkəmizdə milli zabit heyətinin formalaşmasında müstəsna rola malikdir və 2020-ci ildə möhtəşəm zəfərlə başa vurduğumuz 44 günlük Vətən müharibəsində də həmin hərbi məktəbin yetirmələri böyük şücaətlər göstərərək şanlı qəhrəmanlıq tarixi yazıb.

Ümumilikdə ötən əsrin 70-80-ci illərində Azərbaycanın gələcək müstəqilliyi üçün hərtərəfli potensial yaradılıb. Ümummilli Lider Heydər Əliyev sonralar çıxışlarının birində deyib: "Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır".

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etsə də, ölkədə bütün sahələrdə yaranan ağır vəziyyət, kəskin böhran, gündən-günə dərinləşən siyasi, sosial-iqtisadi tənəzzül ölkəmizi dövlətçiliyini itirmək, dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qoymuşdu. Əhalinin pul gəlirləri 1991-1993-cü illərdə real ifadədə 4 dəfə aşağı düşmüş, əməkhaqqı gəlirləri 8,2 dəfə azalmış, ölkə istehsal potensialının demək olar ki, üçdəikisini itirmiş, inflyasiya sürətlə artaraq dördrəqəmli həddə çatmışdı. Bütün bu proseslər işsizlik və yoxsulluğun getdikcə kəskin şəkil alması ilə nəticələnirdi və ağır böhran insanlarda dərin ümidsizlik, sabaha inamsızlıq yaratmışdı.

Xalqın təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyevin 1993-cü ilin iyununda yenidən Azərbaycanın rəhbərliyinə qayıdışı ölkəmizin xilasına və müqəddəratının tənəzzüldən tərəqqiyə doğru dəyişməsinə imkan verdi. Bu tarixi qayıdış Azərbaycanı dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən, vətəndaş qarşıdurmasından, dərin siyasi, iqtisadi və sosial böhrandan xilas etdi. Müasir Azərbaycan dövlətinin qurulmasını və uzunmüddətli inkişaf yoluna səfərbər olmasını yüksək səviyyədə təmin edən Ulu Öndər Heydər Əliyev eyni zamanda xalqa, əhalinin rifahına böyük qayğısından irəli gələn və daim güclənən milli sosial müdafiə sistemini formalaşdırdı.

Məhz tarixi qayıdış ilindən - 1993-cü ildən başlayaraq əhalinin, şəhid ailələrinin, müharibə veteranlarının, yaşlı insanların, tənha ahılların, əlilliyi olan şəxslərin, Çernobıl qəzasının ləğvində iştirak etmiş şəxslərin, valideyn himayəsindən məhrum olmuş uşaqların və digər həssas qrupların sosial müdafiəsinin gücləndirilməsi, sosial təminatın əhatə dairəsinin genişləndirilməsi istiqamətlərində Ümummilli Lider Heydər Əliyev tərəfindən ardıcıl sənədlər, dövlət proqramları imzalanıb. Digər tərəfdən uğurlu iqtisadi islahatlar, özəlləşdirilmənin qanunvericilik bazasının yaradılması, 1995-ci ildən başlayaraq uğurla həyata keçirilən torpaq islahatları, kənd təsərrüfatı məhsulları istehsalçılarının əvvəlki vergi borclarının silinməsi və torpaq vergisindən başqa bütün digər vergi ödəmələrindən azad edilməsi və sair ölkəmizdə iqtisadi inkişaf proseslərinə və bu da əhalinin rifah halında müsbət dəyişikliklərə səbəb olub. Ulu Öndərin sosial sahəyə xüsusi qayğısı eyni zamanda onun tərəfindən ölkənin sosialyönümlü iqtisadi inkişaf strategiyasının yaradılmasında öz təsdiqini tapır və daim artan iqtisadi imkanlar vətəndaş rifahında sosial irəliləyişlərə yol açır.

Ümummilli Lider Heydər Əliyev tərəfindən 1993-2003-cü illərdə sosial inkişafın təmin olunması, əhalinin rifah halının yüksəldilməsi üçün 60-dan artıq sənəd imzalanıb. 1995-2003-cü illər ərzində respublikamızda pensiya və müavinətlərin orta aylıq məbləğində 8 dəfə, orta aylıq əməkhaqqında 6 dəfədən çox artım baş verib. Eyni zamanda Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci ildə qəbul olunan müstəqil Azərbaycanın ilk milli Konstitusiyasında xalqın rifahının yüksəldilməsi dövlətin məqsədi kimi bəyan olunur. Konstitusiyanın 16-cı maddəsində qeyd olunur: "Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalır".

Ulu Öndərin müvafiq fərmanına əsasən, respublikada əmək qanunvericiliyinə dövlət nəzarətini həyata keçirən dövlət qurumu - hazırkı Dövlət Əmək Müfəttişliyi Xidməti ilə MDB məkanında ilk dəfə olaraq Azərbaycanda yeni sosial-iqtisadi münasibətlər dövrünə uyğun əmək və məşğulluğa dair qanunvericilik yaradılıb. Habelə onun tapşırığı ilə "Əlilliyin qarsısının alınması və reabilitasiyası üzrə ilk Dövlət Proqramı", Pensiya İslahatı Konsepsiyası, Demoqrafik İnkişaf Konsepsiyası qəbul olunub. Digər mühüm addımlardan biri kimi 2000-ci ildə Azərbaycan BMT-nin "Minilliyin Bəyannaməsi"nə qoşularaq ölkədə yoxsulluğun azaldılması məqsədilə konkret proqramlara başlanıb. 20 fevral 2003-cü ildə qəbul edilmiş "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" ölkədə yoxsulluğun azaldılması istiqamətində mühüm nəticələrə nail olmağa imkan verib.

Ümummilli Lider Heydər Əliyev tərəfindən şəhid ailələrinə daim xüsusi diqqət və qayğı göstərilib. "Dövlət həm şəhid ailələrinə, həm də şəhidlərin balalarına daim qayğı göstərib və qayğı göstərəcəkdir" deyə bəyan edən Ulu Öndərin təşəbbüsü və tapşırığı ilə hələ ötən əsrin 90-cı illərində mühüm sosial müdafiə proqramlarına - şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanların mənzillə, müharibə ilə əlaqədar əlilliyi olanların avtomobillə təminatı proqramlarına başlanıb. O, həmin tədbirlərin bir qismində şəxsən iştirak edib, Vətənin müdafiəsi naminə döyüşlərdə iştirak etmiş insanların, şəhid ailələrinin daim dövlətin qayğısı altında olacaqlarını bəyan edib.

Ümummilli Lider Heydər Əliyevin sosial sahəyə diqqət və qayğısı nəticəsində ölkəmizdə çoxsaylı yeni sosial obyektlər açılıb, əlilliyi olan şəxslərin tibbi-sosial reabilitasiyası üçün reabilitasiya infrastrukturu təkmilləşdirilməklə bütün bölgələr üzrə şəbəkəsinin genişləndirilməsi işləri aparılıb. Eyni zamanda hələ ötən əsrin 90-cı illərində Ulu Öndərin qayğısı nəticəsində ölkəmizdə əlilliyi olan şəxslərin qabiliyyət və istedadlarının dəstəklənməsi və cəmiyyətə tanıdılması üçün ümumrespublika tədbirlərinin təşkilinə başlanıb.

Müstəqil müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin uğurlu daxili və xarici siyasətinin Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə yüksək səviyyədə davam və inkişaf etdirilməsi nəticəsində Azərbaycan sürətli inkişafa nail olaraq, mühüm tarixi uğurlar, qələbələr əldə edib. 2003-cü ildən milli iqtisadiyyatın 3,4 dəfə artımına nail olunub. 2020-ci ildə isə Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük qısa bir dövr ərzində uğurlu hərbi əməliyyatlar aparmaqla beynəlxalq səviyyədə tanınan ərazilərini azad edib, xalqımızın 30 illik həsrətinə son qoyulub.

"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun rahatlığı, sağlamlığı və təhlükəsizliyi dayanır" deyən dövlət başçısının tapşırıqlarına əsasən, ölkəmizdə sosial sahədə ardıcıl və məqsədyönlü islahatlar aparılaraq, sosial müdafiə sisteminin gücləndirilməsi, aktiv məşğulluq proqramlarının xeyli genişləndirilməsi, müasir və etibarlı, dayanıqlı sosial təminat sisteminin qurulması, sosial ödənişlərdə davamlı artımlar təmin edilib. Prezident cənab İlham Əliyevin fərman və sərəncamları ilə xüsusilə son 5 ildə ölkəmizdə sosial sahədə genişmiqyaslı inqilabi islahatlar - 4 sosial islahat paketi icra olunmaqla vətəndaş rifahının təminatı istiqamətində ciddi irəliləyişlər təmin edilib. Bu 4 sosial islahat paketi üzrə 6,8 milyard manat əlavə vəsait ayrılıb.

Beləliklə, aparılan sosial islahatlar nəticəsində son beş ildə minimum əməkhaqqında 2,7 dəfə, orta aylıq əməkhaqqında 65,3 faiz, median əməkhaqqında 2,1 dəfə, əməkhaqqı fondunda 2,5 dəfə, minimum pensiyada 2,5 dəfə, orta aylıq pensiyada 2 dəfə, sosial müavinət və təqaüdlər üzrə ödənilən illik vəsaitdə 5 dəfə artım baş verib.

Hələ ötən əsrin 90-cı illərində Ulu Öndər Heydər Əliyevin tapşırığı ilə başlanan mühüm sosial proqram - şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminat proqramı uğurla davam etdirilib.

Tarixi zəfərimizlə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə Prezident cənab İlham Əliyevin göstərişi ilə şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan genişmiqyaslı sosial dəstək paketi çərçivəsində şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı da 5 dəfə genişlənib: bu dövrdə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 4760, ümumilikdə ötən dövrdə isə 13560 mənzil və fərdi ev verilib. Dövlət başçısının tapşırığına əsasən, 2023-cü ildə də ən azı 1500 mənzil və fərdi evin həmin kateqoriyadan olan vətəndaşlarımıza verilməsi işləri aparılır və bu il artıq 260 mənzil və fərdi ev onlara təqdim olunub.




Ümumilikdə postmüharibə dövründə şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı icra olunan sosial dəstək paketi artıq 124 min şəxsi əhatə edərək, onlara dəstəkyönümlü 285 min xidmət göstərilib. O cümlədən şəhidlərin ailə üzvləri və müharibə veteranlarından ibarət 103 min şəxsə 115 min aylıq sosial ödəniş təyin olunub, 3 565 şəxsə sığorta ödənişi edilib, 1997-ci il avqustun 2-dək hərbi xidmətdə aldığı xəsarətlə bağlı əlilliyi olan 17 164 şəxs üzrə birdəfəlik ödəmə verilib, şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlara yönələn sosial ödənişlərin hər il artırılması təmin edilib, müharibə veteranlarına aylıq təqaüd təyin edilib. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 324 (ümumilikdə ötən dövrdə 7500-dən çox) avtomobil təqdim edilib. Şəhid ailələri üzvləri, müharibə iştirakçılarından ibarət 11 min şəxsə 43 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib, müharibə ilə əlaqədar əlilliyi olan 1920 şəxs 36 868 reabilitasiya vasitəsi, bu kateqoriyadan olan 414 şəxs 431 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub. Postmüharibə dövründə həmçinin şəhid ailələri üzvlərindən və müharibə iştirakçılarından ibarət 17,7 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 9,9 min şəxs özünüməşğulluq proqramına cəlb olunub, vahid əlaqələndirmə mərkəzlərində şəhid ailələri üzvləri və müharibə iştirakçılarından ibarət 83,7 min şəxsə xidmətlər göstərilib və sair.

Son illərin uğurlu sosial islahat nümunələrindən biri də DOST konsepsiyasıdır. Dövlət başçısının fərmanı ilə 2019-cu ilin may ayında DOST Agentliyi və bundan sonra Bakı şəhəri və Abşeron rayonunda olmaqla 6 DOST mərkəzi açılıb. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası sosial sahələr üzrə 154 xidmətin "bir pəncərə"dən, operativ, şəffaf, müasir, innovativ əsasda təqdim olunmasını təmin edir. Artıq 1,5 milyon vətəndaşa DOST xidməti göstərilib və bu xidmətlərdən vətəndaş məmnunluğu 98,5 faizdir.

Hazırda Naxçıvan, Bərdə, Şuşa, Quba, Sabirabad, Sumqayıt, Gəncə, Masallıda da DOST mərkəzlərinin açılması üçün işlər davam etdirilir. İşğaldan azad edilmiş bölgələrimizdə də DOST xidmətləri qurulur və başlanğıc kimi 2022-ci ilin may ayında Zəngilan rayonunun Ağalı kəndində ilk "Smart DOST" xidmət məntəqəsi açılıb. Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən 2023-2026-cı illərdə Cəbrayılda regional DOST mərkəzi və peşə hazırlığı mərkəzi, Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Kəlbəcər, Laçın və Şuşada DOST filialları, Kəlbəcərdə reabilitasiya mərkəzi yaradılacaq.

Mühüm sosial uğurlardan biri kimi, son illər ölkəmizdə müasir reabilitasiya və sosial xidmət infrastrukturu da qurulub, reabilitasiya xidmətləri ilə təmin olunanların illik sayı dəfələrlə artıb. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2021-ci ilin oktyabr ayında Bakıda Cənubi Qafqazda ilk dəfə olaraq kifayət qədər əhatəli, çoxşaxəli fəaliyyət istiqamətlərini özündə birləşdirən ən böyük inklüziv yaradıcılıq və inkişaf məkanı - sosial cəhətdən həssas qrupların yaradıcı potensialının inkişafına dəstək verən DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi açılıb.

Dövlət sosial xidmətləri sahəsində e-texnologiyaların geniş tətbiqində də son illər mühüm nailiyyətlər əldə edilib. Nazirliyin 153 xidmətindən 140-dan çoxu (90 faizdən çoxu) artıq elektronlaşdırılıb, 2019-cu ilin əvvəlindən sosial ödənişlərin elektron sistem üzərindən proaktiv təyinatı mexanizmləri işə salınıb. Son beş ildə e-sistemlər üzərindən 534 milyon müraciət və sorğu cavablandırılıb, nazirliyin e-xidmətlərinə 63 milyon müraciət qeydə alınıb, 3 milyon e-arayış verilib, 695 min proaktiv təyinat aparılıb, 664 min e-fərdi hesab açılıb.

Prezident cənab İlham Əliyevin tapşırıqları ilə son 5 ildə Azərbaycanda aparılan sosial islahatların nailiyyətləri beynəlxalq səviyyədə də yüksək qiymətləndirilir. Bunun təzahürü olaraq, DOST Agentliyi Avropa Sosial Şəbəkəsinin "Avropa Sosial Xidmətlər Mükafatı"na, Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) 3 mükafatına və Mükəmməllik Sertifikatına və sair layiq görülüb, 4 beynəlxalq ISO sertifikatı əldə edib. Yəni DOST Agentliyi artıq 9 beynəlxalq mükafat və sertifikatla təltif olunub. Eyni zamanda hazırda bir çox ölkə, o cümlədən Avropa ölkələri də DOST təcrübəsini öyrənir və onu tətbiq etməyə maraq göstərirlər.

Həmçinin nazirliyin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunda (DSMF) son 5 ildə aparılan islahatlar, inzibati idarəçilikdən əhaliyə xidmət modelinə keçid, idarəçilik və xidmətlərin müasir innovativ texnologiyalar üzərində qurulması, proaktiv təyinat xidmətlərinin, optimal, şəffaf iş mexanizmlərinin tətbiqi beynəlxalq səviyyədə maraqla qarşılanaraq yüksək qiymət alır.

Ötən il və bu ilin ilk aylarında DSMF 10 beynəlxalq mükafatla (o cümlədən Böyük Britaniyada keçirilən "Dövlət sektorunda transformasiyaya görə beynəlxalq mükafat" müsabiqələrində "2022-ci ilin Beynəlxalq Dövlət Qurumu" və "Sosial təminat sahəsində islahata görə Mükəmməllik Sertifikatı", "2023-cü ilin Qalibi" ali mükafatları, BSTA-nın mükafatı və daha 2 mükəmməllik sertifikatı, Malayziyada keçirilən beynəlxalq müsabiqədə 1 qızıl, 2 xüsusi mükafat və s.) ilə təltif olunub.

Nazirliyin iki innovativ sosial layihəsi - 2019-cu ildən istifadəyə verilən e-sosial.az portalı və 2022-ci ildə işə salınan "Əmək və Məşğulluq" altsistemi (ƏMAS) isə bu ilin ilk aylarında BMT-nin İKT üzrə ixtisaslaşmış qurumu olan Beynəlxalq Telekommunikasiya İttifaqının "İnformasiya Cəmiyyəti üzrə Ümumdünya Sammiti - 2023" (Cenevrə) çərçivəsində keçirdiyi, müxtəlif ölkələrdən 18 kateqoriya üzrə 900 layihənin iştirak etdiyi müsabiqədə "Çempion layihə" mükafatları, habelə ötən il "IDDA Awards" müsabiqəsində ƏMAS "İlin Rəqəmsal Layihəsi" mükafatına layiq görülüb.

Nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin rəsmi vebsaytı (www.dma.gov.az) isə "Qlobal Hökumət Mükəmməlliyi" (Global Government Excellence) mükafatı üzrə "İlin vebsaytı" nominasiyasının qalibi olaraq ən yüksək mükafat - "Platinum" mükafatı ilə təltif olunub.

Qeyd olunanlarla yanaşı, son iki ildə nazirliyimizin qurumları "Keyfiyyətli idarəetmə sistemi", "Korrupsiyaya qarşı idarəetmə sistemi", "Müştəri məmnunluğu və şikayətlərin idarə edilməsi sistemləri" üzrə 12 ISO sertifikatı da əldə ediblər. Ümumilikdə, Azərbaycanda son 5 ildə aparılan sosial islahatlar təkcə ötən il və bu ilin ötən dövründə 33 beynəlxalq mükafat və sertifikata layiq görülüb.

*Qalib Azərbaycanın bütün sahələrdə əldə etdiyi tarixi nailiyyətlər, qələbələr Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu və cənab Prezident tərəfindən yeni müasir və qlobal çağırışlara uyğun yüksək səviyyədə davam etdirilən müdrik və uzaqgörən milli inkişaf strategiyasının uğurlarıdır. Ulu Öndərimizin həmişəyaşar ideyalarının işığında ölkəmiz öz böyük gələcəyinə doğru daim inamla irəliləyəcəkdir.*

**Sahil BABAYEV,**
***əmək və əhalinin sosial müdafiəsi naziri***

# Ermənistanın sülh müqaviləsini imzalamaqdan başqa yolu yoxdur

## Moskvada keçirilməsi planlaşdırılan sayca 10-cu görüşdə bu istiqamətdə müsbət irəliləyişlər ola bilər




İkinci Qarabağ müharibəsinin başa çatmasından 3 ilə yaxın vaxt keçsə də, tərəflər arasında sülh müqaviləsinin imzalanmamasının yeganə səbəbi məğlub Ermənistanın mənasız uydurmalarıdır. Amma Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təmin olunması, region ölkələri arasında kommunikasiyaların inkişafı üçün iki ölkə arasında sülh sazişinin bağlanması vacibdir.

Düzdür, bu müddətdə tərəflər arasında həm Avropa İttifaqının, həm də Rusiyanın vasitəçiliyi ilə müxtəlif görüşlər keçirilib. Azərbaycan və Hayastan arasında münasibətlərin normallaşdırılması, sülh sazişinin imzalanması istiqamətində addımların atılması ilə bağlı ümumilikdə 9 görüş keçirilib ki, onların hər birində Azərbaycan öz mövqeyini, iradəsini ortaya qoyub, milli maraqlarını yüksək səviyyədə qoruyub.

İndiyədək keçirilmiş görüşlərdən üçü Rusiyanın vasitəçiliyi ilə Soçi və Moskvada baş tutub. Mayın 25-də tərəflər arasında növbəti görüşün keçirilməsi də gözlənilir. Növbəti 10-cu görüşün sülh üçün irəliləyişlə müşahidə olunacağı proqnozlaşdırılır.

### Rusiya görüşü ölkələrarası münasibətlərin normallaşması prosesinə impuls verə bilər

Milli Məclisin deputatı Azər Badamov qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması vacibdir, bunun alternativi yoxdur. Düzdür, otuz ildə düşmən olmuş iki ölkə arasında münasibətlərin yenidən normallaşması asan məsələ deyil: "Ermənistan Azərbaycanın torpaqlarını işğal edərək özlərinə xəyal qurmuşdular. Azərbaycan isə 2020-ci ildə öz ərazilərini işğaldan azad edərək Ermənistanı döyüş meydanında ağır məğlubiyyətə uğradıb kapitulyasiya aktına imza atmağına məcbur etdi. İndi sülh müqaviləsinin imzalanması zamanı gəlib".

Yeni vəziyyətin, reallığın yarandığını deyən A.Badamov bildirib ki, indi qonşuluq münasibətlərini formalaşdırmaq lazımdır. Ermənistan ilk vaxtlar revanşist fikirlər səsləndirsə də, reallıqda sülh müqaviləsinin imzalanmasının alternativi olmadığını yaxşı bilir.

"Son vaxtlar sərhədimizdə təxribatlar törədərək sülh müqaviləsinin imzalanmasına kölgə salmağa çalışsa da, ABŞ, Brüssel və Moskvada Ermənistana münasibətlərin normallaşdırılması zamanının yetişdiyini başa salıblar. Ona görə də Paşinyan mayın 22-də keçirdiyi mətbuat konfransında Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, Qarabağın Azərbaycan ərazisi olduğunu bir daha etiraf etməli oldu", - deyə deputat əlavə edib.

Mayın 25-də tərəflər arasında növbəti görüşün nəzərdə tutulduğunu xatırladan Azər Badamov qeyd edib ki, bu görüşdə tərəflərin müzakirə edəcəyi və razılaşdıracağı müəyyən məsələlər var. Bütün danışıqlar Azərbaycanın suveren ərazilərinin toxunulmazlığı və beynəlxalq hüquq prinsiplərinə hörmət üzərində aparılır: "Ona görə də Moskvada keçiriləcək üçtərəfli görüşün ölkələrimiz arasında münasibətlərin normallaşma prosesinin sürətlənməsinə impuls verəcəyini hesab edirəm".

### Prezident İlham Əliyevin verdiyi son şansı qaçırmaq erməni dövlətçiliyi üçün son demək olar

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında deyib ki, Azərbaycan və Ermənistan arasında yekun sülh müqaviləsi istiqamətində bir neçə platforma üzrə təmaslar davam edir.

Prezident İlham Əliyevin Litvadan bəyan etdiyi kimi, Azərbaycan inanır ki, sülh danışıqlarının aparılması nəticə etibarilə Qafqaza uzunmüddətli sülh gətirəcək: "Sonuncu Brüssel görüşündən sonra bir vaxtlar "Qarabağ Ermənistandır, nöqtə" deyən Paşinyan artıq Qarabağı Azərbaycanın 86.6 min kvadratkilometrlik tərkib hissəsi kimi tanıdığını açıq formada bəyan edir. Bu, o deməkdir ki, biz sülhə heç vaxt olmadığımız qədər yaxınıq. Təbii ki, sülhə nail olmaq üçün dialoqun davamlı aparılması vacibdir. Rusiyada keçiriləcək görüşə də məhz bu baxımdan yanışılmalıdır. Sirr deyil ki, cənab İlham Əliyev elə bir geosiyasi konfiqurasiya formalaşdırıb ki, artıq iri güclər yekun sülhün reallaşacağına şübhə ilə yanaşmır və prosesin tərkib hissəsi olmaqda maraqlıdırlar. Bu mənada biz hətta Vaşinqton-Brüssel və Moskva rəqabətinə şahidlik edirik".

Rusiya görüşündə birbaşa sülh müqaviləsinin imzalanacağını düşünmədiyini deyən deputat əlavə edib ki, amma Brüsseldə əldə olunan razılığın əhatə dairəsinin genişləndirilməsi vacib hədəfdir. Ermənistan başa düşməlidir və ümid edirik ki, anlamağa başlayıb ki, Prezident İlham Əliyevin verdiyi son şansı qaçırmaq bütövlükdə erməni dövlətçiliyi üçün son deməkdir. Təbii ki, 200 il miflərlə yaşayan, xüsusən son 30 ildə məğlubedilməzlik eyforiyasına qapanmış Hayastan və erməni cəmiyyəti üçün bunu qavramaq asan deyil.

Bəhruz Məhərrəmov vurğulayıb ki, Prezident İlham Əliyev Praqada, Soçidə və nəhayət, Brüsseldə Paşinyana da, onun protektorlarına da reallığı bir daha anladıb: "Hesab edirik ki, Moskvada əlavə izahat prosesinə ehtiyac olmayacaq".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan-Litva əlaqələri inkişaf edir



Mayın 23-də Milli Məclisin Litva ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupu üzvlərinin ölkəmizdə səfərdə olan Litva Seyminin sədr müavini Yonas Yarutisin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Litva ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nəsib Məhəməliyev qonaqları salamlayaraq Litva nümayəndə heyətinin dünən Milli Məclislə ATƏT PA-nın birgə keçirdiyi konfransda iştirakını, parlamentin spikeri Sahibə Qafarova ilə görüşünü, aparılan səmərəli danışıqları qeyd edib. O, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əlaqələrin gücləndirilməsi baxımından əhəmiyyətindən danışıb.

Ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əlaqələrin inkişaf etdiyini deyən dostluq qrupunun rəhbəri Azərbaycanın enerji sahəsində Avropa ilə geniş əməkdaşlıq etdiyini bildirib.

Nəsib Məhəməliyev ikitərəfli münasibətlərin möhkəmləndirilməsində parlamentlərin rolundan danışaraq parlamentlərarası dostluq qrupları arasında sıx əlaqələrin olduğunu, deputatlarımızın, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlıq etdiyini söyləyib.

Litvalı deputatların Azərbaycanın Zəngilan rayonuna səfər edəcəyini deyən dostluq qrupunun rəhbəri orada Ermənistanın 30 il ərzində işğal altında saxladığı ərazilərimizdə törətdiyi dağıntı və vandalizmin şahidi olacaqlarını bildirib. O, bununla yanaşı, Azərbaycanın 44 günlük Vətən müharibəsi nəticəsində öz gücü ilə azad etdiyi torpaqlarımızda hazırda genişmiqyaslı bərpa və yenidənqurma işlərinin görüldüyünü vurğulayıb. Burada yeni infrastrukturun, o cümlədən "ağıllı kənd", "ağıllı şəhər", alternativ enerji layihələrinin həyata keçirildiyindən bəhs edib. Nəsib Məhəməliyev azad edilmiş ərazilərdə aparılan quruculuq işlərinə Ermənistan tərəfindən basdırılan minaların maneçilik törətdiyini də diqqətə çatdırıb.

Litva Seyminin sədr müavini Yonas Yarutis səmimi görüşə görə təşəkkürünü ifadə edərək, Azərbaycan və Bakı şəhəri haqqında xoş təəssüratlarını bölüşüb, qarşılıqlı səfərlərin intensivləşdirilməsinin əlaqələrin möhkəmlənməsinə xidmət etdiyini deyib. Qonaq dünyada gedən mürəkkəb proseslərdən danışaraq dövlətlərin davamlı inkişafı, xalqların firavanlığı üçün sülhün, sabitliyin, əmin-amanlığın mühüm əhəmiyyət kəsb etdiyini söyləyib.

Yonas Yarutis parlamentlərarası münasibətlərin gücləndirilməsi, dostluq qrupları arasında əlaqələrin inkişafı ilə bağlı fikirlərini bölüşüb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Milli Məclisin və ATƏT PA-nın birgə təşkilatçılığı ilə Bakıda keçirilən konfransın iştirakçıları Azərbaycanın Zəngilan rayonuna səfər ediblər

Milli Məclisin və ATƏT Parlament Assambleyasının birgə təşkilatçılığı ilə "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirilməsi və dayanıqlı inkişaf vasitəsilə təhlükəsizliyin və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda Bakıda keçirilən konfransın iştirakçıları mayın 23-də Azərbaycanın Zəngilan rayonuna səfər ediblər.






Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfərdə ATƏT PA-nın sədri Marqareta Sederfelt, Monteneqro parlamentinin Sədri Daniyela Curoviç, ATƏT PA-nın Baş katibi Roberto Montella, Litva Seyminin vitse-spikeri Yonas Yarutis, ATƏT PA-ya üzv dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər. Qonaqları Milli Məclisin deputatı, ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, qurumun İqtisadi məsələlər, elm, texnologiya və ətraf mühit üzrə baş komitəsinin sədri Azay Quliyev, deputat İqbal Məmmədov və Azərbaycanın ATƏT yanında daimi nümayəndəsi Rövşən Sadıqbəyli müşayiət ediblər.

Səfər çərçivəsində qonaqlar təyyarə ilə Zəngilan Beynəlxalq Hava Limanına gəliblər. Onlara burada Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə tikilmiş Zəngilan Beynəlxalq Hava Limanının texniki imkanları barədə məlumat verilib.

Sonra qonaqlar Zəngilan rayonunun Cahangirbəyli kəndinə gəliblər. Burada onlara Şərqi Zəngəzur rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev Zəngilan və digər ərazilərimizin Ermənistanın işğalı altında olduğu dövrdə necə viran edilməsindən, bütün əhalinin öz doğma yurdlarından didərgin düşərək məcburi köçkün olmalarından söz açıb. Diqqətə çatdırılıb ki, işğaldan azad edilmiş ərazilər, o cümlədən Zəngilan rayonu Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa nəzarəti altında bərpa olunur. Xüsusi nümayəndə həyata keçirilən quruculuq işləri və perspektivdə nəzərdə tutulan planlar barədə də danışıb, Cahangirbəyli kəndinin bərpa işləri, kəndin inkişaf planı barədə məlumat verib.

Sonra qonaqlara ANAMA-nın sədr müavini Samir Poladov ərazidə basdırılan minalar və onların axtarışı barədə məlumat verib. Qonaqlara burada mina partlayışı nümayiş etdirilib.

Sonra qonaqlar Zəngilan şəhərində Ermənistan tərəfindən işğal dövründə dağıdılmış yaşayış binalarına, mülki obyektlərə, dini, mədəni və tarixi abidələrə, yerləyeksan edilmiş binaların qalıqlarına baxıblar.

Qonaqların diqqətinə çatdırılıb ki, işğal illərində Ermənistan meşələrimizi və təbiət qoruqlarımızı məhv edib, təbii sərvətlərimizdən qanunsuz istifadə edib, Ermənistandan Azərbaycan ərazisinə axan transsərhəd çaylar da daxil olmaqla, torpağı və çayları çirkləndirib.

Yolboyu qonaqlar Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin Ermənistan tərəfindən 30 illik işğalının dağıdıcı nəticələrini öz gözləri ilə görüblər. Qonaqlara işğal dövründə Azərbaycanın şəhər və qəsəbələrinin, mədəni, dini abidələrinin, kitabxanaların işğalçı qüvvələr tərəfindən dağıdıldığı, xaraba qaldığı barədə məlumat verilib.

Sonra qonaqlar Zəngilanın Ağalı kəndinə yola düşüblər.

Qonaqlara bildirilib ki, Ağalı kəndi "ağıllı kənd" layihəsi çərçivəsində tamamilə yenidən bərpa olunan və işğaldan azad edilmiş ərazilərə qayıdan keçmiş məcburi köçkünlərin yenidən məskunlaşdığı yaşayış məntəqəsidir. Onlara "ağıllı kənd" və "yaşıl enerji" layihələri çərçivəsində görülmüş işlərlə bağlı geniş məlumat verilib.

Milli Məclisin və ATƏT PA-nın birgə təşkilatçılığı ilə Bakıda keçirilən konfransın iştirakçıları Ağalı kənd meydanında otuz ilə yaxın müddətdə işğal altında qalmış əzəli torpaqlarımızda sülhün əbədi təmin olunmasını təcəssüm etdirən göyərçin abidə-fəvvarə kompleksi, "ASAN" xidmət mərkəzi və digər yeni tikililərlə tanış olublar. Qonaqlar burada kənd sakinləri ilə söhbət ediblər və onlarla xatirə şəkli çəkdiriblər.

*"Azərbaycan"*

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Prezident İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulları keçirilir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin həlli ilə bağlı müvafiq tədbirlər görülür. AZƏRTAC xəbər verir ki, mayın 23-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Quba rayonundakı Heydər Əliyev Mərkəzində vətəndaşların müraciətlərini dinləyib.

Sonra Quba və Qusar rayon sakinlərinin ərizə, müraciət və təkliflərinə baxılıb. Vətəndaşların müraciətləri əsasən mənzil-məişət şəraitinin yaxşılaşdırılması, məşğulluq və bir sıra digər məsələlərlə bağlı olub. Vətəndaşların dövlət komitəsinin səlahiyyət dairəsinə aid müraciətləri komitənin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

# Komitə sədri Tovuz rayonunda azyaşlının evdən qaçması faktına münasibət bildirib

"Tovuz rayonunda azyaşlının evdən qaçması faktı aşkarlandıqdan sonra qurumlararası müvafiq əlaqələndirilmiş fəaliyyət həyata keçirilməkdədir. İlk növbədə onu qeyd etmək istərdim ki, bu hadisə yenə də sosial şəbəkə üzərindən yaranan "münasibətlər" çərçivəsində baş verib.



Faktın özü bir daha bu məkanda cəmiyyət və ailələrimiz, eləcə də uşaq və gənclərimiz üçün kifayət qədər təhlükəli məqamların olduğunu göstərir. Odur ki, ilk növbədə azyaşlıların üzərində müvafiq nəzarət tədbirləri gücləndirilməlidir. Bu nəzarət uşaqların hüquqları pozulmadan, onların inkişafına maneə törədilmədən həyata keçirilməlidir".

Bunu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova AZƏRTAC-a açıqlamasında Tovuz rayonunun azyaşlı sakininin ailə qurmaq məqsədilə evdən qaçmasına münasibət bildirərkən söyləyib.

Bahar Muradova bildirib ki, uşaqlara qarşı diqqətsizlik, bəzən də valideynlərin öz öhdəliklərini yerinə yetirməməsi səbəbindən belə xoşagəlməz faktlarla rastlaşırıq. Amma o da sirr deyil ki, bir sıra hallarda yetkin yaşda olan şəxslər bilərəkdən və məqsədli olaraq azyaşlılara qarşı təhlükə törədən hərəkətlərə yol verirlər. Bu, qəbuledilməzdir.

"Təəssüf ki, məlum hadisə zamanı da yaşlı bir şəxs tərəfindən aşkar cinayət kimi xarakterizə olunan hüquqazidd əməl baş verib. Çünki uşaq bilməsə də, o bilirdi ki, qanun bu əməli qadağan edir. Odur ki, haqlı olaraq müvafiq dövlət qurumları bununla bağlı addımlar atıblar və artıq cinayət işi açılıb. Əmin olun ki, təqsirkar layiqli cəzasını alacaq", - deyə Bahar Muradova söyləyib.

Komitə sədri belə hallarda əsas məqsədin təkcə bir nəfərin cəzalandırılmasından ibarət olmadığını, qabaqlayıcı və profilaktik tədbirlərin artırılmasının, hüquqi maarifləndirmənin vacibliyini bildirib. Həmçinin qeyd edib ki, uşaqlar heç vaxt nəzarətdən kənarda qalmamalı, hər zaman xüsusi diqqət, qayğı və himayə ilə əhatə olunmalıdırlar. Ailə, məktəb və müvafiq qurumlar bu məsələlərə mənəviyyat və hüquq çərçivəsində yanaşmalıdırlar.

"Görünür ki, ailədaxili münasibətlərdə, azyaşlının özünün psixoloji durumunda müəyyən dəyişikliklər var ki, bu cür hallar yaşanıb. Bu baxımdan biz dövlət komitəsi olaraq aidiyyəti vəzifələrimizi icra edəcəyik. Həmin ailə psixoloji dəstək alacaq. Hazırda qızın ailəyə qaytarılması prosesində də nümayəndələrimiz iştirak edirlər. Onu da qeyd edim ki, azyaşlı və ailə üzvlərinin şəxsi məlumatlarının təfərrüatınadək yayılması və publik müzakirəsi yolverilməzdir. Aydındır ki, bu, ilk olaraq onun itkin düşməsi səbəbindən baş verib. Amma bundan sonra həmin faktla bağlı məlumatların yayılmasında diqqətli olmaq lazımdır. Əlbəttə ki, müvafiq qurumlar öz tədbirlərini görəcəklər. Bir daha valideynlərə tövsiyəm ondan ibarətdir ki, daim öz övladlarının yanında olsunlar", - deyə Bahar Muradova söyləyib.

# Azərbaycan Ordusunun Baş Qərargah rəisinin Pakistana rəsmi səfəri başlayıb

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Pakistan İslam Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı ordu generalı Asim Munirin dəvəti ilə mayın 23-də bu ölkəyə rəsmi səfərə gedib. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, səfər çərçivəsində general-polkovnik K.Vəliyevin Pakistanın hərbi rəhbərliyi ilə görüşü, həmçinin bir sıra hərbi təyinatlı müəssisələrə ziyarəti nəzərdə tutulub.

# Azərbaycan Alban-Udi Dini İcmasının nümayəndələri Xudavəng monastırını ziyarət ediblər

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Alban (Qafqaz) Apostol Müstəqil Kilsəsinin varisi olan Azərbaycan Alban-Udi Dini İcmasının və qeyri-islam dini icmaların nümayəndələri Ermənistanın işğalından azad olunan Kəlbəcər rayonundakı Xudavəng monastır kompleksini ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, icma nümayəndələri məbəd kompleksə aid kilsədə dini ayinlər icra edib, dualar oxuyub, şamlar yandırıblar.




Şuşa türk dünyasının mədəniyyət paytaxtıdır

# Şuşada bir ev var...



## Mehmandarovlar soyuna məxsus malikanə kompleksi milli irsimizin möhtəşəm nümunəsidir

2020-ci il noyabrın 8-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tarixi, mədəni və strateji əhəmiyyətə malik olan Şuşa şəhərini - Qarabağın tacını işğalçılardan azad etdi. Bu, 44 gün ərzində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi qələbə oldu. Şuşanın işğaldan azad edilməsi müharibənin sonrakı gedişinə ciddi təsir göstərdi, hərb meydanında olduğu kimi, diplomatiya meydanında da Azərbaycanın uğurlarını şərtləndirdi və xalqımızın tarixinə Zəfər Günü kimi yazıldı.

Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Prezident İlham Əliyevin 2021-ci il mayın 7-də imzaladığı sərəncamda vurğulanır ki, şəhərin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği mühüm əhəmiyyət kəsb edir. Bu mühüm sənəddə göstərilir ki, tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir.

Şuşa şəhərinin Azərbaycan üçün müstəsna əhəmiyyət kəsb etdiyini bildirən Prezident İlham Əliyev tapşırmışdı ki, yarıdağılmış tarixi abidələrimizin bərpasında çox həssas olmalı, ancaq biz o tarixi abidələrimizin əsl simasını bərpa etməliyik. Vaxt itirmədən, eyni zamanda tələsmədən Şuşanın ilkin siması, tarixi siması bərpa edilməlidir. Buna görə Şuşa işğaldan azad edildikdən dərhal sonra şəhərin bərpası istiqamətində işlərə başlanıldı.

Heydər Əliyev Fondu işğaldan azad olunan ərazilərdə, xüsusilə Şuşada 2020-ci il dekabrın 8-dən etibarən mədəni-dini abidələrin, məscidlərin bərpası layihələrinin icrasına başlamışdır. Bununla da Heydər Əliyev Fondu tarixi bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi fəal dəstəyini göstərir. Aparılan genişmiqyaslı işlərə yerli ekspertlərlə yanaşı, xarici mütəxəssislər də cəlb olunmuşdur.

Heydər Əliyev Fondunun Qarabağdakı bərpa layihələrinin bir hissəsi isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində həyata keçirilir. Heydər Əliyev Fondu artıq Şuşada bir neçə layihənin bərpasını başa çatdırmışdır. Bunların sırasına dahi Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin büstünün yenidən qurulması, görkəmli bəstəkar Üzeyir bəy Hacıbəylinin heykəlinin Şuşada yenidən ucaldılması, Yuxarı Gövhər ağa, Saatlı məscidlərinin, Milli Xalça Muzeyinin Şuşa filialının, Yaradıcılıq Mərkəzinin əsaslı yenidənqurma və bərpa işlərindən sonra açılışı, Cıdır düzündə Mir Möhsün Nəvvab Qarabağinin bərpa olunan məzarı və digərləri daxildir.

Mehmandarovların malikanə kompleksi də bu layihələrdən biridir. 2023-cü il mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksinin açılışında iştirak etdilər.

### Şuşanın tanınmış Mehmandarovlar soyu

Mehmandarovlar Qarabağın, Şuşanın qədim və məşhur soylarındandır. Bu soyun tarixçəsinə gəldikdə, mənbələrdə qeyd edilir ki, Qarabağ xanlığının idarəetmə aparatında bir çox hərbi və mülki vəzifələr mövcud olmuş və onlardan biri də mehmandar ("qonaqpərvər", "qonaqsevər") idi. Mehmandarın vəzifəsi xarici dövlətlərin nümayəndələrini və digər rəsmi qonaqları ölkənin sərhədində qarşılayaraq müşayiət etmək, hörmətlə xanlığın paytaxtına gətirib yerləşdirmək, onların istirahətlərini yüksək səviyyədə təşkil etmək olmuşdur. Bununla yanaşı, mehmandarlar xanlığa gələn qonaqların məktublarını saraya, xanın məktublarını isə onlara çatdırmaq vəzifəsini də yerinə yetiriblər. Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin və oğlu Mehdiqulu xanın hakimiyyətləri dövründə bu şərəfli və məsuliyyətli vəzifəni Mirzə Əli bəy həyata keçirirdi. Bu səbəbdən də 1830-cu illərdə Azərbaycanda yeni soyad sistemi formalaşarkən Mirzə Əli bəyin övladları və bu nəslin görkəmli nümayəndələri babalarının keçmiş vəzifəsini özlərinə soyad götürmüş və bütün rəsmi dövlət sənədlərində Mehmandarovlar kimi qeydə alınmışlar.

Mirzə Əli bəy yaşı ilə əlaqədar mehmandarlıq vəzifəsindən istefaya çıxarkən Mehdiqulu xan Cavanşir bir çox mükafatla yanaşı, ona Şuşanın qədim 17 məhəlləsindən biri olan, "Təzə məhəllə" adı ilə tanınan yerdə əlavə torpaq sahəsi də bağışlamışdı. Mirzə Əli bəy də burada o dövrün tanınmış memarı olan Kərbəlayi Səfixan Qarabağinin rəhbərliyi ilə heç bir binaya bənzəməyən malikanə tipli saray kompleksi inşa etmişdi. Qarabağ xanının mehmandarı Mirzə Əli bəyin üç oğlu olub: Mirzə Həsən bəy, Mirzə Sadıq bəy və Mirzə Mustafa bəy.







Mirzə Əli bəyin oğlu Mirzə Sadıq bəy Mehmandarov dövlət xidməti ilə əlaqədar Lənkəranda yaşamışdı. Mehmandarovlar soyunun görkəmli xadimlərindən olan Mirzə Sadıq bəyin oğlu, general Səməd bəy Mehmandarov 1856-cı ildə Lənkəranda anadan olmuşdur. 1918-ci il noyabrın 1-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Hərbi Nazirliyi bərpa etmək barədə qərar qəbul edərkən Səməd bəy Mehmandarov Cümhuriyyət ordusunda xidmətə çağrılaraq, hərbi nazirin müavini təyin edilmiş, nazirliyin və ordunun formalaşdırılması ona tapşırılmışdı. Onun peşəkarlığı, təşkilatçılıq qabiliyyəti, ən başlıcası isə Azərbaycanın müstəqilliyinə sədaqəti yeni şəraitdə də tezliklə öz təsdiqini tapmışdı. 1918-ci il noyabrın 1-də o, Azərbaycan Xalq Cümhuriyyətinin hərbi nazirinin müavini, həmin il dekabrın 25-də isə hərbi nazir təyin edilmiş və qısamüddətli fəaliyyəti dövründə 30 minlik milli ordu yaratmağa nail olmuşdu. 1928-ci ildə Səməd bəy Mehmandarov səhhətinə görə orduda xidmətdən tərxis olunmuşdu. O, rus, türk və fars dillərini yüksək səviyyədə bilirdi. Ömrünün son üç ilində islam tarixi və fəlsəfəsi ilə məşğul olan Səməd bəy Mehmandarov 1931-ci ildə Bakıda vəfat etmişdir.

Mirzə Əli bəyin kiçik oğlu Mirzə Mustafa bəy Mehmandarov 1825-ci ildə Şuşa şəhərində anadan olub. Şuşa qəza məktəbini bitirən Mustafaya savadlı olduğuna görə şuşalılar "Mirzə" deyə müraciət etmişlər. 1843-cü ildə Şuşa qəza idarəsində katib işləmiş Mirzə Mustafa bəy Mehmandarov 1870-ci ildən Şuşa və Zəngəzur qəzalarında seçki üzrə ali müsəlman silkindən Şuşa bəy komissiyasının üzvü olmuş, kollec katibi, müşavir, xeyriyyəçi, xəttat, publisist kimi tanınmışdır. Şuşada qardaşı oğlu Qasım bəy Mehmandarovla birlikdə susuzluqdan əziyyət çəkən "Təzə məhəllə" sakinləri üçün 1899-cu ildə su çəkdirmiş və hər ikisinin vəsaiti hesabına yerli daşlardan memarlıq abidəsi sayılan gözəl bir bulaq tikilmişdir. "Təzə məhəllə" bulağı adlanan bu bulaq bir əsrə yaxın, yəni Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən 1992-ci ildə işğalına qədər məhəllə sakinlərinin suya olan ehtiyacını təmin etmişdir.

### Əbdülkərim bəy Mehmandarov - Azərbaycanın tanınmış həkimi, xeyriyyəçi, maarifçi və ictimai xadim

Mirzə Mustafa bəyin böyük oğlu, ilk ali təhsilli azərbaycanlılardan biri olan Əbdülkərim bəy Mehmandarov 1854-cü ildə Şuşada anadan olmuşdur. O, Şuşa qəza məktəbini əlaçı şagird kimi, daha sonra 1872-ci ildə Bakı şəhər gimnaziyasını qızıl medalla bitirərək Sankt-Peterburq Tibb Cərrahlıq Akademiyasına daxil olmuş, 1877-ci ildə akademiyanı bitirib Sankt-Peterburq klinik hərbi xəstəxanasında həkim işləmişdir. O, 1881-ci ildə 162-ci Axaltski piyada alayının kiçik həkimi vəzifəsinə təyin edilmiş, 1883-cü ilin yanvarında isə Yelizavetpol quberniyasının Cavanşir qəzasına həkim göndərilmişdir. Bununla da o, hərbi xidmətdən mülki xidmətə keçmiş və sonrakı bütün fəaliyyətini doğma Qarabağda səhiyyə və mədəni-maarif işlərinə həsr etmişdir. 1893-cü ildə Qafqaz həkimlərinin Tiflisdə keçirilən birinci qurultayında fəal həkim kimi iştirak etmiş və bölgədəki vəba epidemiyası haqqında hesabat vermişdir.

Əbdülkərim bəy Mehmandarov 1895-ci ildən həkimlik fəaliyyətini Ağdamda və Şuşada davam etdirmiş, daha sonra Şuşada əvvəlcə "Difai" Partiyası Şuşa komitəsinin sədri, ardınca isə komitənin əsasında yaradılan Qarabağ Birlik Məclisinin rəhbəri olmuşdur. O, Azərbaycanda ilk dəfə olaraq Qafqaz mülki idarəsinin əmri ilə Yelizavetpol (Gəncə) quberniyasının Cavanşir qəzasına həkim təyin edilmişdir. On il burada işləyən Əbdülkərim bəy 1895-ci ildən Şuşa qəzasında kənd həkimi kimi çalışmışdır. Həmin ildə Məmmədrza ağa Vəkilov və Əbdülxalıq Axundov ilə birgə Bakı Tibb Cəmiyyətini təsis etmişdir. Onun xeyriyyəçilik fəaliyyəti daha geniş olmuş, Əhməd bəy Ağaoğlu ilə birlikdə Şuşada xəstəxana və yetim qalmış uşaqlar üçün məktəb və qiraətxana açmışdır. O həm də Şuşa Xeyriyyə Cəmiyyətinin sədri kimi bir çox xeyirxah işlər görmüş, 1911-ci ildə onun təşəbbüsü ilə Şuşada ilk dəfə qızlar məktəbi açılmışdır. Onun Şuşadakı xeyriyyəçilik fəaliyyətində Həmidə xanım Cavanşirin çox böyük köməyi olmuşdur.

Əbdülkərim bəy Azərbaycan Xalq Cümhuriyyəti dövründə də səhiyyənin inkişafı, əhaliyə tibbi yardımın təşkili işləri üçün böyük xidmət göstərmişdir. Sovet hakimiyyəti onu siyasi baxışlarına görə təqib etmiş, ona fiziki və mənəvi iztirablar vermişdir. O, 1929-cu ildə vəfat etmişdir.

Əbdülkərim bəy Mehmandarovun oğlu Rəşid bəy Mehmandarov 1887-ci ildə Şuşa şəhərində anadan olmuşdur. O, şəhər realnı məktəbini bitirdikdən sonra Tiflis hərbi məktəbinə daxil olmuşdur. Rəşid bəy Mehmandarov Kiyevdə ali təhsil almış, Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli ordunun zabiti kimi xidmət etmişdir. O, 1937-ci ildə qardaşı Ədil bəy Mehmandarov kimi tutulub Bakıya gətirilmiş və 1938-ci ildə güllələnmişdir.

Rəşid bəyin qardaşı Ədil bəy Mehmandarov 1889-cu ildə Şuşada anadan olmuşdur. O, Şuşa Realnı Məktəbini bitirəndən sonra Bakı şəhərində feldşerlik kursunda oxumuşdur. Ədil bəy Mehmandarov bir müddət Şuşa Şəhər Xəstəxanasında çalışmış, sonra Kiyev Politexnik İnstitutuna daxil olmuş, burada Qafqaz Həmyerlilər Cəmiyyətinin üzvü kimi fəaliyyət göstərmişdir. Daha sonra doğma şəhərə qayıdaraq ictimai-siyasi fəaliyyətlə məşğul olmuş, şəhər bələdiyyəsində işləyərək Şuşanın abadlığı üçün çalışmışdır. Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra 1927-ci ildə siyasi fəaliyyətinə görə həbs edilmiş, lakin bir müddət sonra azadlığa buraxılmış, müəllimliyə başlayaraq Şuşa Pedaqoji Texnikumunda dərs demişdir. Ədil bəy Mehmandarov 1930-cu ildə yenidən həbs olunsa da, azad edildikdən sonra iş yerinə qayıtmışdır. Sonuncu dəfə 1937-ci ildə tutularaq Bakıya gətirilmiş və güllələnmişdir.

### Mehmandarovların malikanə kompleksi - qədim tarixə malik memarlıq abidəsi

Memarlıq abidəsi sayılan Mehmandarovlara məxsus malikanə kompleksinə böyük yaşayış evi, kiçik yaşayış evi və məscid daxildir. Daha sonralar məscidə gedən yolun üstündə bulaq tikilmişdir. Mehmandarovların malikanə kompleksi ilk dəfə 1977-1978-ci illərdə Azərbaycan SSR Mədəniyyət Nazirliyi tərəfindən pasportlaşdırılmışdır. Azərbaycan Xalçası və Xalq-Tətbiqi Sənəti Dövlət Muzeyinin Şuşa filialının əsası Azərbaycan SSR Mədəniyyət Nazirliyinin 1985-ci il 26 sentyabr tarixli 502 nömrəli əmrinə əsasən qoyulmuşdur. XIX əsrə aid tarixi memarlıq abidəsi olan Mehmandarovlar ailəsinə məxsus malikanə kompleksində 1987-ci il 19 may tarixdən Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin (indiki Azərbaycan Milli Xalça Muzeyi) Şuşa filialı fəaliyyətə başlamışdır. 1992-ci ildə Şuşanın Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı filialdakı daşınması mümkün olan eksponatlar təxliyə olunaraq Bakıya gətirilmişdir. Bundan əvvəl isə sovet dövründə Mehmandarovların böyük yaşayış binasında Şuşa Şəhər Xəstəxanası fəaliyyət göstərmişdir. Yaşayış kompleksinə daxil olan, 1984-cü ildən etibarən Şuşada təbii dərman vasitəsi kimi istifadə edilən bitkilərin toplandığı məhəllə məscidi isə "Yaşıl Aptek" kimi fəaliyyət göstərmişdir.

Şuşanın azad edilməsindən sonrakı dövrdə - 2021-ci ilin oktyabrından etibarən Mehmandarovların malikanə kompleksində, ərazidəki ailə məscidi və bulaqda təmir-bərpa işləri aparılmış, bulağın damı əvvəlki vəziyyətinə gətirilmişdir. Kompleksə daxil olan evin və məscidin binalarının dam örtükləri yenilənmiş, tavanlar bərpa edilmişdir. Bununla yanaşı, malikanə kompleksinin dağılmış divarı bərpa olunmuş, zədəli divarda bərkitmə işləri aparılmış, həmçinin məscidin "Güldəstə"si restavrasiya olunmuşdur. Evin həyətində XX əsrin əvvəllərinə aid tarixi fayton da dövrünün texnologiyalarına uyğun bərpa edilmişdir.

Görülmüş işlərdən sonra malikanə kompleksində "Qarabağ zadəganının evi" mövzusundakı ekspozisiya tərtib edilərkən XIX əsrin sonu - XX əsrin əvvəllərində Qarabağ zadəganının evinin interyeri, ziyalı şəxsin həyat tərzinin xüsusiyyətləri əsas götürülmüşdür. Ekspozisiyada Azərbaycan Milli Kino-Foto Sənədləri Arxivi, Milli Azərbaycan Tarixi Muzeyi, Azərbaycan Milli İncəsənət Muzeyi, AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun materialları, həmçinin elmi ədəbiyyat mənbə qismində istifadə etmişdir.

Zadəgan malikanəsinin qonaq otağı evin siması olduğundan burada ən müasir interyer elementlərindən istifadə edilmişdir. Fotolar Şuşanın tanınmış zadəgan nəsilləri - Mehmandarovlara, onlarla qohumluq əlaqəsi olan Rüstəmbəyovlara, Vəzirovlara, Qacarlara aiddir. Malikanədəki otaqları milli əşyalarla yanaşı, avropasayağı məişət əşyaları da bəzəyir. Otaqlar dövrün eksponatları ilə XIX əsrin sonu - XX əsrin əvvəllərinə aid interyer qaydalarına uyğun tərtib edilmişdir. Artıq buranı ziyarət edən hər bir kəs özünü XIX əsrin sonu - XX əsrin əvvəllərində yaşamış azərbaycanlı zadəganın evindəki kimi hiss edir. Ekspozisiyanın tərtibatı zamanı 150-dən çox əntiq əşyadan istifadə edilmişdir.

Xüsusi vurğulamaq lazımdır ki, Şuşada keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı çərçivəsində 2023-cü il mayın 11-də Mehmandarovların malikanə kompleksində Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin konserti olmuşdur. Ən diqqətçəkən məqamlardan biri də konsertə Mehmandarovlar nəslinin nümayəndəsi, Azərbaycan Dövlət Simfonik Orkestrinin dirijoru, Beynəlxalq müsabiqələr laureatı Mustafa Mehmandarovun dirijorluq etməsi idi. Bərpa işlərindən sonra malikanənin bu nəslin nümayəndəsinin dirijorluğu ilə möhtəşəm konsert proqramına evsahibliyi etməsi Azərbaycan tarixində iz buraxmış Mehmandarovlar soyunun dünyadan köçmüş nümayəndələrinin xatirəsinə göstərilən yüksək ehtiramın ifadəsidir.

Beləliklə, maarifçilik beşiyi və mədəniyyət paytaxtımızda tikinti-quruculuq işləri dövlət başçısının tapşırığına əsasən, şəhərin tarixi memarlıq xüsusiyyətlərinə uyğun həyata keçirilir. Şuşanın həm tarixi-mədəni ənənələri, həm də tarixi-memarlıq abidələri Azərbaycanın zəngin şəhərsalma mədəniyyətinin parlaq incisi kimi bərpa olunur, Şuşanın əzəmətli ruhu canlandırılır.

***Elçin ƏHMƏDOV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Qarabağ İrsini Araşdırma Mərkəzi"nin rəhbəri, professor, siyasi elmlər doktoru***

## Əlaqələndirmə və monitorinq üzrə İşçi Qrupun hesabatı

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində yaşıl texnologiyaların və enerji səmərəliliyi tələblərinin tətbiqi ilə bağlı əlaqələndirmə və monitorinq üzrə İşçi Qrupun növbəti iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, energetika naziri Pərviz Şahbazovun sədrliyi ilə keçirilən tədbirdə İşçi Qrupun əvvəlki iclasından ötən dövr ərzində həyata keçirilmiş tədbirlərə dair İşçi Qrupun Katibliyinin hesabatı dinlənilib, işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji zonası"nın yaradılması ilə bağlı qarşıya qoyulmuş tapşırıqların icrası müzakirə olunub.

Eyni zamanda Şərqi Zəngəzur İqtisadi rayonunda 1 saylı Bərpa, Tikinti İdarəetmə və Qarabağ İqtisadi rayonunda Bərpa, Tikinti və İdarəetmə xidmətlərinin nümayəndələrinin "Yaşıl enerji zonası" konsepsiyasının tələblərinə uyğun olaraq həyata keçirilən tikinti-quruculuq işlərinə və reallaşdırılmış layihələrə dair məruzələri dinlənilib.

İclasda həmçinin "yaşıl texnologiya"ların və enerji səmərəliliyi tələblərinin tətbiqinə əməl edilməsinin monitorinqi və digər cari məsələlərə dair fikir mübadiləsi aparılıb, müvafiq qərarlar qəbul olunub.

Qeyd edək ki, iclasda İşçi Qrupuna daxil olan dövlət qurumları ilə yanaşı, "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti", "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxslərin və Qarabağ Dirçəliş Fondunun nümayəndələri də iştirak ediblər.

## UNESCO Qərbi Azərbaycan İcmasının müraciətinə rəsmi cavab verib

UNESCO Qərbi Azərbaycan İcmasının müraciətinə rəsmi cavab verib. Bu barədə AZƏRTAC-a icmanın Mətbuat xidmətindən məlumat verilib.

Məlumatda bildirilir ki, Qərbi Azərbaycan İcması 2023-cü il martın 27-də Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatına (UNESCO) müraciət edərək, indiki Ermənistan ərazisində Azərbaycan mədəni irsinin kütləvi dağıdılması faktlarına diqqəti çəkmiş və bu sahədə vəziyyətin qiymətləndirilməsi üçün Ermənistana faktaraşdırıcı missiyanın göndərilməsini xahiş etmişdi.

İcma bu mövzuya beynəlxalq diqqəti cəlb etmək və UNESCO-nun bu məsələ ilə məşğul olmağa başlamasını təmin etmək üçün müvafiq xarici dövlətlər, beynəlxalq və regional təşkilatlar ilə davamlı təmaslar aparıb.

Bu kontekstdə UNESCO icmanın müraciətinə, nəhayət, rəsmi cavab verib. Təşkilatın rəhbər şəxsinin imzaladığı məktubda indiki Ermənistan ərazisində Azərbaycan mədəni irsinin vəziyyəti barədə icmanın qaldırdığı məsələnin UNESCO-nun mandatına birbaşa aid olduğu vurğulanmış və bu sahədə müvafiq mexanizmlərdən istifadə etməklə məsələ ilə yaxından məşğul olduğu bildirilib.

UNESCO-nun icmaya göndərdiyi bu məktub indiki Ermənistan ərazisində Azərbaycan mədəni irsi məsələsinin beynəlxalq gündəliyə gətirilməsi, bu sahədə praktik addımların atılması və beynəlxalq aləmdə icmanın mötəbər tərəf-müqabil kimi tanınması o cümlədən UNESCO ilə icma arasında predmetli dialoq yolunda mühüm inkişafdır.

İcma indiki Ermənistanda Azərbaycan mədəni irsinin dağıdılmasının dayandırılması və dağıdılmış olanların bərpası üçün beynəlxalq hüququn normaları və mexanizmləri çərçivəsində UNESCO ilə dialoq və qarşılıqlı fəaliyyətini davam etdirəcək.

## Azərbaycanın turizm imkanları Səudiyyə Ərəbistanında nümayiş etdirilir

Azərbaycan Turizm Bürosu Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində keçirilən beynəlxalq "Riyad səyahət sərgisi"ndə iştirak edir.

Dövlət Turizm Agentliyindən (DTA) AZƏRTAC-a bildirilib ki, sərgidəki milli stenddə Azərbaycan Turizm Bürosu, "Azərbaycan Hava Yolları" QSC və "Şahdağ" Turizm Mərkəzi ilə yanaşı, 13 yerli turizm sənayesi nümayəndəsi təmsil olunur.

Stend ziyarətçilərinə Azərbaycanın tarixi, mədəni irsi, UNESCO-nun Ümumdünya İrs Siyahısına salınmış tarixi abidələri, milli mətbəx nümunələri, ekoturizm, sağlamlıq, yay və qış turizmi imkanları üzrə potensialı haqqında ətraflı məlumat verilir.

Sərgi çərçivəsində digər iştirakçı ölkələri təmsil edən turizm şirkətləri ilə B2B formatlı görüşlər keçirilir, qarşılıqlı əməkdaşlıq imkanları qiymətləndirilir.

Mayın 24-dək davam edəcək "Riyad səyahət sərgisi"ndə dünyanın 55 ölkəsindən 300-dən çox turizm sənayesi nümayəndəsi təmsil olunur. Sərginin 30 minədək ziyarətçini qəbul edəcəyi gözlənilir.

Qeyd edək ki, 2022-ci ilin aprel ayı ilə müqayisədə bu ilin aprel ayında Səudiyyə Ərəbistanından olan ziyarətçi sayında 3 dəfə artım müşahidə olunub. Eyni zamanda Səudiyyə Ərəbistanı 2023-cü ilin aprel ayında ölkəmizə həyata keçirilən uçuşların statistikasında ilk beşlikdə yer alır.

Həmçinin 2022-ci ildə Səudiyyə Ərəbistanından olan ziyarətçilər Körfəz ölkələri sırasında birinci pillədə qərarlaşıb. Həmin il Körfəz ölkələrindən Azərbaycana 185 288 xarici vətəndaş səfər edib ki, bunun da 52 faizini Səudiyyə Ərəbistanı vətəndaşları təşkil edib.

## Kreml Azərbaycan və Ermənistan liderlərinin Moskva görüşünün məhsuldar olacağı qənaətindədir

Rusiya Azərbaycan və Ermənistan liderlərinin Moskva görüşünün müsbət nəticələnəcəyi qənaətindədir.

AZƏRTAC xəbər verir ki, bu barədə "Rusiya-Azərbaycan: media əməkdaşlığının aktual məsələləri" mövzusunda "dəyirmi masa" çərçivəsində azərbaycanlı jurnalistlərə Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın qarşıdakı Moskva görüşünü şərh edən Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.

Kremlin rəsmi nümayəndəsi deyib: "Biz nəticələrin olacağına ümid etmək istərdik. Bu nəticələrin hansı dərəcədə müsbət olacağını zaman göstərəcək".

D.Peskov həmçinin Rusiya və Azərbaycan kütləvi informasiya vasitələri nümayəndələrinin dialoqunun əhəmiyyətini qeyd edib. O vurğulayıb: "KİV-in xətti ilə qarşılıqlı fəaliyyət bizim ikitərəfli münasibətlərimizin ümumi kompleksinin mühüm tərkib hissəsidir. Biz hesab edirik ki, bu, davam edəcək və genişlənəcək. KİV gündəlikdə duran məsələlərlə bağlı suallar verməli və həmin suallara cavab almalıdır. Bu, ümumi prosesə kömək edəcək".

## *Mariya ZAXAROVA:* "Rusiyalı jurnalistlər məmnuniyyətlə Bakıya gələcəklər"

Xarici işlər naziri Sergey Lavrovun Bakıya səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyev Rusiya nümayəndə heyətini qəbul etdi və həmin vaxt KİV-in nümayəndələri və media məsələləri ilə məşğul olan rəsmi şəxslər arasında birbaşa dialoqun əhəmiyyəti qeyd edildi.

Bu barədə AZƏRTAC-a "Rusiya-Azərbaycan: media əməkdaşlığının aktual məsələləri" mövzusunda keçirilən "dəyirmi masa"da iştirak edən Rusiya Federasiyası XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib.

Rusiya XİN-in rəsmi nümayəndəsi deyib: "Bizim Xarici İşlər nazirlikləri arasında, xüsusən azərbaycanlı həmkarlarla məsləhətləşmələr üzrə praktikamız mövcuddur, biz media problemlərini müzakirə edirik. Lakin jurnalistlərin öz həmkarları, imkan daxilində həm də icra hakimiyyəti nümayəndələri ilə birbaşa ünsiyyəti olmadan, əlbəttə, bütün bunlar natamam olardı. Belə görüşləri mütəmadi keçirmək lazımdır".

Mariya Zaxarova xatırladıb ki, Azərbaycan Prezidenti İlham Əliyev Rusiya KİV-inin nümayəndələrini dəvət edib: "Azərbaycanın qonaqpərvərliyi heç kimə sirr deyil. Düşünürəm ki, rusiyalı jurnalistlər bu təklifə məmnuniyyətlə cavab verəcək və hələ Azərbaycanda da belə görüş keçirəcəyik".

## *Mixail QUSMAN:* "Rusiya və Azərbaycan KİV nümayəndələrinin görüşləri ənənəsinin əsasını Heydər Əliyev qoyub"

"Rusiya və Azərbaycan KİV nümayəndələrinin görüşləri ənənəsinin əsası daim onların təşkilinə kömək edən Heydər Əliyev tərəfindən qoyulub".

AZƏRTAC xəbər verir ki, bu barədə "Rusiya-Azərbaycan: media əməkdaşlığının aktual məsələləri" mövzusunda keçirilən "dəyirmi masa"da TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman bildirib.

M.Qusman deyib: Rusiya və Azərbaycanın media strukturları arasında dialoqun bu formatı Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin fevralında Rusiyaya rəsmi səfəri çərçivəsində Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşü zamanı təklif edilib. Həmin yaddaqalan görüşün iştirakçıları bu gün aramızdadır. Heydər Əliyev dəfələrlə belə görüşlərin əhəmiyyətini qeyd edib. Bu, artıq onun zamanında əsası qoyulmuş bir ənənədir və o, daim onların təşkilinə kömək edirdi. Heydər Əlirza oğlu həmçinin TASS-da, elə bu zalda Rusiya KİV-inin rəhbərləri ilə görüşürdü.

O vurğulayıb ki, "dəyirmi masa" iştirakçıları dostluq atmosferində peşə təcrübələrini bölüşüb, yeni qarşılıqlı fəaliyyət formalarını araşdırıblar.

M.Qusman əlavə edib: "Bu, olduqca mühümdür və biz bunu çox yüksək qiymətləndiririk. Zənnimcə, iyulda Şuşada keçiriləcək forumda da Rusiyanın bir çox KİV-inin nümayəndələri iştirak edəcəklər. Dialoq davam edir və bu, çox gözəl təcrübədir".

## Səhra çıxışında olan kursantlarla keçirilən praktiki məşğələlər davam edir



Komando Dağ Təlim Mərkəzində Heydər Əliyev adına Hərbi İnstitutun dördüncü kurs kursantlarının iştirak etdiyi "Komando başlanğıc kursu" davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, plana uyğun olaraq, təhlükəsizlik qaydaları çatdırıldıqdan sonra hərbi institutun kursantları sıra və fiziki hazırlıqdan müxtəlif normativləri icra edir, təlim sahəsində silahların döyüşə hazır vəziyyətinə gətirilməsi, eləcə də şərti düşmən hədəflərinin aşkarlanaraq atəşlə məhv edilməsi vərdişlərini təkmilləşdirirlər.

Həmçinin çöl çıxışında kursa cəlb olunan heyətə yaşayış məntəqələrindəki döyüş şəhərciyində müasir döyüş üsulları, dağçılıq və digər fəaliyyətlər real döyüş şəraitinə uyğun məşq etdirilir.

Peşəkar zabit kadrlarının hazırlanması məqsədilə Türkiyə modelinin tətbiq edilməsi ilə keçirilən komando hazırlığı kursunda əsas diqqət kursantların nəzəri biliklərinin və səhra vərdişlərinin təkmilləşdirilməsinə yönəldilib.

## Moskvada "Rusiya-Azərbaycan: media əməkdaşlığının aktual məsələləri" mövzusunda "dəyirmi masa" təşkil olunub





Rusiyanın TASS informasiya agentliyində "Rusiya-Azərbaycan: media əməkdaşlığının aktual məsələləri" mövzusunda "dəyirmi masa" təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycanın və Rusiyanın aparıcı media qurumlarının rəhbərləri və nümayəndələri, Azərbaycanın Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu, TASS agentliyinin Baş direktorunun birinci müavini Mixail Qusman iştirak ediblər.

Tədbirdən əvvəl iştirakçılar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş fotosərgi ilə tanış olublar. TASS agentliyinin müxtəlif bölmələrinə təşkil olunan ekskursiyada Azərbaycan nümayəndə heyətinin üzvlərinə agentliyin tarixi və fəaliyyəti barədə məlumat verilib.

"Dəyirmi masa"nı açan TASS agentliyinin Baş direktoru Sergey Mixaylov xatırladıb ki, Azərbaycan Prezidenti İlham Əliyev ötən ilin fevralında Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində TASS-da Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşüb. "Bu görüşdə Azərbaycanın və Rusiyanın aparıcı KİV-i arasında fikir mübadiləsi, qarşılıqlı fəaliyyət üzrə "dəyirmi masa" təşkil etmək ideyası yarandı. Xüsusilə xoşdur ki, bizim bu tədbir Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin bayram edildiyi günlərdə keçirilir. Heydər Əliyev TASS-ın böyük dostu idi, mətbuat konfranslarının keçirilməsi üçün həmişə bizim agentliyi seçirdi, jurnalistlərlə görüşlərdən fərəhlənirdi. Bu dostluq İlham Heydər oğlu tərəfindən də davam etdirilir və biz bu münasibəti çox yüksək dəyərləndirir, onu bundan sonra da inkişaf etdirməyə ümid bəsləyirik", - deyə TASS-ın Baş direktoru bildirib.

Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev qeyd edib ki, media nümayəndələrinin görüşləri əməkdaşlığın keyfiyyətinin artırılmasına və mövcud münasibətlərin bundan sonra da möhkəmlənməsinə yol açır. O vurğulayıb ki, müasir dünyada media xəbər meydanında yeni trendlərin təsiri altında köklü dəyişikliklərə məruz qalır və belə şəraitdə media qurumları arasında təcrübə mübadiləsi mühüm əhəmiyyət kəsb edir. V.Əliyev TASS agentliyi ilə qarşılıqlı əlaqələr kontekstində AZƏRTAC-ın tarixindən və keçdiyi inkişaf yolundan danışıb.

AZƏRTAC-ın İdarə Heyətinin sədri qeyd edib ki, Azərbaycanda rusdilli mətbuatın geniş şəbəkəsinin olması ölkəmizi Cənubi Qafqazın digər ölkələrindən fərqləndirən xüsusiyyətdir. "Azərbaycanda rus dilinin dəstəklənməsinə və inkişafına ölkəmizin rəhbərinin yetirdiyi diqqət olmadan belə vəziyyət mümkün olmazdı. Azərbaycanın rusdilli nəşrləri informasiyanı savadlı, peşəkarcasına təqdim etmək sayəsində təkcə ölkədə deyil, onun hüdudlarından kənarda da çoxminli auditoriya cəlb edib", - deyə V.Əliyev bildirib.

"Dəyirmi masa"da çıxış edənlər iki ölkənin mediasının yeni reallıqlarda, informasiya mübadiləsinin inkişafında qarşılıqlı əlaqələrinin vacibliyini vurğulayıb, gələcək əməkdaşlıq yolları barədə müzakirələr aparıblar.

## "Şadıq ki, tarixi nəticə əldə edə bildik"

### "Mehriban xanım Əliyevanın təbriki bizim üçün çox dəyərlidir"



Mayın 22-də Milli Gimnastika Arenasında ölkəmizdə bədii gimnastika üzrə keçirilən 39-cu Avropa Çempionatında tarixi uğur qazanan bədii gimnastlarımızın iştirakı ilə mətbuat konfransı keçirilib.

Konfransda bədii gimnastika üzrə yığma komandanın məşqçiləri Siyana Vasileva, Yevgeniya Vilyayeva, Kamil Quliyev, Avropa Çempionatının 3 lent və 2 topla hərəkətlərin icrasında qızıl, çoxnövçülük proqramında bürünc medalçıları - Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan, Darya Sorokina, topla hərəkətlərin icrasında bürünc medalçı Zöhrə Ağamirova iştirak ediblər.

Azərbaycan Gimnastika Federasiyasından aldığımız məlumata görə, yığma komandanın məşqçisi Siyana Vasileva çıxışında qeyd edib ki, gimnastlar həm gənclər, həm də böyüklər arasında təsnifat mərhələsində müxtəlif alətlər üzrə fərqləniblər. "Çempionat bizim üçün uğurlu alındı. Doğma arenada çıxış etmək həmişə çətindir. Mən rəqiblər barədə düşünmürəm. Sadəcə, öz işimi görürəm. Həyəcan var idi və biz maksimum nəticə göstərmək istəyirdik. Şadıq ki, tarixi nəticə əldə edə bildik. Hazırlıqlarımızı davam etdirəcəyik, dayanmaq olmaz. Qarşıda bizi dünya kuboku yarışları gözləyir. Ən böyük hədəfimiz isə avqustda İspaniyanın Valensiya şəhərində keçiriləcək dünya çempionatında uğurla çıxış etməkdir. Çünki çempionat "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyır. Ümid edirəm ki, komandamız olimpiadaya lisenziya qazana biləcək". Məşqçi-xoreoqraf Kamil Quliyev komandanın çıxışı hazırlanan zaman mürəkkəbliklə yanaşı, artistizmə də böyük önəm verildiyini xatırladaraq deyib: "Nəzər salsaq görərik ki, komandamız çıxışı zamanı artistizmə görə yüksək xal alıb. Gimnastlarımızın builki çıxışı ötənilki proqramdan çətinliyi ilə fərqlənir. Bunun nəticəsidir ki, komandamız Avropa çempionu oldu və çoxnövçülükdə bürünc medal qazandı. Ümid edirəm ki, qızlarımız dünya çempionatında daha yaxşı çıxış edəcəklər".

Zöhrə Ağamirovanın çıxışını şərh edən məşqçi Yevgeniya Vilyayeva əlavə edib: "Zöhrədən çox razıyam, o, çox yaxşı çıxış etdi. Altı ildir ki, biz bu uğura doğru gedirdik. Etiraf edim ki, topla nəticələri ekranda görəndə sevinc göz yaşlarımı saxlaya bilmədim".

Qitə çempionatında topla yarışda bürünc mükafata sahib olan Zöhrə Ağamirova məqsədinin proqramlarını səhvsiz yerinə yetirmək olduğunu deyib: "Avropa Çempionatına ciddi hazırlaşmışdım. Əlimdən gələni etməyə çalışdım. Şadam ki, medal qazana bildim. Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevaya məni və qrup hərəkətləri komandasını təbrik etməsinə görə minnətdarlığımı bildirirəm. Onun bizi təbrik etməsi komandamız üçün çox dəyərlidir".

Qrup komandasının üzvü Zeynəb Hümmətova qeyd edib ki, gimnastlar həmişə bir-birinə dəstək olurlar: "Birimizin kefi yaxşı olmayanda, bu, digərinə də təsir edir. Bunun üçün həmişə yaxşı olmağa çalışırıq və bu, bizim çıxışımıza da təsir edir".

Komandanın üzvü Güllü Ağalarzadə bildirib ki, həmişə əhvali-ruhiyyəmizi yüksək tutmağa çalışırıq. "Komandada hər kəs bir-birini yaxşı tanıyır. Avropa Çempionatı zamanı əlimizdən gələni etməyə çalışdıq. Bundan sonra da daha yaxşısını etməyə çalışacağıq. Məsuliyyətimiz daha da artıb".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## Paytaxtın Nizami rayonunda "Bizim həyət" layihəsi çərçivəsində yeni həyət istifadəyə verildi

Mayın 23-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində yenilənən daha bir həyət sakinlərin istifadəsinə verilib.









AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Bakı şəhəri, Nizami rayonu, Məmmədəli Şərifli küçəsi, 84B və 84V ünvanlarında 600 nəfər sakinin yaşadığı çoxmərtəbəli binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi ölkə ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü minifutbol stadionu, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda ərazidə 5 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü yenilənib, elektrik sistemi yenidən qurulub.



Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 1300 ədəd müxtəlif cinsli ağaclar, 4500 kol əkilib, 4000 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətraflarında 2000 ədəd daşsarmaşığı və digər sarmaşan bitkilər əkməklə hava çirklənməsinə qarşı "yaşıl səddlər" (green barriers) yaradılıb.

Həyətin sakini, Əməkdar müəllim Gülzar Kələntərli həyətin abadlaşmadan öncə baxımsız vəziyyətdə olduğunu deyib. "İndi isə həyətimizdə istirahətimiz üçün, vaxtımızı səmərəli keçirməyimiz üçün hər cür şərait yaradılıb. Buna görə həyətimizin bütün sakinləri adından Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevaya minnətdarlığımı bildirirəm", - deyə G.Kələntərli qeyd edib.

Həyətin digər sakini Sima Yusifova baxımsız bir həyətin əsl cənnət guşəsinə çevrildiyini deyib: "Bu gün sevincimizin həddi-hüdudu yoxdur. Məhəlləmizi cənnət guşəsinə çevirdiklərinə görə əməyi keçən hər kəsə təşəkkür edirəm".

"Bizim həyət" layihəsi çərçivəsində ümumi yaşayış sahələrinin həyətlərinin abadlaşdırılmasına dair məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

İŞİMİZ, GÜZƏRANIMIZ



Azərbaycan Prezidenti İlham Əliyevin Litva Respublikasına rəsmi səfəri ölkələrimiz arasında əməkdaşlığın daha da inkişafında yeni səhifə açdı. Aparılan geniş fikir mübadiləsi əsnasında bir çox önəmli məsələ müzakirə edildi, iki ölkənin strateji tərəfdaşlığı bir daha təsdiqləndi. Azərbaycan və Litva prezidentlərinin iştirakı ilə imzalanan sənədlərin əməkdaşlıq münasibətlərinə yeni müsbət dinamika əlavə edəcəyinə inam ifadə olundu. Keçirilən biznes-forum isə biznes dairələri arasında birbaşa təmasların qurulmasında vacib rol oynayacağı ilə əhəmiyyətlidir.

# "Əsl vaxtdır, yubanmaq olmaz"

## Azərbaycan-Litva iqtisadi münasibətlərinin dərinləşməsi üçün əlverişli şərait yetişib

Litva artıq 17 ildir beynəlxalq inkişafa dair layihələrdə Azərbaycanla birlikdə iştirak edir. Ölkəmiz Litvanın Avropa İttifaqının (Aİ) Tvininq proqramı çərçivəsində tərəfdaşıdır. Azərbaycan həmçinin Şərq Tərəfdaşlığı proqramı çərçivəsində həyata keçirilən layihələrin sayına görə də Litvanın əsas tərəfdaşı olduğunu göstərib. Litva Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq əlaqələrinin inkişafının tərəfdarı kimi çıxış edir, ölkəmizin Aİ ilə enerji sahəsində əməkdaşlığını müsbət qiymətləndirir.

Keçən il Litvanın Prezidenti Gitanas Nauseda ölkəmizdə rəsmi səfərdə olmuşdu. Bu ilin əvvəlində isə Azərbaycan və Litva prezidentləri Davosda görüşmüşlər. Bu günlərdə dövlətimizin başçısının Litvaya səfəri də təsdiqləyir ki, ölkələrimiz arasında fəal siyasi dialoq aparılır və bu, özünü konkret nəticələrlə göstərir. Siyasi müstəvidə əldə olunmuş razılaşmalar digər sahələrə də müsbət təsir edir. O cümlədən iqtisadi sahələrdə əməkdaşlıq genişlənir və möhkəmlənir. Mayın 22-də Vilnüsdə imzalanan Azərbaycan-Litva sənədləri də məhz bunu sübut edir. Belə ki, həmin gün "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Litva Respublikasının Ətraf Mühit Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş", "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Litva Respublikasının Sosial Təhlükəsizlik və Əmək Nazirliyi arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Litva Respublikasının Baş Prokurorluğu arasında 2024-2025-ci illər üçün Əməkdaşlıq Proqramı" imzalanmışdır.

Səfər zamanı keçirilmiş tədbirlər sırasında dövlətimizin başçısının Litva Prezidenti ilə geniş tərkibdə görüşü xüsusi əhəmiyyət kəsb edir. Görüşdə Gitanas Nauseda Azərbaycanın xüsusilə son on ildə əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirmişdir. İkitərəfli məsələlər müzakirə olunmuş, iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsinin, ticarət dövriyyəsinin daha da artırılmasının vacibliyi vurğulanmışdır. Bu xüsusda informasiya texnologiyaları, kibertəhlükəsizlik, bərpaolunan enerji, investisiyalar, nəqliyyat kimi sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilmişdir. Nəqliyyat məsələləri, o cümlədən Xəzər dənizi ilə Baltik dənizinin birləşdirilməsinə dair layihələr barəsində müzakirələr, ekoloji təhlükələr haqqında ilkin xəbərdarlıq sisteminin qurulması və tullantıların idarə olunması sahəsində Litva təcrübəsinin Azərbaycanla bölüşdürülməsi haqqında fikirlər xüsusi önəm kəsb edir.

Azərbaycan Prezidenti İlham Əliyevin və Litva Prezidenti Gitanas Nausedanın mətbuata bəyanatları da iki ölkə arasında xoş münasibətlərin və işgüzar əlaqələrin davamlı olduğunu göstərir. Dövlətimizin başçısı bəyanatında bildirmişdir ki, bizim Litva ilə ikitərəfli əməkdaşlıq çərçivəsində eyni zamanda Avropa İttifaqı-Azərbaycan əlaqələri də önəmli rol oynayır. "Prezident Nauseda Azərbaycana səfər edəndən iki ay sonra Avropa Komissiyası ilə Azərbaycan arasında Bakıda enerji sahəsində strateji tərəfdaşlıq üzrə Anlaşma Memorandumu imzalanmışdır və bu memorandum uğurla icra edilir. Azərbaycan təbii qazının Avropa bazarlarına nəql edilməsi ilə bağlı çox ciddi addımlar atılır. Nəql edilən, yəni ixrac edilən qazın həcmi ildən-ilə artır və artacaq. Biz bu gün eyni zamanda Litvada və Azərbaycanda bərpaolunan enerji növlərinin yaradılması ilə də bağlı fikir mübadiləsi apardıq. Biz gördük ki, bu istiqamətdə də demək olar, paralel şəkildə gedirik. Həm Litvada, həm Azərbaycanda bu sahəyə çox böyük diqqət göstərilir və hesab edirəm ki, yaxın gələcəkdə bu sahədə də ikitərəfli əməkdaşlıq mümkün olacaq. Təbii ki, ölkələrimizi birləşdirən və ümumiyyətlə, qitələri birləşdirən Avrasiya qitəsində daha da rahat nəqliyyat-kommunikasiya imkanlarını yaratmaq üçün ölkələrimizin payına böyük vəzifələr düşür. Biz razılaşdıq ki, müvafiq qurumlar bu məsələ ilə bağlı ciddi məşğul olacaqlar. Çünki dünyada hökm sürən yeni geosiyasi reallıq bunu diktə edir".

Məlumdur ki, Azərbaycan ərazisindən keçən tranzit yüklərin həcmi ildən-ilə artmaqdadır. Buna müasir infrastrukturumuz imkan yaradır. Xəzər dənizini, Cənubi Qafqazı Baltik dənizi ölkələri ilə birləşdirən nəqliyyat marşrutları da bəllidir. İndi qarşıda birgə səylərlə həmin birləşmə layihələrini həyata keçirərək bu sahədə də uğurlu əməkdaşlığa nail olmaq məsələsi dayanır.

Azərbaycan-Litva strateji tərəfdaşlığına növbəti güclü təkanı həm də keçirilmiş biznes-forum verəcək. Bu tədbir bir daha göstərmişdir ki, Litva qarşılıqlı faydalı imkanların axtarılmasında maraqlıdır. Prezident Gitanas Nauseda bu barədə demişdir: "Biz Azərbaycanı nəhəng enerji potensialına malik və şaxələndirməyə can atan inkişaf edən iqtisadi güc kimi görürük. Azərbaycan iqtisadiyyatının informasiya texnologiyaları, logistika, istehsal, qabaqcıl ərzaq sənayesi, bərpaolunan enerji kimi müxtəlif sahələri litvalı iş adamlarını cəlb edir. Biz bu qədər məsələləri müzakirə edə bilərik. Keçmişdə Litva özünün yeni şəraitə asanlıqla adaptasiya olmaq və ondan öz xeyrinə istifadə etmək bacarığını sübuta yetirib. Biz güclü sənaye ənənəsinə və intellektual işçi qüvvəsinə arxalanırıq. Bizim rəqəmsal infrastrukturumuz sürətli və əlçatandır, bütün Avropa İttifaqında ən yaxşılarından biridir.

2020-ci ildə qlobal tənəzzül zamanı Litva ümumi daxili məhsulun mənfi dəyişməsinə imkan vermədi. Bu uğurlu antitsiklik iqtisadi siyasət təcrübəsi yeni qlobal təlatümlərin öhdəsindən gəlmə prosesində istifadə edəcəyimiz mühüm təcrübə olmuşdur. Hazırda biz "yaşıl texnologiyalar"ın sənaye istehsalatını dəstəkləmək üçün Avropa İttifaqının planlarını nəzərdən keçiririk. Yeni imkanlar inqilabi və sıfır tullantılı istehsalatla təmin olunacaq. Bu, Litva iqtisadiyyatına fayda verəcək. Xalis sıfır tullantılı iqtisadiyyatların inkişafı həmçinin Litva və Azərbaycan iqtisadiyyatlarını bir-birinə daha da yaxınlaşdıra bilər".

Bu forum göstərdi ki, biznes icmaları üçün qarşılıqlı surətdə faydalı və məhsuldar əməkdaşlığı ehtiva edən uzun perspektivli plan üçün vaxt yetişib. Əməkdaşlıq üçün potensial sahələr də genişdir.

Dövlətimizin başçısı bunu vurğulayaraq demişdir: "Biz bərpaolunan enerji sahəsinə yatırımlar baxımından eyni istiqamətdə gedirik. Hər iki ölkədə - Baltik və Xəzər dənizlərində çox böyük külək enerjisi potensialı var. Hər iki ölkə bu məsələni gündəliyimizə daxil edib… Düşünürəm ki, işgüzar dairələrin nəzərə alacağı digər mühüm sahə logistika, şəbəkələr və daşımalarda olan böyük potensiala aiddir. Biz daşımalar sektorunu yalnız tranzit gəlirləri baxımından yox, o cümlədən kiçik və orta müəssisələr üçün marşrut boyunca istehsal qurmaq, biznes təmasları yaratmaq, xidmət göstərmək fürsəti kimi görürük. Bu gün Litva və Azərbaycan öz regionlarında mühüm daşımalar qovşağıdır. Beləliklə, biz Xəzər və Baltik regionları arasında şəbəkə qurmalıyıq və bu, mümkündür".

Hər iki tərəfin fikrincə, indi bu fürsətləri dəyərləndirmək üçün əsl münasib vaxtdır və yubanmaq lazım deyil. Çünki imkanlar, xüsusən də hazırkı geosiyasi vəziyyətdə əlavə dəyər gətirəcək, daha böyük inkişafa təkan verəcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# "Məşğulluğa Dəstək Layihəsi"nə 8,5 minədək şəxs cəlb edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək Layihəsi"nə artıq 8,5 minədək şəxs cəlb olunub.**



Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Dünya Bankının Azərbaycandakı ölkə meneceri Sara Mayklın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə bildirilib.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev layihənin ölkəmizdə özünüməşğulluq proqramının genişləndirilməsində önəmini diqqətə çatdırıb. Qeyd olunub ki, layihənin hədəfi 22 min işsiz şəxsin özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə təsərrüfatının yaradılmasıdır. Həssas qruplara aid şəxslərin (əlilliyi olan şəxslər, şəhid ailəsi üzvləri, ünvanlı dövlət sosial yardımı alanlar və s.) kiçik biznesə yiyələnmələrinə imkan yaradan layihə həmçinin məşğulluq xidmətlərinin və proqramlarının təkmilləşdirilməsinə dəstək məqsədi daşıyır.

Görüşdə Sara Maykl, habelə "Məşğulluğa Dəstək Layihəsi" üzrə qiymətləndirmə missiyasının üzvləri - Dünya Bankının sosial müdafiə məsələləri üzrə baş mütəxəssisi Mirey Ovadiya, layihənin baş iqtisadçısı Sirma Demir Şeker və missiyanın digər üzvləri ilə layihənin komponentləri üzrə görülən işlər müzakirə olunub.

# Sosial ödənişlərdə ciddi artım dinamikası var

**Prezident İlham Əliyevin tapşırıqları əsasında həyata keçirilən köklü sosial islahatlar nəticəsində 2018-2023-cü illərdə ölkəmizdə sosial ödənişlərdə ciddi artım dinamikasına nail olunub.**

Bu dövrdə minimum aylıq əməkhaqqı 2,7 dəfə artırılaraq 130 manatdan 345, minimum aylıq pensiya 2,5 dəfə artırılaraq 110 manatdan 280 manata çatdırılıb. Orta aylıq əməkhaqqında 65,3 faiz, median əməkhaqqında 2,1, əməkhaqqı fondunda 2,5, orta aylıq pensiyada 2 dəfə, sosial müavinət və təqaüdlər üzrə ayrılan illik vəsaitdə 5 dəfəyədək, ünvanlı sosial yardımın orta aylıq məbləğində 2,9 dəfə artım baş verib.

2018-2023-cü illərdə 4 milyondan çox vətəndaşı əhatə edən 4 sosial islahat paketi icra olunmaqla, bu islahatlar üzrə əlavə olaraq illik 6,8 milyard manat vəsait yönəldilib.

# Qeyri-neft-qaz sektorunda ÜDM istehsalı 3,1 faiz artmışdır

## Əhalinin ümumi gəlirlərinin artımı isə 15 faizə çatmışdır

**Dövlət Statistika Komitəsi (DSK) cari ilin yanvar-aprel ayları üzrə makroiqtisadi göstəriciləri açıqlayıb. Bildirilir ki, ötən 4 ayda ölkə üzrə 40 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövründəkindən 0,1 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur. Əlavə dəyər istehsalı iqtisadiyyatın qeyri-neft-qaz sektorunda 3,1 faiz artmış, neft-qaz sektorunda 2,9 faiz azalmışdır.**

DSK həmçinin açıqlayıb ki, ilin ikinci rübünün ilk ayında ÜDM-nin 46,8 faizi sənaye, 8,9 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 5,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,6 faizi tikinti, 2,8 faizi kənd və meşə təsərrüfatları, eləcə də balıqçılıq, 2,1 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,5 faizi informasiya və rabitə, 17,6 faizi digər sahələrdə istehsal olunmuşdur. Məhsula və idxala xalis vergilər ÜDM-nin 10,2 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə isə 3945,5 manat əlavə dəyər düşmüşdür.

Dörd ay ərzində ölkə üzrə 24,3 milyard manatlıq sənaye məhsulu istehsal edilmişdir. Ümumilikdə bu dövr məhsul istehsalı sənayenin qeyri-neft-qaz sektorunda 6,1 faiz artmışdır. Sənaye məhsullarının 71,1 faizi mədənçıxarma, 23,6 faizi emal, 4,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir. Mədənçıxarma sektoru üzrə əmtəəlik neft hasilatı 8 faiz azalmış, əmtəəlik qaz hasilatı 1,9 faiz artmışdır.

Emal sektorunda kompüter, elektron və optik məhsulların istehsalı 2,6 dəfə, ağacın emalı və ağacdan məmulatların istehsalı 90,6, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 69,2, poliqrafiya məhsullarının istehsalı 44,2, toxuculuq sənayesi məhsulları istehsalı 40,5, kağız və karton istehsalı 40,2, maşın və avadanlıqların istehsalı 23,5, tikinti materiallarının istehsalı 20,5, içkilərin istehsalı 18,1, neft məhsulları istehsalı 18,1, qida məhsulları istehsalı 12,2, rezin və plastik kütlə məmulatlarının istehsalı 12,2, tütün məmulatları istehsalı 9,8, mebel istehsalı 7, dəri, dəri məmulatlarının, ayaqqabıların istehsalı 3,5, elektrik avadanlıqlarının istehsalı 1,5, kimya sənayesi məhsullarının istehsalı 0,9 faiz artmış, əczaçılıq məhsulları istehsalı 4,4, hazır metal məmulatlarının istehsalı 6,2, geyim istehsalı 23,2, digər nəqliyyat vasitələrinin istehsalı 27,3, metallurgiya sənayesi məhsullarının istehsalı 41,4, maşın və avadanlıqların quraşdırılması, təmiri işləri 43,3 faiz azalmışdır.

Qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında artım qeydə alınmışdır - müvafiq olaraq 5,9 və 19,9 faiz.

Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-aprel aylarında əsas kapitala 4 milyard 580 milyon manat vəsait yönəldilmişdir ki, bu da 2022-ci ilin eyni dövründəkindən 21,1 faiz çoxdur. İstifadə olunmuş ümumi vəsaitin 57,2 faizi məhsul istehsalı və 37,2 faizi xidmət obyektlərinin, 5,6 faizi yaşayış evlərinin tikintisinə sərf edilmişdir. 73 faizi daxili sərmayələr olan vəsaitin 71 faizi bilavasitə tikinti-quraşdırma işlərində xərclənmişdir. Bu dövr neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 25,8, qeyri-neft-qaz sektoruna sərf edilən vəsait 18,5 faiz artmışdır.

Sosial sahəyə, daha dəqiq desək, muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqına gəldikdə, Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkə üzrə cari ilin yanvar-mart ayları ərzində bu göstərici 2022-ci ilin eyni dövrünə nisbətən 11,4 faiz artaraq 901,3 manata çatmışdır. Əhalinin ümumi gəlirləri isə ilin əvvəlindən ötən 4 ay ərzində 15 faiz artaraq 23,5 milyard manat olmuşdur.

Hesabat dövrü ərzində pərakəndə ticarət şəbəkəsindən əhaliyə 16,4 milyard manatlıqdan çox məhsul satılmış, 3,5 milyard manatlıq ödənişli xidmətlər göstərilmişdir. 2022-ci ilin 4 ayı ilə müqayisədə əmtəə dövriyyəsi 2,9, əhaliyə göstərilmiş xidmətlərdən əldə olunan gəlir 11,9 faiz artmışdır.

İlin 4 ayının nəticələrinə əsasən, ölkənin informasiya və rabitə müəssisələri tərəfindən ümumilikdə 920,8 milyon manatlıq müxtəlif xidmətlər göstərilmiş və həmin xidmətlərin 77 faizindən əhali istifadə etmişdir. Yanvar-aprel ayları ərzində bu xidmətlərin həcmi 12,1 faiz artmışdır. Əldə edilmiş gəlirlərin 82,8 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. Nəqliyyat sektorunda da göstəricilər müsbətdir: ötən 4 ay ölkə üzrə 71,2 milyon ton yük, 578,6 milyon nəfərdən çox sərnişin daşınmışdır ki, bu da 2022-ci ilin eyni dövrünə nisbətən yük daşınması üzrə 5,9, sərnişin daşınması üzrə 19,2 faiz çoxdur.

Sonda istehlak qiymətləri barədə: cari ilin 4 ayında 2022-ci ilin eyni dövrü ilə müqayisədə ümumilikdə qiymətlər 13,5, o cümlədən ərzaq məhsulları, içki və tütün məmulatları 16,6, qeyri-ərzaq malları 11,8, əhaliyə göstərilən ödənişli qiymətlər 10,7 faiz bahalaşmışdır.



***"Azərbaycan"***

# Azərbaycan Türkmənistana pambıq lifinin ixracına başlayıb

**Azərbaycanda rəqabətqabiliyyətli qeyri-neft məhsullarının istehsalı və ixracının, ənənəvi və yeni bazarlara çıxış imkanlarının artırılması sahəsində məqsədyönlü işlər görülür, emal sənayesi genişləndirilir və yeni emal müəssisələri qurulur.**



Mingəçevir Sənaye Parkında Özbəkistan və Türkmənistanla birlikdə tekstil sənayesinin inkişafında, həmçinin yeni istehsal sahələrinin yaradılması istiqamətində işlər görülür. Ümumilikdə, pambıqçılığın inkişafı sahəsində Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı yeni mərhələyə qədəm qoyur. Belə ki, Özbəkistanla yaradılmış əməkdaşlıq əlaqələri çərçivəsində ölkəmizdə pambıqçılıq klasterlərinin yaradılması işlərinə başlanılıb.

Azərbaycanda fəaliyyət göstərən pambıq istehsalçıları - "MKT İK", "Azərpambıq" və "P-Agro" şirkətləri Türkmənistana pambıq lifinin ixracına başlayıb. İlkin mərhələdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanından gəmilər vasitəsilə Türkmənistana 30 min ton həcmdə pambıq lifi göndəriləcək. Gələcəkdə Türkmənistana pambıq lifi ilə yanaşı, pambıq emalından alınan digər məhsulların da ixracı nəzərdə tutulur ki, bu da Azərbaycan və Türkmənistan arasında iqtisadi əməkdaşlığın, o cümlədən logistika və ticarət əlaqələrinin inkişafına töhfə verəcək.

Azərbaycandan indiyədək Türkiyə, Rusiya, İran, Belarusiya, Banqladeş, İsveçrə və s. ölkələrə pambıq lifi ixrac edilib.

# Xarici mütəxəssislərin iştirakı ilə toxumluq sahələrin monitorinqi keçirilib

**Dövlət Toxum Fondunun dəvəti ilə Rusiyanın Krasnodar vilayətindən olan aqronom və mütəxəssislər Azərbaycanda səfərdə olub.**

Nümayəndə heyəti Xaçmaz və Qobustan rayonlarında əkin sahələrinə baxış keçirib. Məlumat verilib ki, son illər yerli fermer və toxumçular tərəfindən yüksək məhsuldarlıqla nəticələnən Qrom, Tanya, Alekseiç elit buğda sortları, o cümlədən fondun təşəbbüsü ilə dövlət reyestrinə qeydiyyata alınmış Qomer yumşaq buğda sortundan bu il də yüksək məhsuldarlıq gözlənilir.

Rusiyalı mütəxəssislər fermerlərlə görüşündə bildiriblər ki, əkin sahələrindən səmərəli istifadə və yüksək məhsul alınması üçün ilk növbədə torpaq becərmə üsullarına diqqət yetirmək lazımdır. Ümumiyyətlə isə, taxılçılıqda yüksək məhsulun alınması üçün kompleks tədbirlər vaxtlı-vaxtında həyata keçirilməlidir. Belə ki, torpaq düzgün hazırlanmalı, yüksək reproduksiyalı toxumdan istifadə olunmaqla səpin vaxtında aparılmalı, səpin normasına düzgün əməl olunmalıdır.

Qeyd edək ki, Dövlət Toxum Fondunun aqronomu və mütəxəssisləri tərəfindən toxumla təchiz edilən toxumluq sahələrə baxış keçirilir.

  

# Mədəniyyət

  

● İstiqlal tariximizdən

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Bu demokratik respublika ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdı. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın müstəqillik əzmini nümayiş etdirdi, siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi, Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni bir dövlət və cəmiyyətin nümunəsi idi.



## Cümhuriyyət ideyalarını təbliğ edən milli mətbuat

Xalqımızın milli istiqlalına doğru gətirən yol hələ XIX əsrin birinci yarısından cəmiyyətdə tədricən geniş vüsət alan maarifçilik hərəkatı ilə başlamışdı. O dövrdən etibarən maarifçilik ideyalarının yayılması ilə Azərbaycanda baş vermiş köklü ictimai-siyasi və mədəni dəyişikliklər yeni tipli teatrın, məktəbin və mətbuatın yaranmasını təmin etməklə milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırlamışdı. Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundzadə ilə başlayan bu yolu yeni tarixi mərhələdə Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə və digər görkəmli şəxsiyyətlər davam etdirərək milli məfkurənin təşəkkülü və inkişafında mühüm rol oynamışlar. Həmin dövr ziddiyyətlərlə dolu idi, qanla, fəlakətlə yoğrulduğundan ziyalılar ehtiyac içərisində yaşayır, xalqın ən yaxşı övladları çətinliklərə məruz qalırdılar. Cəmiyyətdə xalqın mövqeyində durmaq fədakarlıq tələb edirdi. Xalqın ləyaqəti, istedadı, mədəniyyəti, təhsili boğulur, pərdələnir, onun görkəmli oğullarının fəaliyyətinə kölgə salınırdı. Bütün bunlara baxmayaraq, 1919-cu ildə Azərbaycan parlamenti Bakı Dövlət Universitetinin təşkili haqqında qanun qəbul etdi və bununla milli təhsil ocağının əsası qoyuldu. Azərbaycanda ilk muzey olan "İstiqlal" muzeyi təşkil olundu. Eyni zamanda Bakıda etnoqrafiya muzeyinin yaradılması haqqında Maarif Nazirliyi qarşısında məsələ qaldırıldı.

Azərbaycan Xalq Cümhuriyyəti milli mətbuat ənənələrimizin inkişafında da böyük rol oynadı. 1918-1920-ci illərdə Bakıda, Gəncədə və respublikanın digər şəhərlərində onlarca qəzet və jurnal nəşr olunurdu ki, onlardan biri də Cümhuriyyətimizin yadigarlarından olan "Azərbaycan" qəzeti idi.

1918-ci ilin oktyabrında Bakıda Hacıbəyli qardaşları tərəfindən teatr truppası yaradıldı. Ümumiyyətlə, istiqlal dövrü teatrın inkişafında əsaslı keyfiyyət dəyişiklikləri, dövlətin teatr sənətinə fəal yardımı və bu sahənin cəmiyyətin həyatında rolunun artması ilə əlamətdardır. Məhz Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğu, gördüyü işlərlə türk-müsəlman maarifçiliyi ilk dəfə dövlət səviyyəsinə qalxdı. Avropanın ən nüfuzlu təhsil ocaqlarının məzunu olan Cümhuriyyət qurucuları təhsilin, maarifin qədrini, xalqın mədəni inkişafındakı rolunu bilirdilər. Azərbaycan Xalq Cümhuriyyətinin ən əhəmiyyətli hökumət təsisatlarından biri Xalq Maarif Nazirliyi idi. Burada Azərbaycanın ictimai fikir tarixində böyük rolu olmuş Nəsib bəy Yusifbəyli, Həmid bəy Şahtaxtinski, Rəşid xan Qaplanov, Nurməmməd bəy Şahsuvarov, Fətulla bəy Rizabəyov, Azad bəy Əmirov, Eynül xanım Yusifbəyli kimi şəxsiyyətlər çalışırdılar. Xarici müdaxiləyə, daşnak Ermənistanla aparılan müharibəyə, ölkədaxili siyasi qüvvələr arasındakı ziddiyyətlərə, eləcə də iqtisadi böhrana, maliyyə çatışmazlığına və başqa amillərə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti xalq təhsilinin inkişafı üçün bütün imkanlardan istifadə etmişdi.

### Azərbaycan mətbuatı tarixində yeni inkişaf mərhələsi

Azərbaycan mətbuatı tarixində 1918-1920-ci illər bütün əvvəlki dövrlərə nisbətən ən yüksək inkişaf mərhələsidir. Bu dövrün mətbuatı Azərbaycan həyatının canlı salnaməsinə çevrildi. İki il içərisində ölkədə 100-ə yaxın adda qəzet və jurnal çıxdı. Cümhuriyyət dövrü mətbuatının səciyyəvi xüsusiyyəti hər şeydən əvvəl onun ideya-məzmun zənginliyində idi.

Cümhuriyyət hökuməti dövründə Bakı, Gəncə, Şuşa, Tiflis, İrəvan və digər mədəni-inzibati mərkəzlərdə çıxan mətbuat nümunələri təkcə Azərbaycan-türk dilində deyil, rus, gürcü, polyak, fars, alman və digər dillərdə də nəşr edilirdi. Bu dövrdə "İstiqlal" (1918-1920), "Azərbaycan" (1918-1920), "Övraqi-nəfisə" (1919), "Müsəlmanlıq" (1917-1919), "Qurtuluş" (1920), "Mədəniyyət" (1920), "Gənclər yurdu" (1918), "Şeypur" (1918-1919), "Zənbur" (1919) kimi milli istiqlal ideyalı mətbuat orqanları fəaliyyət göstərirdi.

Cümhuriyyətə gələn yolda Azərbaycan mətbuatının inkişafında "Molla Nəsrəddin"in təbliğ etdiyi dərin demokratizm və azadlıq ideyaları imperializmin müstəmləkəçilik siyasətinə, geriliyə, mövhumata, cəhalətə, xurafata qarşı mübarizədə, maarif və mədəniyyətin tərəqqisində mühüm rol oynadı. Beləliklə, XIX əsrin sonları -XX əsrin əvvəllərinin bütün bu dövri mətbuat nümunələri Azərbaycanda milli-ictimai fikrin, azadlıq ideyalarının oyanışında müstəsna əhəmiyyət kəsb etdi. Azərbaycan və ümumtürk milli məfkurəsinin formalaşmasında və inkişafında mühüm rol oynayan Həsən bəy Zərdabi, Əlimərdan bəy Topçubaşov, İsmayıl bəy Qaspıralı və digərləri milli mətbuatın tərəqqisinə də güclü təsir göstərdilər.

"Açıq söz"ün səhifələrində XX əsr Azərbaycan milli fikrinin ən görkəmli xadimləri - Seyid Hüseyn, Nəriman Nərimanov, Üzeyir bəy Hacıbəyli, Ömər Faiq Nemanzadə, Həsən bəy Ağayev, Hüseyn Cavid, Əhməd Cavad, Abdulla Şaiq, Əliabbas Müznib, gənc şair və dramaturqlar - Cəfər Cabbarlı və Mirzəbala Məmmədzadə çıxış edirdilər. "Açıq söz" Cümhuriyyət dövrü ərəfəsində Azərbaycan həyatının mühüm ictimai-siyasi hadisələrinin canlı salnaməsi idi. Milli-siyasi birliyə çağırış Cümhuriyyətin yaranması ərəfəsində bütün Azərbaycan milli mətbuatının başlıca şüarına çevrildi. 1918-ci il martın 31-də Bakıda, habelə Azərbaycanın müxtəlif bölgələrində erməni-daşnak və rus-bolşevik qaragüruhçuları tərəfindən türk-müsəlman əhaliyə qarşı törədilən kütləvi soyqırımları bu dövr milli mətbuatın başlıca mövzusu idi. Milli mətbuatın şüurları oyatmaq fəaliyyəti, apardığı maarifçilik təbliğatı böyük gücə malik idi.

### Ədəbi mühit

Cümhuriyyət dövrünün öz böyük poeziyası, nəsri, dramaturgiyası və publisistikası olmuşdur. Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Üzeyir və Ceyhun Hacıbəyli qardaşları, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məhəmməd Hadi, Əhməd Cavad, Abdulla Şaiq, Salman Mümtaz, Əliabbas Müznib ədəbi mühitdə yazdıqları əsərləri ilə mühüm rol oynamışlar. "Cümhuriyyət şairi" Əhməd Cavadın, Əli Yusif, Ümmügülsüm, Əmin Abid Mütəllibzadə, Cəfər Cabbarlı, Bədri Seyidzadə, Davud Ağamirzadə, Əli Şövqi Şeyxzamanov kimi gənclərin şeirləri el arasında sürətlə yayılır, marşa, himnə çevrilirdi. Bir sözlə, yazarlar Cümhuriyyətin verdiyi söz azadlığından bəhrələnirdilər. Nəcəf bəy Vəzirov, Süleyman Sani Axundov, Yusif Vəzir Çəmənzəminli, Seyid Hüseyn, Abdulla bəy Divanbəyoğlu və başqaları pedaqoji işdə, publisistika sahəsində, dövlət işlərində çalışır, siyasi həyata qoşulurdular. Firidun bəy Köçərlini, Yusif Vəzir Çəmənzəminlini, Seyid Hüseyni və Salman Mümtazı daha çox ədəbiyyat tarixi məsələləri düşündürürdü. Belə ki, 1918-1920-ci illərdə Azərbaycanda ideoloji mübarizənin bütün ağırlığı dövri mətbuatın kəsərli silahı olan publisistikanın üzərinə düşürdü. Azərbaycan publisistikası ideya-mövzu cəhətdən çox rəngarəng və zəngin idi. Milli publisistikanın əsasında xalqın gələcəyi ilə bağlı böyük siyasi-ictimai konsepsiya, inkişafa yönələn işıqlı bir yol dayanırdı. Bu, XX əsrin əvvəllərində Azərbaycanda intişar tapmış "türkləşmək, islamlaşmaq, müasirləşmək" ideyalarında təcəssüm olunurdu.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

● Unudulmazlar

## Azərbaycanın tanınmış teatr rəssamlarından biri

Azərbaycan mədəniyyətinin, incəsənətinin inkişafında xidmətlər göstərmiş Nüsrət Fətullayev 1913-cü il mayın 29-da Lənkəranda Mirzə Möhsün Fətullazadənin (1885-1936) ailəsində dünyaya göz açıb. Ailə 1920-ci ildə Lənkərandan Bakıya köçüb. Digər övladları kimi Nüsrət Fətullayev də bu şəhərdə boya-başa çatıb.



### Uşaqlıq illərində sevdiyi sənət

1930-1934-cü illərdə Nüsrət Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbində təhsil alıb. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında rejissor Yusif Yulduzun 1934-cü ildə quruluş verdiyi Aleksandr Korneyçukun "31-43" ("Eskadranın məhvi") dramının tamaşası ilk işi olub. Tamaşanın bədii tərtibatına görə Sidqi Ruhulla Nüsrət Fətullayev haqqında deyib: "O, bu işi yüksək professionallıqla qurmuşdur".

Tənqidçi-alim Vaqif Yusifli Azərbaycan teatr rəssamlığı yaradıcılarından biri kimi tanınmış Nüsrət Fətullayevin sənətə gəlişi barədə yazıb: "Rəssamlığa uşaqlıqdan həvəsi varmış. Ancaq atasından gizli saxlayırmış bu meylini. Nəhayət, anasına bu barədə söhbət açır, Kübra xanım da ərinə deyir. Teatrda istedadlı rejissor Yusif Yulduzun "Eskadranın məhvi" tamaşası gedirmiş, bu tamaşanın rəssamı N.Fətullayev idi. Kişini bir təhər teatra aparırlar. Əslində o, etiraz etməmişdi, demişdi ki, əgər Nüsrətin bu sənətə meyli varsa, getsin, amma yarımçığından olmasın. Teatrdan qayıdırlar, kişi içəri keçir. Qapı ağzında dayanan qardaşlar intizarla onun qərarını gözləyirmişlər. Nəhayət, Kübra xanım onları içəri çağırır. Ağa (qardaşlar onu belə çağırırmış) kürsüdə oturmuşdu. İçəri girəndə başını razılıqla tərpədir və bu, nəinki Nüsrətin, o biri qardaşların da taleyini həll edir"...

Nüsrət Fətullayev 1938-ci ildə Akademik Milli Dram Teatrına baş rəssam təyin edilib. Bu vəzifəni həyatının sonlarınadək böyük məsuliyyətlə yerinə yetirib.

Həmin teatrda əllidən çox tamaşanın rəssamı olub. Nüsrət Fətullayevin "Almaz" (1936), "Skapenin kələkləri" (1936), "Həyat" (1937), "Hacı Qara" və "Vaqif" (1938), "Pəri cadu" (1940 və 1957), "Aydın" və "Oqtay Eloğlu" (1940), "Xoşbəxtlər" və "Fərhad və Şirin" (1941), "Dumanlı Təbriz" (1945), "Nüşabə" (1946), "İşıqlı yollar" (1947), "Rəqs müəllimi" (1949), "Müfəttiş" (1952), "Qış nağılı" (1955), "Səyavuş" (1963), "Xanuma" (1975), "Müsyö Jordan və dərviş Məstəli şah" (1978), "Cehizsiz qız" (1979), "Yad adam" (1980), "Təhminə və Zaur" (1985) və digər tamaşalara verdiyi uğurlu tərtibat indiyədək unudulmayıb.

Nüsrət Fətullayev Akademik Milli Dram Teatrından başqa, Azərbaycanın bir sıra teatrlarında da tamaşaların rəssamı olub. O, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Mirzə Fətəli Axundzadənin "Molla İbrahimxəlil kimyagər" komediyasına (1938), Azərbaycan Dövlət Musiqili Komediya Teatrında Rauf Hacıyevin "Tələbələrin kələyi" (1940), Zülfüqar Hacıbəyovun "Əlli yaşında cavan" (1943), Fikrət Əmirovun "Ürəkçalanlar" (1944), Süleyman Ələsgərovun "Məhəbbət gülü" (1945), Viktor Dolidzenin "Keto və Kote" (1945), Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan" (1972) operettalarına səhnə tərtibatı verib.

Nüsrət Fətullayevin əməyi dəyərləndirilib. Sənətdəki xidmətlərinə görə, 1940-cı ildə Əməkdar incəsənət xadimi, 1949-cu ildə Xalq artisti fəxri adları ilə təltif edilib. 1948-ci ildə "Şərqin səhəri" tamaşasına görə, ona Stalin mükafatı verilib. Azərbaycanın Dövlət mükafatına isə Nüsrət Fətullayev 1972-ci ildə "Mahnı dağlarda qaldı" tamaşasının tərtibatına görə layiq görülüb.

### Nəslin yarpaq tökümü...

O illərdə Fətullayevlər ailəsinin tanınmış nümayəndəsi yalnız Nüsrət deyildi. Böyük qardaşı Fateh Fətullayev (1909-1986) respublikanın Əməkdar artisti, teatr və kino aktyoru idi. Haqqında yazılanlara görə, onun əsl adı Fətulla olub. Lakin böyük şair, dramaturq Hüseyn Cavidin təkidi ilə adını dəyişib Fateh qoyublar. Fateh Fətullayev "Ögey ana" filmində Arif, "Bir məhəlləli iki oğlan"da Əliqulu, "Qaraca qız"da bəy rolları ilə tamaşaçıların rəğbətini qazanıb.

Nüsrət Fətullayevin qardaşı Şəmsəddin (1913-1975) konservatoriyada təhsil alıb. Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrının musiqi hissə müdiri, daha sonra Musiqili Komediya teatrında baş dirijor işləyib. "Dərviş Məstəli şah", "İki ağanın bir nökəri" tamaşalarının müsiqi tərtibatçısı olub. Şəmsəddin Fətullayev Azərbaycan Bəstəkarlar İttifaqının üzvü olub.

Nüsrət Fətullayevin kiçik qardaşı Nurəddin (1916-1973) də Azərbaycan Bəstəkarlar İttifaqının üzvü idi. O, qardaşı Şəmsəddindən sonra uzun illər Akedemik Milli Teatrda müsiqi hissə müdiri olub. "Atayevlər ailəsi" (Azərbaycan radiosu) əsərində musiqi tərtibatını verib.

Fətullayev qardaşlarının yolunu övladları - Nüsrət Fətullayevin qızı Vəfa və Nurəddin Fətullayevin oğlu Hafiz davam etdirib. Hafiz Fətullayev (1944-2015) kinorejissor, ssenatist, aktyor kimi tanınıb. Vəfa Fətullayeva (1945-1987) isə gənc yaşlarından istedadlı aktirisa kimi məşhurlaşıb. Onun anası Hökumə Qurbanova da Azərbaycanın şöhrətli aktrisası idi. Vəfa Fətullayevanın nakam taleyi, vaxtsız ölümü valideynlərini sarsıdıb. Nüsrət Fətullayev qızından sonra çox yaşamayıb.

Vaqif Yusifli Fətullayevlər nəsli haqqında yazdığı "Bir ağacın altı budağı" adlı oçerkdə bildirib: "Nəslin yarpaq tökümü" belə başlandı: əvvəlcə dördüncü - ən kiçik qardaş Nurəddin vəfat etdi (1973). 1975-ci ildə Şəmsəddin bu işıqlı dünyaya vida dedi. Sonra böyük qardaş Fateh ömür karvanını başa çatdırdı (1986). İkinci qardaş Nüsrət bəlkə də bir az çox yaşayardı, amma gözünün ağı-qarası olan qızı Vəfanın ölümü (1987) belini qırdı, qızının dünyadan nakam getməsi Nüsrəti də həmin il dünyadan apardı".

Azərbaycan teatr rəssamlığının inkişafında və formalaşmasında böyük xidmətlər göstərən Nüsrət Fətullayev 1987-ci ildə Bakıda vəfat edib. İkinci Fəxri xiyabanda dəfn olunub.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Sənət töhfələri

## İrəvan Dövlət Azərbaycan Dram Teatrında yeni tamaşa



**Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı "Heydər Əliyev İli" çərçivəsində "Heydər Əliyev zirvəsi" layihəsi ilə respublika miqyaslı qastrol səfərlərinə start verib. Xatırladaq ki, səfər Mədəniyyət Nazirliyinin dəstəyi, regional mədəniyyət idarələrinin təşkilatçılığı ilə həyata keçirilir.**

Qocaman sənət ocağı səfərə şair-dramaturq İftixarın "Nurlu ömrün anları" mənzum tamaşasının nümayişi ilə 22 may tarixində Oğuz rayonundan başlamışdır. Qastrol səfərinin iki mərhələdə həyata keçirilməsi planlaşdırılmışdır. Səfərin birinci mərhələsi Şəki, Bərdə, Ağdaş, İsmayıllı, Kürdəmir, Oğuz, Zaqatala, Qax, Mingəçevir, Yevlax, Tərtər, Göyçay, Ucar, Zərdab, Şamaxı, Ağsu, Qəbələ, İmişli, Beyləqan, Füzuli, Abşeron rayonlarını və Sumqayıt şəhərini əhatə edir. İkinci mərhələ isə digər regional mədəniyyət idarələrinə daxil olan rayonlarda davam etdiriləcəkdir.

Teatrın bədii rəhbəri İftixar Piriyevlə söhbət zamanı bildirdi: "Məqsədimiz - "Heydər Əliyev İli" münasibətilə Ümummilli Liderin milli məfkurəmizə verdiyi sağlam ideologiyanın böyük uğurlarının təbliğini həyata keçirməkdir. Çalışırıq ki, bu kontekstdə vətənpərvərlik ruhunun geniş vüsət almasına rəvac olaq, eyni zamanda ümumrespublika miqyasında "Heydər Əliyev zirvəsi"nə xalq məhəbbətinin bir daha canlı seyirçisinə çevrilək. Tamaşada Heydər Əliyevin fenomenal cəhətləri bədii ifadə vasitəsilə canlı şəkildə tərənnüm olunur. Ulu Öndərin həm insan, həm dövlət xadimi, siyasi fenomen obrazı, həm də xalqına, vətəninə, vətəndaşına, dövlətinə olan əvəzsiz sevgisi, məhəbbəti poeziyanın və teatr sənətinin ecazkar qüvvəsi ilə canlandırılır".

İ.Piriyev onu da qeyd etdi ki, elə ilk gündən uğurla keçən, məhəbbətlə qarşılanan ilk tamaşamızın nümayişindən etibarən vətəndaşlarımızın Ulu Öndərə olan sönməz sevgisinin gözəl anlarını yaşayırıq. Ümummilli Liderin ömrünün ən parlaq anlarının təcəssümünü sürəkli alqışlarla qarşılayan tamaşaçılarımızla "Heydər - Xalq, Xalq - Heydər" tandeminin əyani nümunəsi çox canlı idi: "Bu mənzərə qürur hissimizi artırır. Biz bunu belə də gözləyirdik".

140 illiyini təntənəli şəkildə qeyd etməyə hazırlaşan C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı Azərbaycan Teatr sənətinin 150 illiyi ərəfəsində öz sənət töhfələri ilə tamaşaçıları qarşısında müxtəlif layihələr həyata keçirmək niyyəti ilə əzmlə çalışıb yaradır və növbəti layihələrə hazırlaşır.

*"Azərbaycan"*

## Zəfər Muzeyi fondlarının komplektləşdirilməsi üçün indiyədək 8611 əşya toplanılıb



"Azərbaycan İstiqlal Muzeyi tərəfindən Zəfər Muzeyinin fondlarının komplektləşdirilməsi üçün şəhid ailələrindən, qazilərdən, Vətən müharibəsində iştirak edən qəhrəmanlardan şəxsi əşyaların, materialların, hərbi qənimətlərin Zəfər Muzeyinin fondları üçün toplanması işi davam etdirilir. Hazırda Zəfər Muzeyinin fondlarının komplektləşdirilməsi üçün toplanan əşyaların sayı 8611-ə çatıb".

Bu sözləri İstiqlal Muzeyinin direktoru Sədi Mirseyibli söyləyib.

"Əşyaların toplanması prosesinə tələbələr cəlb edilib. Azərbaycan İstiqlal Muzeyində istehsalat təcrübəsi keçən Mədəniyyət və İncəsənət Universiteti, Turizm və Menecment Universitetinin tələbələri bu işə könüllü cəlb olunublar. Onlar şəhid ailələrindən əşyaları toplayaraq muzeyə təhvil verirlər. Bu iş Mədəniyyət Nazirliyi tərəfindən İstiqlal Muzeyinə tapşırılıb. Proses davam edir. Gələcəkdə Zəfər Muzeyi fəaliyyətə başladığı zaman həmin əşyalar ora təhvil veriləcək", - deyə Sədi Mirseyibli qeyd edib.

● Xəbər

## "Şahdağ" Turizm Mərkəzinin imkanları beynəlxalq sərgidə tanıdılır

**"Şahdağ" Turizm Mərkəzi Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində keçirilən beynəlxalq "Riyad səyahət sərgisi"ndə iştirak edir. Sərgini ziyarət edən qonaqlara "Şahdağ"ın yay və qış fəsillərində xarici turistləri qəbul etmə potensialı, xüsusən qış turizmi üçün burada bütün şəraitin yaradıldığı haqqında geniş məlumat verilir.**




"Şahdağ" Turizm Mərkəzinin mətbuat katibi Orxan Bədəlov bu barədə bildirib ki, "Şahdağ" Turizm Mərkəzi xüsusən yay və qış mövsümündə yerli və xarici turistləri qəbul edir. Mərkəzdə xarici turistlərin vaxtlarının daha səmərəli və maraqlı keçirilməsi üçün bütün lazımi şərait yaradılıb: “Düşünürəm ki, ölkəmizin turizm potensialının daha geniş auditoriyaya çatdırılması baxımından belə sərgilərdə təmsil olunmağımızın böyük əhəmiyyəti var. Nəzərinizə çatdırım ki, sərgidə dünyanın 55 ölkəsindən 300-dən çox turizm sənayesi nümayəndəsi iştirak edir. Sərgidəki milli stenddə "Şahdağ" Turizm Mərkəzi ilə yanaşı, Azərbaycan Turizm Bürosu, "Azərbaycan Hava Yolları" QSC və 13 yerli turizm sənayesi nümayəndəsi təmsil olunur. Sərginin 30 minədək ziyarətçini qəbul edəcəyi gözlənilir".

◆ Jurnalist araşdırması

# Sığorta etdirməyənlər cərimələnəcəklər?

## Daşınmaz əmlakın sığortalanma durumu yeni elektron sistemlə müəyyən ediləcək



*Əvvəli 1-ci səh.*

Elektronlaşma tamamlandıqdan sonra nəzarətedici qurum yalnız bir ekrandan vətəndaşın əmlakının sığortalı olub-olmadığını görəcək.

Eyni zamanda elektronlaşma daşınmaz əmlakın icbari sığorta edilməməsinə görə qanunla nəzərdə tutulmuş cərimələrin də tətbiq edilməsinə imkan yaradacaq. Daşınmaz əmlakının icbari sığortasını həyata keçirməyən mülk sahibləri bundan sonra cərimədən yayına bilməyəcəklər. Çünki sığorta növü üzrə cərimələr də elektron qaydada tətbiq olunacaq. Elektronlaşmadan sonra xəbərdarlıqlara baxmayaraq, mənzillərini sığortalatdırmayan vətəndaşlar bir müddət sonra mərhələli şəkildə inzibati məsuliyyətə cəlb olunacaqlar. Müqavilə bağlanmamasına görə inzibati məsuliyyətə cəlb olunan vətəndaşlar 20 gün ərzində icbari sığorta müqaviləsini bağlamasalar, cərimələnəcəklər.

Onu da qeyd etmək lazımdır ki, mənzillərin sığortalanmasının elektronlaşdırılmasının əsas məqsədi vətəndaşları cərimə qorxusu ilə sığortaya cəlb etmək deyil, onları risklərdən qorumaqdır. Çünki daşınmaz əmlakın icbari sığortası ciddi risk təminatına sahib olan sığorta növüdür.

### Çıxarışı olan bütün mənzillər sığortalanmalıdır

Azərbaycanda daşınmaz əmlakın sığortalanması "İcbari sığortalar haqqında" qanunla tənzimlənir. Qanuna əsasən, ölkəmizdə mövcud olan yaşayış və qeyri-yaşayış əmlaklarının sığortalanması məcburidir. Daşınmaz əmlakının icbari sığortası olmayan fiziki şəxslərə 30, vəzifəli şəxslərə 80, hüquqi şəxslərə isə 200 manat məbləğində cərimə nəzərdə tutulub. Bakıdakı ev və mənzillərin illik sığorta haqqı 50, Gəncə, Sumqayıt və Naxçıvanda 40, digər şəhər və rayonlarda isə 30 manatdır. Müvafiq olaraq, paytaxtdakı mənzillərə 25 min manat, Gəncə, Sumqayıt və Naxçıvandakılara 20 min, digər şəhər və rayonlardakı mənzillərə isə 15 min manat sığorta təminatı verilir. Qeyri-yaşayış obyektlərinin sığorta tarifləri isə əmlakın yerləşdiyi yerə, təyinatına və həcminə görə müəyyən edilir.

Qanun mülkiyyət hüququnun təsdiqlənməsi haqqında çıxarışı (kupçası) olan bütün mənzillərin sığortalanmasını tələb edir. Qəza vəziyyətində olan, tikintisi başa çatmayan, özbaşına tikilmiş və ya sökülməsi barədə dövlət və yerli özünüidarəetmə orqanlarının qərar verdiyi mənzil və evlər isə sığortalana bilməz.

Qanundan irəli gələn tələblərə görə, yanğın, ildırım düşməsi, məişətdə və istehsalatda istifadə olunan qazın partlayışı, elektrik naqillərində qısaqapanma, maşınların, aparatların partlayışı, su, istilik, kanalizasiya kəmərlərinin və yanğınsöndürmə sistemlərinin qəzası, habelə qonşu tikililərdən, yaşayış və qeyri-yaşayış sahələrindən daxil olan su nəticəsində subasma və digər oxşar hallar sığorta hadisəsidir. Həmçinin təbii fəlakətlər - zəlzələ, vulkan, fırtına, qasırğa, tufan, dolu, sel, daşqın, leysan, yer sürüşməsi də daşınmaz əmlakın icbari sığorta növü üzrə sığorta hadisəsi hesab olunur.

### Vətəndaşlara dəymiş ziyanın sığorta şirkətləri tərəfindən qarşılanması asanlaşacaq

Xatırladaq ki, 2020-ci ilin əvvəllərindən etibarən daşınmaz əmlakın icbari sığortası ilə bağlı nəzarət tədbirlərinin gücləndirilməsi ilə əlaqədar olaraq fərdi evlərin və mənzillərin kütləvi şəkildə sığortalanmasına başlanılmışdı. Həmin ilin yanvar-mart aylarında sığorta şirkətlərinin daşınmaz əmlakın icbari sığortası üzrə topladıqları sığorta haqlarının məbləği 17 milyon 845,3 min manat təşkil etmişdi. Bu, 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 94,9 faiz çox idi. Yəni nəzarət tədbirlərinin gücləndirilməsi və cərimələrin tətbiqi sayəsində daşınmaz əmlakın sığortalanmasında ciddi irəliləyiş olmuşdu.

Ötən il isə şirkətlər bu sığorta növü üzrə 53 milyon 980 min manat yığım əldə ediblər. Mütəxəssislərin fikrincə, icbari sığortanın elektronlaşdırılması 2023-cü ildə daşınmaz əmlak növü üzrə yığımların 100 milyon manata kimi artmasına səbəb ola bilər. Bu, fövqəladə hadisə zamanı vətəndaşlara dəymiş ziyanın sığorta şirkətləri tərəfindən qarşılanmasını asanlaşdıracaq.

### Bu yenilik sığorta mədəniyyətinin inkişafına səbəb olacaq

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov əməkdaşımıza bildirib ki, elektronlaşdırma vətəndaşların fərdi evlərini və mənzillərini sığortalamaları üçün bir stimul olacaq: "Nəzərə almaq lazımdır ki, daşınmaz əmlakın icbari sığortasından yayınma hallarının əsas səbəbi vətəndaşların məlumatsızlığı və sığorta işinə marağın az olmasıdır. Bunun nəticəsidir ki, xüsusilə bölgələrdə, eləcə də paytaxtda əmlakların böyük əksəriyyəti sığortalanmayıb. Belə olan halda mülk sahibləri icbari sığortadan istifadə etmədikləri üçün əmlakları ziyan gördükdə ödəniş etməkdə çətinlik çəkirlər".

Deputatın sözlərinə görə, elektron xidmətlərdən istifadə vətəndaşların daha qısa zamanda sığortadan yararlanmasına gətirib çıxaracaq: "Sığorta ilə bağlı elektronlaşdırılmanın həyata keçirilməsi həmçinin vahid bazanın formalaşmasına səbəb olacaq. Nəticədə sığortalanmayan əmlakların daha asan və qısa müddətdə sığortaya cəlb edilməsinə şərait yaranacaq. Bu baxımdan daşınmaz əmlakın sığortalanmasının elektronlaşdırılması zəruridir. Bu, sığorta bazarının genişlənməsi və sığorta münasibətlərinin dərinləşməsi baxımından da önəmlidir".

Azərbaycan Sığortaçılar Assosiasiyasının icraçı direktoru Elmar Mirsalayev isə qəzetimizə açıqlamasında bildirib ki, ölkə ərazisindəki daşınmaz əmlakların heç də hamısının sığortalanmaması icbari sığorta növünün elektronlaşmasına zərurət yaratdı. İnformasiya inteqrasiyası ilə formalaşdırılan bu elektronlaşma respublikadakı bütün sənədli əmlakların müəyyən olunub sığortaya cəlb olunmasına təkan verəcək. Xüsusi qeyd etmək lazımdır ki, daşınmaz əmlak sığortasının ölkəmizdə icbari tətbiq olunması və qanunvericiliklə tənzimlənməsi Azərbaycanın sosial dövlət olduğunu və qanunvericiliklə vətəndaşının rifahını qoruduğunu ortaya qoyan başlıca faktordur".

### Ölkədəki yaşayış əmlaklarının 10 faizi, qeyri-yaşayış əmlaklarının isə 30 faizi sığortalanıb

Araşdırmalar göstərir ki, ölkəmizdə sığorta sektorunda irəliləyişə nail olunur. Bu, sektorda dayanıqlı inkişafı təmin edən başlıca səbəblərdəndir. Yerli sığorta bazarının əldə etdiyi müsbət nəticə islahat tədbirlərinin sistematik olaraq həyata keçirilməsi ilə əlaqəlidir.

Elmar Mirsalayev qeyd edib ki, Azərbaycan sığorta bazarına nəzarətedici və tənzimləyici orqan olan Mərkəzi Bankın, habelə sığorta bazarının təmsilçiləri olan Azərbaycan Sığortaçılar Assosiasiyası və İcbari Sığorta Bürosunun əhalidə istər sığorta savadlılığının və sığorta məlumatlılığının artırılması, istərsə də cəmiyyətin sığorta xidmətlərinə əlçatanlığının təmin olunması istiqamətində atdığı funksional addımları bu islahat tədbirlərinə misal göstərmək olar.

Müsahibimiz bildirib ki, son dövrlər "Daşınmaz əmlakın icbari sığortası" növü üzrə cari ilin yanvar-mart ayları ərzində təmin olunan sığorta yığımları 36.4 milyon manat təşkil edib: "Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 11.2 milyon manat çoxdur. Hesabat dövründə adıçəkilən növ üzrə sığorta ödənişlərində də artım qeydə alınıb. Belə ki, 2023-cü ilin I rübündə baş vermiş sığorta hadisələrinə görə, vətəndaşlara 390 min manat sığorta ödənişi həyata keçirilib. Bu, 2022-ci ilin eyni dövrü ilə müqayisədə 115 min manat çoxdur".

Elmar Mirsalayevin sözlərinə görə, daşınmaz əmlakın icbari sığortası növü üzrə müəyyən qədər artım təmin olunsa da, nəticə qaneedici deyil: "Son rəsmi statistikaya görə, ölkədə mövcud olan yaşayış əmlaklarının təxminən 10 faizi, qeyri-yaşayış əmlaklarının isə 30 faizi sığortalıdır. Buradan da aydın görünür ki, ölkəmizdə "Daşınmaz əmlakın icbari sığortası" bazarının potensialı əhəmiyyətli dərəcədə böyükdür. Bu sığorta növünün elektronlaşması mövcud problemləri müəyyən qədər aradan qaldıracaq".

İcbari Sığorta Bürosunun məlumatına əsasən, 2022-ci ilin sonuna ölkədə ümumilikdə 151 min ev və mənzil sığortalanıb. Azərbaycanda sığortalana bilən 1 milyondan çox yaşayış əmlakının olduğunu nəzərə alsaq, bu göstəricinin qənaətbəxş olmadığı aydın görünür. Ona görə də daşınmaz əmlakın sığortalanmasının elektronlaşdırılması zəruridir. Yeni elektron sistemin yaxın günlərdə fəaliyyətə başlaması bu kimi problemləri aradan qaldıracaq.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |


AZƏRBAYCAN
Azərbaycan-Litva strateji tərəfdaşlığına güclü təkan
Vilnüs Beynəlxalq Aeroportunda qarşılanma
Rəsmi qarşılanma mərasimi
Geniş tərkibdə görüş
Litvanın Baş naziri ilə görüş
Məhdud tərkibdə görüş
Prezidentlərin mətbuata bəyanatları
Birinci xanımların görüşü
Azərbaycan-Litva sənədləri imzalanıb
Azərbaycan-Litva biznes-forumu
Litva Milli Kitabxanası ilə tanışlıq

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Akademik Əhəd Canəhmədovun "Kainatı izah edərkən: Mühəndislik fəlsəfəsi" kitabı çapdan çıxıb

Dünyaşöhrətli azərbaycanlı alim, mexanik-filosof, texnika elmləri doktoru, professor, Azərbaycan Mühəndislik Akademiyasının vitse-prezidenti, Beynəlxalq Mühəndislik Akademiyasının Prezidentlər Şurasının üzvü, Azərbaycan Milli Aviasiya Akademiyasının "Nəqliyyat mexanikası" kafedrasının müdiri Əhəd Canəhmədovun "Kainatı izah edərkən: Mühəndislik fəlsəfəsi" adlı elmi-kütləvi fəlsəfi traktatı nəşr olunub.




AZƏRTAC xəbər verir ki, kitabın elmi redaktoru və ön sözün müəllifi Beynəlxalq Mühəndislik Akademiyasının Prezidenti, SSRİ və Rusiya Federasiyasının Dövlət və hökumət mükafatları laureatı, akademik Boris Qusevdir. Rəyçi isə fəlsəfə elmləri doktoru, professor Cahangir Məmmədovdur.

Traktatın müəllifi öz xarakterik üslubu ilə ötən əsrin intellektual nailiyyətlərinin yaşadığımız dünya haqqında ən fundamental fikirlərimizi necə alt-üst etdiyini izah edir.

Əhəd Canəhmədov dövrümüzdə qərarlaşmır, o, elmin, texnikanın və mühəndis fəlsəfəsinin ən son nailiyyətlərinə arxalanaraq, sivilizasiyanın taleyini düşünür, süni intellektin köməyilə gələcəyə baxmaq üçün oxucuya həyəcanlı imkan yaradır. Müəllif oxucunu maraqlı bir yolla - qədim şumerlərdən tutmuş bizim dövrümüzə, Orta əsrlərdə Şərq və Avropa dünyasında elmin inkişafı yolu ilə aparır.

Bu, kainatı izah etmək üçün müasir elmi biliyin necə doğulduğu və inkişaf etdiyinə dair uzunmüddətli fundamental əsərdir. Əhəd Canəhmədov üçün elmin populyarlaşması heyrətamiz bir istəkdir.

Bu kitab "Maddi dünyada həyat necədir? Dünya necə işləyir və ümumbəşəri dəyərlərin elmlə əlaqəsi necədir? Elm və din arasında hansı əlaqə var?" kimi bir sıra suallara cavab axtaranlar üçündür.

Kitab kainatımızın quruluşu ilə maraqlanan, elm və idrakın keçdiyi yolu dərk edən geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Traktatın üz qabığında müəllif və onun kitabı ilə bağlı xarici alimlərin fikirləri öz əksini tapıb.

Əhəd Canəhmədov xarici ölkələrin bir sıra akademiyalarının həqiqi üzvü, 30-dan çox monoqrafiyanın, 3 elmi kəşfin və 450-yə yaxın elmi məqalənin və patentin müəllifidir. Onun fundamental əsərləri ingilis dilinə tərcümə edilib, ABŞ, Almaniya və digər ölkələrdə nəşr edilib və beynəlxalq səviyyədə tanınıb. O, "Mühəndislik fəlsəfəsi" istiqamətinin əsasını qoyub.

Alimin xidmətləri yüksək qiymətləndirilib. O, beynəlxalq mükafatlar laureatıdır və xarici ölkələrin bir çox orden və medalları ilə təltif olunub.

Kitab Bakı şəhərində "Apostrof-A" nəşriyyatında çap olunub.

# Revanşistlərin çevriliş planı

*Əvvəli 1-ci səh.*

Diplomatik mənbələrdən alınan məlumatlara görə, mümkün Hayastan-Azərbaycan razılaşmasının maraqlı mərkəzləri, xüsusən də Qərb sənədin imzalanmasından sonra Nikol Paşinyanın hakimiyyətdə qalması məsələsinin çox ciddi problemə çevrilə biləcəyini anlayaraq, bu günlərdə alternativ, "ehtiyat" variantının müzakirəsi ilə bağlı fəallıq nümayiş etdirirlər. Həmin mərkəzlər başa düşürlər ki, müqavilə imzalanandan sonra Paşinyanı hakimiyyətdə saxlamaq nəinki qeyri-mümkün ola, həm də məqsədəuyğun olmaya bilər. Buna görə də onlar "B" planı tapmağa çalışırlar".

Qeyd olunur ki, Paşinyanın dəyişdirilməsi məsələsi həm də həmin qüvvələrin siyasi maraqlarını qorumaq və onları sona qədər irəli aparmaq, gələcəkdə regional proseslərdən kənarda qalmamaq baxımından vacibdir. Müvafiq olaraq, bir neçə mümkün namizəd müzakirə edilir ki, onlar da təbii olaraq Qərb qanadına aiddir. Yeri gəlmişkən, namizədlər arasında Paşinyanın komandasının bəzi nümayəndələri ilə yanaşı, hazırda Hayastanın daxili siyasi həyatında fəal olmayan fiqurların da olduğu barədə məlumatlar var.

Siyasi təhlilçi Geqard Mansuryan qeyd edir ki, Paşinyan hökumətinin siyasəti iflasa uğrayıb və əleyhdarları bundan istifadə etməyə çalışırlar. Paşinyan iqtidarı Qərbə olan qeyri-real ümidi və saxtakar hərəkətləri ilə Rusiyanın və Kollektiv Təhlükəsizlik Müqaviləsi ölkələrinin narazılığına səbəb olub. 2018-ci ildə Hayastanda baş verən siyasi dəyişikliklərdən sonra qərbləşməyə əsaslanan liberalizm nəzəriyyəsi ölkənin siyasi arenasını dəyişdirib. 2020-ci ildə Azərbaycanın Qarabağı azad etməsi və 2020-ci il noyabrın 10-da atəşkəs haqqında saziş imzalaması faktiki olaraq Hayastanın daxili və xarici siyasətinə təsir edib. Azərbaycan və Türkiyə ilə daimi sülhə doğru irəliləyən Paşinyan qeyri-müəyyənlik aurasındadır. Sadə dillə desək, idealist yanaşma ilə o, diplomatiyasında heç bir nailiyyət qazanmayıb.

Mövcud vəziyyətin nəticələri Nikol Paşinyan hökumətinin siyasətinin iflasa uğradığını, Hayastanın və onun strateji müttəfiqi olan Rusiyanın mövqeyinin Qafqaz regionu və beynəlxalq aləmdə zəiflədiyini açıq şəkildə ifadə edir. Qərbin məqsədi Rusiyanı Cənubi Qafqazdan çıxartmaq və İranın həmin regionda nüfuzunun genişlənməsinə qarşı çıxmaqdır.

Göründüyü kimi, hər iki ölkə arasında sülh müqaviləsinin imzalanmasının aktual olduğu bir dönəmdə hərbi xuntanın və ona bənzər digər ara qızışdıranların bu cür sərsəm bəyanatlar verməsi erməni xalqını növbəti dəfə fəlakətə sürükləyir. Qeyd edək ki, Azərbaycanla müharibədəki məğlubiyyət Hayastanı elə bir uçuruma yuvarladıb ki, xilası mümkün deyil. Bütün bunlar, o cümlədən Koçaryan və Sarkisyan kimi müharibə cinayətkarlarının hakimiyyətləri dövründən yığılıb qalmış ağır problemlər hazırkı iqtidarı çətin vəziyyətdə qoyub. Əslində, revanşist qüvvələr çox yaxşı başa düşürlər ki, böyük siyasətə qayıtmaq üçün heç bir şansları yoxdur - xalq hələ onların hakimiyyət dövrünü unutmayıb.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20


**ALLAH RƏHMƏT ELƏSİN!**

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Nərminə Əsgərovaya əzizi

**İNTİQAMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5792
Sifariş 1314

Qiyməti 40 qəpik